Xalqın qəzeti!

# Xalq qəzeti

№ 146 (30550) 14 iyul 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti xalqqazeti.az

## Azərbaycanın ilk kosmonavtı



Səhifə ⇨ 9

## Beynəlxalq qurumlar COP29-u və Azərbaycanda "yaşıl keçid"i dəstəkləyir

### Prezident İlham Əliyev ATƏT-in baş katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 13-də ATƏT-in baş katibi xanım Helqa Mariya Şmidi qəbul edib.**

Görüşdə COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıran və bu tədbirdə iştirak edəcəyini bir daha vurğulayan Helqa Mariya Şmid COP29 çərçivəsində ölkəmizlə ATƏT arasında yaxından əməkdaşlığın həyata keçirildiyini dedi.

Dövlətimizin başçısı Azərbaycanın COP29-la bağlı çoxsaylı tədbirlər keçirəcəyini qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatının əvvəlki sədri və hazırda bu təsisatın "Troyka"sında olan, həmçinin Avropa İttifaqı ilə yaxın əlaqələrə malik ölkə kimi müxtəlif tərəflər arasında körpülərin qurulması və ümumi həmrəyliyin gücləndirilməsi istiqamətində səylərini davam etdirəcəyini vurğuladı.

Dövlətimizin başçısı ölkəmizin yaşıl keçid siyasəti və bu istiqamətdə görülən tədbirlərdən danışdı. Prezident İlham Əliyev inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Azərbaycanın gündəliyində prioritet istiqamətlərdən biri olduğunu dedi və "Commonwealth" təşkilatı ilə birlikdə kiçik ada dövlətləri ilə əlaqədar xüsusi fondun yaradılması istiqamətində iş aparıldığını bildirdi.

Görüşdə regional bağlantılar məsələsi müzakirə olundu.

Xəzər dənizi və Qara dəniz yaşıl dəhliz layihəsinin əhəmiyyətinə toxunan Helqa Mariya Şmid ATƏT-in gündəliyində yaşıl limanlar layihəsinin xüsusi əhəmiyyət kəsb etdiyini vurğuladı və ölkəmizə səfəri çərçivəsində Ələt Beynəlxalq Dəniz Ticarət Limanında olacağını bildirdi.

Qonaq regional ətraf mühit monitorinq mərkəzinin yaradıldığını dedi və bu çərçivədə əməkdaşlıq məsələlərinə toxundu. Bütövlükdə, ATƏT-in gündəliyində iqtisadiyyat və ətraf mühit məsələlərinin önəm kəsb etdiyini və bu layihələrin etimad quruculuğuna töhfə verdiyini vurğuladı.

Söhbət zamanı regional sülh gündəliyi məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Azərbaycanın sülh gündəliyinə sadiqliyini vurğuladı və sülh müqaviləsinin imzalanması üçün Ermənistanın konstitusiyasında dəyişikliklərin aparılmasının, Azərbaycana qarşı ərazi iddialarına konstitusional əsasda son qoyulmasının vacibliyini qeyd etdi.

Helqa Mariya Şmid humanitar minatəmizləmə fəaliyyətlərinə toxundu.

Prezident İlham Əliyev Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və torpaqlarımızın işğalı nəticəsində ərazilərimizin kütləvi şəkildə minalarla çirkləndiyini deyərək, 370-ə yaxın insidentin baş verdiyini, çoxlu sayda insanın mina partlayışları nəticəsində həlak olduğunu və yaralandığını vurğuladı.

Görüşdə ATƏT-in gündəliyində duran məsələlər barədə fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

## Möhtəşəm 55 il: dövlət müstəqilliyinə aparan milli intibah və hərtərəfli tərəqqi

### *Ulu öndərin xalqa bəxş olunmuş ömrünün liderlik zirvəsi*



**Ümummilli lider Heydər Əliyevin Azərbaycanda birinci dəfə hakimiyyətə gəlişindən 55 il keçir. 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda respublika rəhbərliyində kifayət qədər məsul vəzifədə çalışan, Dövlət Təhlükəsizliyi Komitəsinin sədri olan Heydər Əliyev MK-nın birinci katibi seçilərək respublikanın ali rəhbəri səviyyəsinə yüksəlmişdi.**

Ötən 55 ilin tarixi dönə-dönə sübut etmişdir ki, Azərbaycanın sürətli yüksəlişinin, sovet imperiyası tərkibində qısa müddətdə böyük mədəni intibaha nail olaraq milli varlığını dirçəltməsinin və dünyaya tanıtmasının, 22 il sonra qazanılmış dövlət müstəqilliyinə hərtərəfli hazırlıqla qədəm qoymasının təməlləri bu tarixi başlanğıcdan qaynaqlanmışdır. Azərbaycan xalqı əsrlərdən gələn arzu-istəklərinin möhtəşəmliyi ilə Heydər Əliyev kimi milli bir fenomen – dünya siyasətinə boy verən nəhəng bir rəhbər yetişdirmişdi. Bu lider isə xalqının bəlalı taleyinə sahib çıxaraq onu milli haqlarına qovuşdurmaq üçün ilk gündən müqəddəs bir savaşa başlamışdı.

Ulu öndər Heydər Əliyev bir qərinəlik liderlik fəaliyyəti ilə dünya miqyasında tanınan, etiraf edilən görkəmli siyasət və dövlət xadimi olduğunu tarixə məharətlə həkk etmişdir. XX əsrin 90-ci illərində – Azərbaycan beynəlxalq arenaya müstəqil dövlət kimi çıxdığı ilk vaxtlarda ölkəmizi ulu öndər Heydər Əliyevə görə tanıyırdılar. Ümummilli liderin parlaq zəkası, fitri istedadı, böyük enerjisi, uzaqgörənliyi sərhəd tanımır, Azərbaycanın hüdudlarını aşırdı. Bir çox xalqlar, millətlər bizə qibtə edirdi ki, Heydər Əliyev kimi lideriniz var.

*(ardı 4-cü səhifədə)*

## İrəvan itirə-itirə gedir




Səhifə ⇨ 3

## Neft cüzi azalıb, qaz xeyli çoxalıb



Səhifə ⇨ 7

## Hücum futbolunun "maestrosu" "kambek"lərin şahzadəsinə qarşı



Səhifə ⇨ 12

## Yaponiyanın "Ağ kitab"ında "qara" təhlükələr



Səhifə ⇨ 11

## "Xortlayan" vasitəçilik, yoxsa sülh?

### *ABŞ-nin cidd-cəhdləri və Cənubi Qafqazdakı qeyri-müəyyənlik*



**Son gününü yaşadığımız həftənin mühüm hadisələrindən biri də Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramovla ermənistanlı həmkarı Ararat Mirzoyanın növbəti görüşüdür. Nazirlər ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinkenin təşəbbüsü və iştirakı ilə bir araya gəldilər. Əlamətdar haldır ki, iki Cənubi Qafqaz ölkəsinin baş diplomatları NATO-nun 75 illiyinə həsr olunmuş Zirvə toplantısı çərçivəsində görüşdülər. Hər halda, ortaya çıxan mənzərə Birləşmiş Ştatların sülh vasitəçiliyidir. Yazımız bu barədədir. Ancaq digər məqamları da diqqətə çatdıracağıq.**

**Birinci məqam.** Birləşmiş Ştatlar istər bu görüşlə, istərsə də dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Braynın ötən ayın əvvəlində Ermənistana, sonunda isə Azərbaycana səfərləri ilə sülh vasitəçiliyi missiyasını, bir növ, "dirildib". Hər halda, Vaşinqtondan gələn təqdimatlar belə deməyə əsas verir. Halbuki, son aylaradək sözügedən vasitəçiliyin tarixin arxivinə göndərildiyinə dair təsəvvür var idi. Təsəvvür Azərbaycan və Ermənistan arasında delimitasiya və demarkasiya üzrə birbaşa danışıqların aparılması ilə möhkəmlənmişdi də. Bu o demək idi ki, tərəflər bütün real nəticələrə yalnız ikili təmaslar müstəvisində gəlirlər. Məsələyə mövcud prizmadan yanaşsaq, Blinkenin təşəbbüsü ilə keçirilmiş görüşün konkret nəticəsi yoxdur. Ortada olan ABŞ-nin canfəşanlığıdır ki, onun da məqsədlərini C.O'Brayn İrəvanda və Bakıda olarkən açıqlamışdı. O, Azərbaycan-Ermənistan sülhünün vacibliyini qlobal nəqliyyat dəhlizinin işləkliliyi nöqteyi-nəzərdən əsaslandırmışdı. O dəhlizin ki, Ağ ev rəsmilərinin fikrincə, Rusiyanın Cənubi Qafqazdakı təsirini minimallaşdıracaq, geniş perspektivdə isə Kremlin bölgədən tamamilə sıxışdırılmasını təmin edəcək.

**İkinci məqam.** Bəli, Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri iki ölkə arasındakı sülh gündəminin, kifayət qədər, irəlilədiyi vaxtda bir araya gəldilər. Hesab edirik ki, mövcud anlamda dəqiqləşdirilməli və yenidən baxılmalı olan məsələlər var. Nəzərə alaq ki, tərəflərin sülhə gəlməsinə lap az zaman məsafəsinin qaldığı bəyan edilsə də, sülh gündəminin bəzi vacib komponentlərindən söz açılmır. Yəqin elə buna görədir ki, görüşdə sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında tarixi sazişin yekunlaşdırılması istiqamətində əldə olunmuş irəliləyiş vurğulanmaqla yanaşı, başlanılmış işi davam etdirmək razılaşdırılıb.

**Üçüncü məqam.** İşdən söz düşmüşkən, A.Blinkenin özünün də Bayramov-Mirzoyan təması ilə bağlı açıqlaması oldu. O bildirdi ki, son 1 il 6 ay ərzində Azərbaycanla Ermənistan uzunmüddətli sülhün əldə olunması üzrə danışıqlar prosesində mühüm işlər görüb. Heç şübhəsiz, dövlət katibinin dilə gətirdiyi 1 il 6 aylıq müddət Birləşmiş Ştatların təşəbbüsü kontekstindədir. Yəni, Blinken ölkəsinin vasitəçiliyinə fokuslanır. Prinsip etibarilə, həmin vasitəçiliyin qırılmaz və davamlı trayektoriyasının mövcudluğunu vurğulayır. Ümumən isə o, sülh prosesindəki bütün nailiyyətlərin ABŞ-nin köməyi ilə əldə olunduğu üzərində dayanır. Beləliklə, ölkəsinin sülhü dəstəkləyən obrazını canlandırır. Təqdimat nə dərəcədə yerinə düşür, bunu zaman göstərəcək.

*(ardı 3-cü səhifədə)*

# Monteneqronun Prezidenti Zati-aliləri cənab Yakov Milatoviçə

**Hörmətli cənab Prezident,**

Ölkənizin milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan-Monteneqro dostluq və əməkdaşlıq münasibətləri xoş ənənələrə malikdir. Dövlətlərarası əlaqələrimizin inkişaf dinamikası, müxtəlif sahələrdə əməkdaşlığımızın genişlənməsi məmnunluq doğurur.

Əminəm ki, ölkələrimiz arasında münasibətləri möhkəmləndirmək, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı faydalı əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monteneqro xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 iyul 2024-cü il**

## “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Efiopiya Federativ Demokratik Respublikasının Dövlət Xidməti Komissiyası arasında Anlaşma Memorandumu”nun təsdiq edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il mayın 14-də Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Efiopiya Federativ Demokratik Respublikasının Dövlət Xidməti Komissiyası arasında Anlaşma Memorandumu” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Efiopiya Federativ Demokratik Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 iyul 2024-cü il**

## “Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının, Kioto Protokolunun və Paris Sazişinin Katibliyi arasında Razılaşma”nın təsdiq edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il iyunun 7-də məktublar mübadiləsi formasında imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının, Kioto Protokolunun və Paris Sazişinin Katibliyi arasında Razılaşma” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Razılaşma qüvvəyə mindikdən sonra Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının müəyyən edilmiş Prezidenti (President-Designate) onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Razılaşmanın qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının, Kioto Protokolunun və Paris Sazişinin Katibliyinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 iyul 2024-cü il**

## “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 858 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 may tarixli 63 nömrəli və 30 may tarixli 77 nömrəli fərmanları) 4-cü hissəsində “1539” rəqəmləri “1560” rəqəmləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 iyul 2024-cü il**

# Qarabağ Bəyannaməsi İsveç mediasında

**İsveçin “CawaMedia” agentliyinin saytında bugünlərdə Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) qeyri-rəsmi Zirvə görüşünün yekunlarına dair qəbul edilmiş Qarabağ Bəyannaməsi haqqında məqalə dərc olunub.**


Historiska Karabachdeklarationen i Shusha

Agentliyin məqaləsində Qarabağ Bəyannaməsinin imzalanması qlobal ticarət yollarını və regional iqtisadiyyatları dəyişdirməyə qadir olan tarixi və uzaqgörən addım kimi xarakterizə edilib. Qeyd olunub ki, bu hadisə bütün Qərb dünyası və Şimali Avropa ölkələri üçün ciddi nəticələrə səbəb olacaq, Avrasiya məkanında ticarət və rəqəmsal əlaqələri potensial olaraq dəyişdirəcək.

Müəllif diqqətə çatdırıb ki, Xəzər dənizi vasitəsilə Avropa ilə Asiya arasında fiber-optik telekommunikasiya marşrutu yaratmaq məqsədi daşıyan “Rəqəmsal İpək Yolu” layihəsi Skandinaviya ölkələri üçün xüsusi maraq kəsb edir, həmçinin Skandinaviyanın texnoloji şirkətləri və rəqəmsal xidmət təminatçılarına yeni imkanlar yarada, Avropa ilə Asiya arasında məlumatların daha sürətli və təhlükəsiz çatdırılmasını təmin edə bilər.

Şimal ölkələrinin IT sektoru üçün bu rəqəmsal dəhliz sürətlə böyüyən Asiya bazarları ilə mükəmməl əməkdaşlığı, potensial olaraq bulud xidmətlərinin daha asan yerləşdirilməsini, çoxmillətli əməliyyatlar üçün təkmilləşdirilmiş əlaqəni, habelə e-ticarət və rəqəmsal məzmunun çatdırılması kimi sahələrdə yeni imkanları təmin edə bilər.

Məqalədə Azərbaycanın Bakı-Tbilisi-Qars yeni ticarət marşrutunda roluna xüsusi diqqət yetirilir. Qeyd olunur ki, Xəzər dənizində 50-dən artıq kommersiya gəmisi olan ölkəmiz türk dövlətlərinə mühüm tranzit xidmətləri təqdim edir.

***XQ***

# Azərbaycan–ATƏT əməkdaşlığının perspektivləri



**İyulun 13-də xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan ATƏT-in baş katibi Helqa Şmid ilə görüşüb.**

Görüşdə Azərbaycan–ATƏT əməkdaşlıq gündəliyinin perspektivləri, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri, regional əməkdaşlıq imkanları müzakirə olunub.

Mövcud regional və beynəlxalq təhlükəsizlik vəziyyətinin fonunda ATƏT çərçivəsində regional məsələlərin beynəlxalq hüquq normaları əsasında həllini tapması istiqamətində hazırkı imkanlardan səmərəli istifadənin vacibliyi vurğulanıb. Bu istiqamətdə təşkilatın öz fəaliyyətini günümüzün reallıqlarına uyğun şəkildə qurmasının əhəmiyyəti qeyd olunub. Ölkəmizin ATƏT-lə bir sıra istiqamətlər üzrə ən fəal üzvlərdən olduğu diqqətə çatdırılıb.

Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyinin mövcud əməkdaşlıq gündəliyində iqlim fəaliyyəti istiqamətinin gücləndirilməsinə töhfə verə biləcəyi qeyd edilib.

Ceyhun Bayramov postmünaqişə dövründə regional vəziyyət, ölkəmizin bərpa, yenidənqurma və sülh gündəliyi, mövcud təhdid və çağırışlardan ətraflı bəhs edib. Ermənistanın mina təhdidinin vətəndaşlarımızın işğaldan azad olunmuş ərazilərə qayıdışına, habelə bu istiqamətdə aparılan genişmiqyaslı bərpa və quruculuq işlərinə hədə törətməkdə davam etdiyi bildirilib.

Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesində son vəziyyət, sülh prosesində əldə olunan irəliləyişlər qeyd edilib. Bununla belə, Ermənistanın indiki Konstitusiyasında hələ də ölkəmizə qarşı ərazi iddialarının mövcudluğunun qəbuledilməz olduğu vurğulanıb. Sülh gündəliyinin irəli aparılmasına təhdid törədən addımların, xüsusilə Ermənistanda artan sürətli hərbiləşmənin narahatlıq mənbəyi olaraq qaldığı diqqətə çatdırılıb.

***XQ***

# Tbilisidə COP29 seminarı



**Gürcüstanda fəaliyyət göstərən “Alyans” Gənclər Mərkəzinin müəllim və tələbələri Tbilisinin Nəbatat bağında açıq səma altında 2024-cü ilin noyabrında Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cü sessiyasına – COP29-a həsr olunmuş seminar keçiriblər.**

Gənclər əvvəlcə Botanika bağında yerləşən, görkəmli azərbaycanlıların panteonunda Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Fətəli xan Xoyski və Həsən bəy Ağayevin, eləcə də maarifçi, şair, ictimai xadim, Azərbaycan dramaturgiyası və ədəbiyyatında ədəbi tənqidin banisi M.F.Axundzadənin xatirəsini anıblar.

Tələbələr təbibin ad günü ilə əlaqədar maraqlı kompozisiya nümayiş etdiriblər.

Sonra mərkəzin müəllim və tələbələri Botanika bağında salınmış Heydər Əliyev adına xatirə bağında olublar. Bildirilib ki, Ulu öndərin 100 illik yubileyi ilə əlaqədar Azərbaycanın Gürcüstandakı Səfirliyinin təşəbbüsü ilə burada 100 ədəd nar ağacı əkilib. Bu ağacların əkilməsi Azərbaycan dövlətinin qonşu Gürcüstanda da ekologiya və ətraf mühitin mühafizəsinə töhfəsi kimi qiymətləndirilib.

Mərkəzin icraçı direktoru Rəna Hüseynova Azərbaycan dövlətinin ekologiya, ətraf mühitin mühafizəsi ilə gördüyü işlər, COP29 barədə ətraflı məlumat verib. Bildirib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransı COP Konvensiyasının ali qərar qəbul edən orqanıdır. Hər il dünyanın müxtəlif ölkələrindən hökumət nümayəndələri COP-da toplaşaraq iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində birgə səylər göstərmək üçün çağırışlar edirlər.

***XQ***

# Klassik avtomobillərin yürüşü keçiriləcək

**Azərbaycan Avtomobil Federasiyasının təşkilatçılığı ilə avqustun 25-də paytaxtda klassik avtomobillərin yürüşü və sərgisi keçiriləcək.**

Ənənə halını alan yürüşdə 1984-cü ilədək istehsal olunan avtomobillər iştirak edəcək. Bunun üçün klassik avtomobil sahibləri avqustun 15-dək AAF-ın elektron ünvanı info@faa.az və ya (+99450) 295 01 00 nömrəsinə müraciət etməklə qeydiyyatdan keçə bilər.

Yürüşdən əvvəl Dənizkənarı Milli Parkda klassik avtomobillərin sərgisi təşkil olunacaq. Dənizkənarı Milli Park – Heydər Əliyev Mərkəzi – “Dreamland Golf Club” marşrutu üzrə yürüşdə AAF-da qeydiyyatdan keçən avtomobillərlə yanaşı, Heydər Əliyev Mərkəzindəki daimi sərgidə nümayiş olunan bəzi klassik avtomobillər də iştirak edəcək. Müxtəlif illərdə və ölkələrdə istehsal olunan bu avtomobillərin hər biri nəinki müasir nəqliyyat vasitələrindən fərqlənən və nostalji hisslər yaradan görünüşü, həm də maraqlı tarixi ilə diqqəti cəlb edəcək.

Marşrutun sonunda “Dreamland Golf Club”da klassik avtomobillərin sərgisi keçiriləcək. Hər kəs bu avtomobillərin qarşısında gözəl foto çəkdirmək, klassik avtomobillərin tarixi, özəllikləri ilə daha yaxından tanış olmaq imkanı qazanacaq. Burada tanınmış ifaçıların iştirakı ilə retro tərzdə konsert və əyləncə proqramı təqdim ediləcək, viktorinalar, geyim və avtomobillər üzrə müxtəlif nominasiyalarda qaliblər seçiləcək.

***XQ***

# İdarələrarası Mərkəzin İqtisadi işçi qrupunun iclası

**Xankəndi şəhərində işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən iqtisadi məsələlər üzrə işçi qrupunun növbəti iclası keçirilib.**




Iqtisadiyyat nazirinin birinci müavini, işçi qrupun rəhbəri Elnur Əliyev dövlət başçısının tapşırıqlarına uyğun olaraq işğaldan azad edilmiş ərazilərin inkişafı istiqamətində kompleks proqramların, genişmiqyaslı bərpa və quruculuq tədbirlərinin, o cümlədən infrastruktur layihələrinin icra olunduğunu qeyd edib. Bildirilib ki, işğaldan azad olunmuş ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsi və investisiya cəlbediciliyinin artırılması üçün əlverişli şəraitin yaradılması məqsədilə görülən işlər, o cümlədən vergi və gömrük güzəştləri, sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, sosial sığorta haqlarının subsidiyalaşdırılması və digər güzəştlər özəl təşəbbüsləri hərtərəfli təşviq etmək və dövlət-özəl sektor tərəfdaşlığını inkişaf etdirməklə regiona investisiya qoyuluşunu artıracaqdır. Qeyd edilib ki, stimullaşdırıcı alətlər və güzəştlər Qarabağla yanaşı, regionda təhlükəsiz və layiqli həyat səviyyəsinin formalaşdırılmasına, sosial-iqtisadi potensialın xalqın rifahı naminə effektiv istifadəsinə, xüsusilə insan kapitalının keyfiyyətinin yüksəldilməsinə, elmin və biliktutumlu sahələrin inkişafına, əmək məhsuldarlığının və rəqabət qabiliyyətinin yüksəldilməsinə, məşğulluğun artırılmasına təkan verəcək.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov yaşayış məskənlərində infrastrukturun bərpası və yenidən qurulması, əhalinin öz yurdlarına geri qayıdışı, məşğulluğun təmin edilməsi prosesi barədə məlumat verib. Bildirilib ki, bölgədə müxtəlif istiqamətlər üzrə sahibkarlıq fəaliyyəti üçün əlverişli imkanlar var və iş adamları biznes fürsətlərindən lazımınca yararlana bilərlər.

Tədbirdə işçi qrupun digər üzvləri tərəfindən təmsil etdikləri qurumların işğaldan azad edilmiş ərazilərimizin iqtisadi reinteqrasiyası məqsədilə gördüyü işlər barədə məlumatlar təqdim olunub.

***XQ***

# İrəvan itirə-itirə gedir

## Azərbaycanla sülhə gəlməyə tələsməyən Ermənistan kənar asılılıqdan qurtulmalıdır

**Əvvəl başa salmağa çalışdıq. Anlamadılar. Sonra tarixi sənəd-sübutları, xəritələri qarşılarına qoyduq. Cığallıq etdilər. Kənardan dedilər, sözdə razılaşdılar, özlərini dinə-imana gəlmiş kimi göstərdilər, amma yenə tərsliklərindən əl çəkmək istəmədilər.**




### Ekspert rəyi



**Tofiq ABBASOV,
siyasi şərhçi**

– Sülh sazişini imzalaması üçün Ermənistan hakimiyyətinin siyasi qətiyyəti olmalıdır. Açıq deməliyik ki, indi İrəvan iqtidarı başını itirib. Bilmir kimi eşitsin: Vaşinqtonu, Brüsseli, Moskvanı, yoxsa Parisi? Yəni, ona hər tərəfdən təzyiq edilir. Azərbaycanın ondan üstünlüyü ondadır ki, sağa-sola baxmırıq, qərarlarımızı özümüz veririk. Bu baxımdan, təəssüflə qeyd etməliyik ki, Ermənistan satellit bir məmləkətdir. Doğrudur, Nikol Paşinyan bəzi hallarda, bir növ, qeyrətə gəlir, amma atacağı addıma Şimaldan, Cənubdan, Qərbdən hansı reaksiyanın olacağını nəzərə almağa məcburdur. Gördüyümüz budur ki, Paşinyan "misqal-misqal" prinsipi ilə irəliləməyə çalışır. Sərhədin həmin on yeddi kilometrlik hissəsinin delimitasiyası ilə bağlı ona nə dərəcədə təzyiqlərin edildiyini bilirik. Məhz bu səbəbdən birdən və böyük qərarı qəbul etməkdə çətinlik çəkir. Onun özündən bədgümanlığı da var, hakimiyyətini itirmək qorxusu da. Bizə elə gəlir ki, əgər Paşinyan, həqiqətən də, cəmiyyətə konstitusiyada dəyişikliyin edilməsi ilə bağlı müraciət etsə, desə ki, ərazi iddialarından əl çəkirik, Azərbaycan və Türkiyə ilə barışıq, eləcə də Zəngəzur dəhlizinin açılması qaçılmazdır, bu zaman onun üzləşdiyi bütün problemlərin müqəddəratı bəlli olacaq. Bu prosesdə qalib gələcəyimizə əminik. Bakının gündəmə gətirdiyi məsələlər mütləq öz həllini tapmalıdır.

Birinci dəhlizin açılması, yoxsa sazişin imzalanması variantı o qədər də prinsipial məsələ deyil. Əsas odur ki, bunların baş verməsi üçün İrəvanın mövqeyi şəffaf, məramı sağlam olsun. İrəvan, nəhayət, anlamalıdır ki, qarşıdurma, nifrət siyasətinin resursları tükənib və çıxış yolu yalnız Azərbaycan və Türkiyə ilə barışıqdan keçir. Yəqin NATO-nun Vaşinqton Sammiti çərçivəsindəki görüşdə də bu barədə söhbətlər olub.

İndi tələb edirik! Nəyi tələb edirik? Konstitusiyalarını dəyişdirmələrini. Bəli, Hayastanın baş qanununda qonşularına – Azərbaycan və Türkiyəyə ərazi iddiaları yer alır. İndi də sülh danışıqlarında "diplomatik balans" yaratmaq üçün bizim qanunlarımızla paralellik axtarırlar. Amma bir şey tapa bilmirlər. Əgər Ermənistanın qanunvericilik aktlarında ərazi iddiası yazılıbsa, bu, artıq, onların dediyi kimi, nə daxili məsələdir, nə də şəxsi. İctimai məsələdir. Həm də beynəlxalq ictimaiyyətin bildiyi və qınadığı məsələ. Əslində, müharibələrdə qalibə verilən bu hüququ biz müəyyən etməmişik və onu dəyişmək səlahiyyəti də təkcə bizə aid deyil...

* * *

İkinci tələbimiz: Azərbaycanın əsas hissəsindən Naxçıvana birbaşa əlaqə yolu açılmalıdır. Daha doğrusu, əvvəllər mövcud olmuş Zəngəzur dəhlizi işə düşməlidir. Bu, sadəcə, ölkəmizin milli maraqları və ərazi təhlükəsizliyi ilə bağlı məsələ deyil. Bu, regional sabitlik və insanların və malların maneəsiz hərəkəti deməkdir. Məgər bizim bu tələblərimizdə Ermənistanın hansısa hüquqlarının tapdanması, yaxud maraqlarına etinasızlıq var? Buna görə Azərbaycanın üstünə gələn kənar aktorlar tamamilə ədalətsizlik və tərəfkeşlik edirlər. Azərbaycanı maksimalizmdə qınayırlar. Xeyr, biz maksimalist deyilik. Əgər olsaydıq, İkinci dünya müharibəsinin qaliblərinin faşist Almaniyasının boynuna yüklədiklərini biz də Ermənistandan tələb edərdik. Bakı bunu etmir, çünki ədalətli sülhün, üzləşdiyi haqsızlıqlara baxmayaraq, əməkdaşlığın tərəfdarıdır.

İndi rəsmi İrəvan sərhədlərin açılması üçün Ankaraya minnətçi düşüb. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakı ilə İrəvan arasında tam hüquqlu sülh sazişi bağlandıqdan sonra Türkiyənin Ermənistanla sərhədi aça biləcəyini istisna etməyib. Türkiyə lideri bu barədə iyulun 9-11-də ABŞ-da keçirilən NATO sammitindən qayıdarkən jurnalistlərə verdiyi açıqlamasında bildirib. "Biz niyə sərhədin açılması məsələsinə baxmayaq? Bundan əvvəl Ermənistanın baş naziri Nikol Paşinyana bu barədə hər şeyi söylədik. İndi sülh üçün hər şeyi etməliyik. Ümid edirik ki, Türkiyənin ürəkdən dəstəklədiyi Azərbaycan və Ermənistan arasında tezliklə davamlı sülh əldə olunacaq. Zəngəzur dəhlizinin açılması sülh sazişini tamamlayacaq yekun addımdır. Biz bu yolda pozitiv qərarların gecikmədən qəbul edilməsini istəyirik. İndi bölgədən müsbət siqnallar gəlir və ümid edirik ki, onlar sonda yaxşı xəbərlərə səbəb olacaq", – deyə Ərdoğan qeyd edib. Bundan başqa, İranın yeni seçilmiş Prezidenti Məsud Pezeşkian ilə telefon söhbətini yada salan R.T.Ərdoğan vurğulayıb: "Sadəcə onu seçkilərdəki qələbəsi münasibətilə təbrik etdim. Zəngəzur dəhlizi hər kəsə, xüsusilə Azərbaycan, Ermənistan və İrana fayda verəcək strateji marşrutdur. İran və Azərbaycan hiss edəcəklər ki, dəhliz, dəmir yolu xətti işə düşəndə onlar üçün daha asan olacaq".

* * *

Göründüyü kimi, qardaş Türkiyənin sülhə, barışıqdan sonra atılacaq addımlara müasibətdə mövqeyi dəyişməyib. İndi bütün gözləntilər İrəvana yönəlib. Sülhə aparan yolun üstündə həllini gözləyən problemlərdən biri də anklavlarla bağlıdıfr. Söbhət bir güllə atılmadan Azərbaycanın yurisdiksiyasına qaytarılan Qazaxın 4 kəndindən getmir. Onlardan savayı, daha 4 anklav kəndimiz hələ də işğaldan azad olunacağı günü gözləyir. Azərbaycan bu məsələdə də ədalət prinsipinə söykənir. İrəvanın bu anklavların geri qaytarılması ilə Ermənistanın Gürcüstanla yolunun bağlanacağı, eləcə də İranla kommunikasiyalara nəzarət etməyə imkan verməyəcəyi barədə dedikləri heç bir əsasi olmayan iddialardır. Yaxud, Ermənistan hakimiyyətinin "Azərbaycan bizim oksigenimizi hər an kəsə biləcək" qorxusu da sağlam məntiqdən uzaq siyasi avantüradır. Azərbaycan oksigeni yalnız Ermənistanın təcavüzü və ya onun silahlı birləşmələrinin ərazi bütövlüyümüzə təhlükə yaradan zirehli və digər texnikasının sərhədə toplanması halında kəsə bilər.

Bu məqamda Ermənistan parlamentində iqtidardakı "Mülki müqavilə" fraksiyasının üzvü Lusina Badalyanın çıxışına diqqət yetirməyimiz yerinə düşər. Badalyanın çıxışının oxucularımız üçün maraqlı olacağını düşünərək, onun dediklərini olduğu kimi təqdim edirik: "Mən Kirantsda tək gəzdim. Orada həm erməni, həm də Azərbaycan sərhədçilərini gördüm və heç bir təhlükə hiss etmədim". "Yüz dəfə eşitməkdənsə bir dəfə görmək məsləhətdir" kəlamına riayət edən erməni deputatın bu açıqlaması, ilk növbədə, daşnak-revanşist əhval-ruhiyəli haylara görk olmalıdır. Əgər Azərbaycan əsgərinin yanından keçən erməni qadın heç bir təhlükə hiss etmirsə, bəs kişiləri nədən qorxurlar?

* * *

Sülh danışıqlarının indiki həlledici mərhələsində Ermənistanın iradəsizliyi və inadkarlığı tamamilə başa düşüləndir. İntəhası, bu inadkarlıq ona heç cür haqq qazandırmır. İrəvan düşünür ki, sülh danışıqlarında bu cür davranışı ilə Bakının ədalətli tələblərinin "yumşaq zolağa" salınmasına nail olacaq. Bu zaman fərqinə də varmır ki, vaxtın uzanması onun itirdiklərinin sayını artırır. Daha konkret desək, hayların inadkarlığı uzandıqca, bizim də tələb və iddialarımız kəskinləşəcək. Adətən, müharibədən sonra məğlub tərəfin qalibin şərtləri ilə sülh müqaviləsi bağlamaq istəməməsi, belə məntiqi qənaəti formalaşdırır ki, müxtəlif bəhanələrlə sülhdən qaçan revanş görürəcəyinə, qisas alacağına ümid bəsləyir. Paşinyan iqtidarının son davranışları Bakıya bu versiyadan şübhələnmək üçün hər cür əsaslar verir. Bax onda qalib Azərbaycan məğlub Ermənistanın qarşısında əlavə tələb qoya və onu indikindən daha ağır şərtlərlə danışıqlar masasına oturtmağın alternativ yolları barədə düşünə bilər.

*İmran BƏDİRXANLI*
*XQ*

### Ekspert rəyi



**Elxan ŞAHİNOĞLU,
"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri**

– Azərbaycan torpaqları işğal altında olanda Türkiyənin mövqeyi birmənalı olaraq belə idi ki, işğal davam etdiyi təqdirdə Ankara Ermənistanla sərhədi açmayacaq və onunla diplomatik münasibətlər qurmayacaq. Bu mövqeyi neçə illər bundan əvvəl Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Milli Məclisində çıxışında bəyan edib. Amma torpaqlarımız işğaldan azad olunduqdan sonra Prezident İlham Əliyev Azərbaycanın problemi həll etdiyini və Ermənistanla müünasibətləri məsələsində Ankaranın qərarını verməkdə sərbəst olduğunu söylədi. Fəqət, buna baxmayaraq, Ərdoğan Türkiyənin Azərbaycanla Strateji Müttəfiqliyə sadiqliyini nümayiş etdirdi. Bu, o deməkdir ki, həm Rəcəb Tayyib Ərdoğan, həm də Xarici işlər naziri Hakan Fidan ən yüksək tribunalardan bildiriblər ki, Türkiyə və Ermənistan arasında sərhədlərin açılması, diplomatik əlaqələrin bərpası üçün İrəvan Bakı ilə sülh sazişini imzalamalıdır. Yəni, Ermənistana mesaj verilib ki, sülh əldə olunmayınca bu məsələlər öz həllini tapmayacaq.

Doğrudur, Türkiyə və Ermənistan arasında, xüsusi nümayəndələrin vasitəsilə, müəyyən danışıqlar aparılır. Faktiki olaraq, indi "top" Ermənistanın siyasi meydanındadır. İrəvan iqtidarının da dediyi kimi, Azərbaycan və Türkiyə ilə münasibətləri yaxşılaşdırmağın yeganə yolu Bakı ilə sülhə gəlməkdir. Bunsuz Ermənistan qonşuları ilə münasibətləri normallaşdıra bilməyəcək.

Əgər Ermənistan Orta dəhliz kimi böyük layihələrdən kənarda qalmaq istəmirsə, sülh prosesini sürətləndirməlidir. Azərbaycan bu dəhliz olmadan da yüklərini Avropaya daşıyır. Çin də, ABŞ da Orta dəhliz ideyasını dəstəkləyirlər. Yəni, bu məsələlərdə Ermənistan yenə gecikir. Azərbaycanın Araz dəhlizi barədə İranla da razılaşması var. Zəngəzur dəhlizi açılmasa belə, biz Araz variantını işə salacağıq. Bu isə Ermənistanın ziyanına olacaq. Ona görə Paşinyan tələsməldir.

KÖŞƏ

## Simulyasiyalar Ermənistana növbəti bədbəxtlik gətirəcək



**İttifaq MİRZƏBƏYLİ
i-mirzebeyli@mail.ru**

**"Simulyasiya" latın sözüdür. Görüntü yaratmaq mənası verir. Məqsədli şəkildə yalan fəaliyyətlərin tərkib hissəsi olan bu addım kiminsə özünü zərərdidə kimi göstərmək cəhdidir. Bu ənənə çoxdan mövcuddur və bütün ölkələrdə qeydə alınıb. Ancaq həmin mənfi tendensiya indi cəmiyyət həyatının, demək olar ki, bütün sahələrində özünü göstərir. Məsələn, Kolumbiyada həbsxanadan qaçış planı hazırlayan məhbuslar "kütləvi şəkildə zəhərlənirlər". Avropada "Ukraynaya dəstək" adlı təşəbbüslər irəli sürülür və Kiyev meydanda tək qalır. Futbolda rəqib qapıya penalti təyin etdirilməsi məqsədilə hücumçu özünü yerə çırpır və sair.**

Siyasətdə isə bu fəaliyyətin ən "parlaq nümunələrini" Ermənistan yaradır. İki – üç ildir ki, Rusiya hərbçilərinin Ermənistandan getməsini tələb edən İrəvan rəhbərliyi Ukraynanın təşəbbüsü ilə BMT Təhlükəsizlik Şurasının gündəliyinə çıxarılan "Rusiya hərbçiləri Zaporojye Atom Elektrik Stansiyasının ərazisindən çıxarılsın" adlı qərarın əleyhinə səs verdi. Bu, nə düşüncədir? "Rus hərbçiləri bizim ölkədən çıxarılsın, Ukrayna ərazisindən isə çıxarılmasınlar". Anlamaq olmur ki, Ermənistan rəhbərliyinin bu simulyasiyası siyasətdə piyadalıqdır, yoxsa, hansısa məqsədləri var.

Öz işləridir. Biz qarışmırıq. Ancaq bu gün Ermənistanın elə simulyasiyaları var ki, biz mütləq reaksiya verməliyik. Məsələn, bir neçə gün bundan əvvəl baş nazir Nikol Paşinyan Ermənistanın konstitusiya günü ilə bağlı müraciətində deyib ki, ölkəsinin "xalq tərəfindən hazırlanacaq" yeni konstitusiyaya ehtiyacı var. Lap yaxşı. Amma əlavə edib ki, əsas qanuna ediləcək dəyişikliklər 2026-cı ilin sonunadək başa çatdırılmalıdır. Yəni, o, Azərbaycanla imzalanacaq sülh sazişinin ərsəyə gəlməsini daha iki il sonraya saxlamağa çalışır. Həm də bu addım Bakının, Ankaranın, Moskvanın, Vaşinqtonun və Brüsselin "Sülh müqaviləsi daha tez imzalanmalıdır!" – çağırışları fonunda atılır. Üstəlik, özləri də "həftə səkkiz, mən doqquz" bəyan edirlər ki, Ermənistan sülh müqaviləsi ətrafında danışıqlara tam hazırdır. "Siz kimi aldadırsınız, Allahın bədbəxtləri?" – deməkdən başqa söz tapmıram.

İrəvanda və bu işğalçı ölkəyə himayədarlıq edən siyasi dairələrdə hamı yaxşı bilir ki, Ermənistan konstiyusiyasındakı məlum maddələr qüvvədə olduğu müddətdə Azərbaycan rəhbərliyi heç bir saziş imzalamayacaq. Yəni bizə qarşı ərazi iddiaları olan dövlətlə necə sülh müqaviləsi imzalaya bilərik? İrəvan rəhbərlərinin bu cəfəng düşüncələrinin bircə adı var: simulyasiya.

Bu məqamda xatırladaq ki, İngiltərə Futbol Assosiasiyası simulyasiya edən futbolçulara qarşı ciddi mübarizə aparılması məqsədilə xüsusi qərar qəbul etmişdir. Yəni hakimi aldatmağa cəhd edən futbolçular 2 oyunluq diskvalifikasiya ilə cəzalandırılacaq. Üstəlik, simulyasiya predmeti kimi rəqib futbolçunun qırmızı vərəqə almasına və penalti təyin edilməsinə səbəb olan hərəkətlər götürüləcək. Epizodları xüsusi komissiya 48 saat ərzində nəzərdən keçirəcək. Komissiyanın tərkibinə sabiq futbolçu, məşqçi və hakimlər də daxil olacaqlar. Bildirilir ki, Şotlandiyada oxşar qayda artıq tətbiq olunur.

Bəs hər yeni ayda yeni simulyasiya fəndi uyduran Ermənistanı kim cəzalandıracaq? Əlbəttə, heç kim. Biz bu qətiyyətimizi bilavasitə işğalçı Ermənistanın cəzalandırılması məqsədilə yaradılmış ATƏT-in Minsk qrupunun 28 illik "hakimlik missiyasını" rəzilcəsinə "yerinə yetirməsi" zamanı şahidi olduğumuz faktlarla əsaslandırırıq. Həmin hakimlər qrupu Ermənistanı işğal etdiyi Azərbaycan ərazilərindən çıxmağa məcbur etmək əvəzinə, Bakını mövcud vəziyyətlə barışmağa çağırırdılar. Nəticədə Azərbaycan Ordusu işğalçıları ölkəmizdən qovdu, siyasət və diplomatiyamız isə Minsk qrupunun riyakar həmsədrlərini.

Odur ki, Nikol Paşinyanın növbəti simulyasiyası da Ermənistana baha başa gələ bilər. Ekspertlərin fikrincə, onun məlum bəyanatından sonra sülh sazişi ilə bağlı hər hansı bir sənəd, niyyət protokolu, çərçivə sazişinin imzalanması iki il müddətinə uzana bilər. Azərbaycanın tələbləri tələb yerinə yetirilməyincə hər hansı sənədə imza atılmayacaq. "Amma yaxın dövr üçün sülh sazişi ilə bağlı hər hansı bir sənədin imzalanması mümkün olarsa, oraya "Ermənistan konstitusiyasında və normativ hüquqi aktlarında ərazi iddialarının sıradan çıxarılması təmin edilsin" kimi bir müddəa əlavə edilə bilər. Bu halda hansısa sənədi imzalamaq mümkündür. Sözsüz ki, bu ehtimal variant da sual altındadır".

Fakt isə ondan ibarətdir ki, düşünülməyən addımlar Ermənistana növbəti bədbəxtliklər gətirə bilər. Maraqlıdır ki, bu məntiqi Ermənistan ziyalıları da tez-tez dilə gətirirlər. Akop Nersesyan adlı müxalifətçinin bu məzmunlu fikirləri daha aydındır: "Azərbaycan Prezidenti nəyi edəcəm deyirsə, onu edir. Üstəlik, Bakı öz dostlarının, tərəfdaşlarının sayını artırmaqdadır. Biz isə burada söz oynatmaqla məşğuluq!".

# "Xortlayan" vasitəçilik, yoxsa sülh?

(əvvəli 1-ci səhifədə)

**Dördüncü məqam.** A.Blinkenin Cənubi Qafqazda sülh mövzusu üzrə ölkəsinin həlledici rolunu qabartması baxımından üzərində dayandığı iki nüans var. Birincisi, sülhün region üçün faydalılığının, habelə Azərbaycanın və Ermənistanın ABŞ ilə əlaqələrində misilsiz imkanlar açdığının önə çəkilməsi. İkinci nüans Bakı – İrəvan sülh sazişinin tez bir zamanda imzalanmasının mümkünlüyü kontekstində kollektiv Qərbin deyil, sırf Birləşmiş Ştatların təşəbbüslərinin üstün tutulması. Diqqət yetirək, cənab Blinken bildirdi ki, nizamlanma prosesinin davam etdiyi müddətdə ABŞ həm Avropa İttifaqı, həm də Avropadan olan tərəfdaşları ilə bu prosesə dəstək göstərməyə çalışırdı. "Bu gün isə əldə olunan nəticələrin təhlili üçün imkan yaranıb. Bütün öhdəliklərimizə əsaslanaraq deyə bilərəm ki, xüsusilə son həftələrdə hər iki tərəf yekun sülh razılaşmasını imzalamağa yaxındır. Bu müqaviləni ABŞ da qeyd-şərtsiz dəstəkləyəcək. Ona görə də mən bir daha bu məsələdə hansı mərhələdə olduğumuzu qiymətləndirmək üçün bu görüşdə iştirak etdiyinizə görə sizə təşəkkür edirəm. Bu görüş ABŞ-nin sülh razılaşmasının imzalanması istiqamətində hansı tədbirləri görməli olduğunu müəyyən etmək fürsətidir", – deyə Blinken vurğulayıb.

Yeri gəlmişkən, ABŞ Dövlət Departamentinin rəsmisi Metyu Millerin açıqlaması da Blinkenin dediklərinin təkrarıdır. Millerin sözlərinə görə, A.Blinken davamlı və ləyaqətli sülh sazişi istiqamətində əldə edilən irəliləyişin müzakirəsini aparıb və sazişi mümkün qədər tez yekunlaşdırmaq üçün hər iki tərəfi gələcək addımlara təşviq edib.

**Beşinci məqam.** İndi isə keçək sülh prosesinə zidd təmayüllərə. O təmayüllərə ki, vasitəçiliyə can atan ABŞ bunları nəzərə almalıdır. Beləliklə,



Bakı və İrəvan arasında sülh gündəliyinin aktiv fazada olduğu hazırkı dövrdə baş nazir Nikol Paşinyan administrasiyası və ona yaxın dairələr tərəfindən dövriyyəyə Azərbaycanın Ermənistana hücumu xüsusunda fikirlər buraxılmaqdadır. Hücum üçün vaxt da müəyyənləşdirilib - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasından (COP29) sonra. Yəni təxminən belə: Azərbaycan COP29-a evsahibliyini reallaşdırıb bitirəcək, dərhal da Ermənistan üzərinə yeriyəcək.

Ümumən, Ermənistanda Azərbaycanın hücumu iddialı fikirlər gündəmdən düşmür. Bu, o deməkdir ki, ölkə özündə xəyali təcavüz canlandırır və ona qarşı müqavimət formalaşdırırmış kimi davranır. Əslində isə məqsəd başqadır. Mahiyyətcə, nə Ermənistan hakimiyyəti, nə də cəmiyyəti sülh istəyir. Buna görə birinci Fransanın köməyi ilə silahlanmağa, ikinci isə alov püskürməyə üstünlük verir. Belə bir durumda sual yaranır: ABŞ-ın vasitəçilik cəhdləri faydalı olacaqmı? Suala birmənalı cavab yoxdur. Həm də ona görə yoxdur ki, bu vasitəçilikdə əvvəldə də bildirdiyimiz kimi, ümumi ifadələr var, konkretlik istisnadır.

*Ə.RÜSTƏMOV*
*XQ*





# Möhtəşəm 55 il: dövlət müstəqilliyinə aparan milli intibah və hərtərəfli tərəqqi

(əvvəli 1-ci səhifədə)

Heç şübhəsiz, Azərbaycan dünya miqyasında layiq olduğu mərtəbəyə məhz Ulu öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksəlmiş, dünya inteqrasiya sisteminə qoşula bilmişdir. Xalqımızın Ümummilli liderinin Sovet İttifaqı kimi nəhəng bir dövlətdə yüksək vəzifə – SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsini tutması isə Azərbaycana beynəlxalq nüfuz və hörmət qazandırmışdır.

Müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyev dünyanın bütün dahi şəxsiyyətlərindən fərqli olaraq iki müxtəlif ictimai-siyasi sistemdə yaşamış və fəaliyyət göstərmişdir. Ulu öndər hər iki sistemdə siyasət nərdivanının ən yüksək pilləsinə ucala bilmişdir, xalqına, vətəninə sədaqətlə xidmət etmişdir. Müasir tariximizin yarım əsrlik bir mərhələsi, o cümlədən müstəqil Azərbaycan dövlətinin formalaşması, dinamik inkişafı və dünya inteqrasiya sisteminə qovuşması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Dünyanın ən güclü dövlət və siyasi xadimləri, ekspertləri bu qüdrətli Azərbaycan oğlunu, çoxəsrlik tariximizin yetirdiyi ən mükəmməl şəxsiyyəti, beynəlxalq miqyaslı siyasət və dövlət xadimini fenomen lider kimi qiymətləndirmişlər. Ulu öndər haqqında müasiri olan dünya liderləri, tanınmış dövlət xadimləri, siyasi xadimlər, məşhur elm adamları, yazıçılar çox dəyərli, qiymətli sözlər söyləmişlər.

S.Dəmirəl, C.Buş, R.T.Ərdoğan, V. Putin, Bill Klinton, Jak Şirak, Toni Bleyer, Ç.Aytmatov, E.Şevardnadze, Xu Szintao, G.Şröder, II İohan Pavel, çox sayda digər dövlət və siyasət xadimlərinin verdiyi yüksək dəyərdə qeyd olunmuşdur ki, Heydər Əliyev qeyri-adi şəxsiyyət, xalqının xilaskarı, bütün dünyada böyük nüfuz sahibi, Cənubi Qafqazın ən əsas şəxsiyyətidir. O da vurğulanmışdır ki, Heydər Əliyev Azərbaycanın beynəlxalq aləmdə tanınmasına, dünya dövlətləri ilə beynəlxalq əlaqələrin, dostluq, əməkdaşlıq əlaqələrinin yaradılmasına çalışmış, onun müstəqil dövlətə çevrilməsində, suverenliyinin qorunub saxlanılmasında, möhkəmləndirilməsində, Qafqazın lider dövlətinə çevrilməsində müstəsna rol oynamış, ölkəsini çiçəklənmə yoluna gətirib çıxarmışdır.

Həqiqətən, Heydər Əliyev Azərbaycanın xoşbəxtliyi, firavanlığı, bölgədə və dünyada sülh naminə göstərdiyi fövqəladə xidmətlərlə türk və dünya tarixində şərəfli yer tutmuşdur. Ümummilli liderin şəxsiyyəti və onun həyatı elə mənalı, elə fəlsəfi, elə müqəddəs məktəbdir ki, bu məktəbin dirilik, əbədiyyət, saflıq, paklıq, humanizm və halallıq kimi insani keyfiyyətlərdən gələcək nəsillər bəhrələnəcək və milli təntənəyə dərin inam bağlanacaqdır.

Sadə, zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açan, çox böyük çətinliklərdən, manelərdən keçərək SSRİ DTK-nin siravi leytenantından general-mayor rütbəsinədək, kommunistlər ordusunun siravi üzvündən Kreml liderlərindən biri səviyyəsinə ucalan Heydər Əliyevin adı tarixə Azərbaycan xalqının Qurtuluş mübarizəsinin qalibi, müstəqil Azərbaycan dövlətinin banisi, Yeni Azərbaycanın qurucusu kimi daxil olmuşdur. Ümummilli lider Heydər Əliyev XX əsrin ikinci yarısı üçün Tanrının Azərbaycan xalqına bəxş etdiyi ən böyük ərməğan idi.

Xalqımızın böyük oğlu Heydər Əliyev doğma Azərbaycanına iki dəfə rəhbərlik etmişdir: bir totalitar kommunist rejiminin, inzibati amirliyin hökmranlığı dövründə – 1969–1982-ci illərdə, bir də müstəqil Azərbaycanın xilaskar Prezidenti olaraq 1993–2003-cü illərdə. Heydər Əliyevin Azərbaycan SSR-yə rəhbərliyinin birinci dövrü xalqımızın tarixində milli oyanışın, özünəqayıdışın başlanması, cəmiyyətin keyfiyyətcə irəliyə və müstəqilliyə doğru dönüş illəridir.

XX əsrin 70-ci illəri və 80-ci illərinin əvvəlləri Azərbaycanın inkişafında özünəməxsusluğu ilə səciyyələnən bir dövrdür. Bir sıra obyektiv və subyektiv səbəblər üzündən XX əsrin 60-cı illərində respublikanın sosial-iqtisadi həyatının bir çox sahələrində - həm sənayedə, həm də kənd təsərrüfatında mənfi meyillər özünü göstərməyə başlamışdı. Respublikada uzunmüddətli gerilik hökm sürürdü. İnkişaf getdikcə ləngiyir və bu, əhalinin sosial-maddi vəziyyətinə mənfi təsir göstərirdi.

İstehsalın, o cümlədən sənaye və kənd təsərrüfatı məhsulları istehsalının ümumi inkişaf səviyyəsinə, milli gəlirin həcminə və əmək məhsuldarlığının artım sürətinə görə Azərbaycan İttifaq səviyyəsindən geri qalırdı və bu gerilik getdikcə artırdı. Respublikanın kənd təsərrüfatında vəziyyət daha ağır idi. Elmi-texniki tərəqqinin nailiyyətləri də istehsalata tətbiq olunmurdu. Əmək intizamı aşağı səviyyədə idi. Korrupsiya, rüşvətxorluq getdikcə artırdı.

Ümummilli lider Heydər Əliyev Azərbaycanda XX əsrin 60-cı illərində yaranmış vəziyyəti sonralar belə xatırlayırdı: “Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi.”



Prezident İlham Əliyev isə Ulu öndərin o dövr siyasi liderliyini belə qiymətləndirmişdir: “Müstəqil Azərbaycan dövlətinin qurulmasında, onun müstəqilliyinin qorunub saxlanmasında Heydər Əliyevin 1970-1980-ci illərin əvvəllərində gördüyü işlər önəmli rol oynayırdı. Çünki mən bunu dəfələrlə demişəm və partiya üzvləri bunu yaxşı bilir, gənc nəsil də bilməlidir ki, Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayanda Azərbaycan Respublikası Sovet İttifaqının müttəfiq respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerlərdə idi.”

1969-cu il iyulun 14-də, respublikada problemlərin, çətinliklərin, sosial-iqtisadi geriliyin hökm sürdüyü, artıq böhran vəziyyətinin yarandığı ağır şəraitdə Heydər Əliyev Azərbaycanda rəhbərliyə gəldi. Doğma xalqının, Vətəninin böyük təəssübkeşi olan Ulu öndər totalitar rejimin hökm sürdüyü mürəkkəb tarixi şəraitdə Azərbaycanı SSRİ-nin ən qabaqcıl respublikalarından birinə çevirmək üçün bütün sahələrdə geniş islahatlar proqramı hazırladı və həyata keçirməyə başladı. Beləliklə, XX yüzilliyin 60-cı illərinin sonunda Heydər Əliyevin doğma xalqına, Vətəninə həsr olunmuş fəaliyyətində yeni dövr başlandı. Sovetlər ölkəsində bu dövrdə durğunluq halları gücləndiyi halda, Azərbaycan tərəqqi yoluna qədəm qoydu.

Sovet rejiminin bütün xüsusiyyətlərinə dərindən bələd olan və zəngin idarəçilik təcrübəsi qazanmış Heydər Əliyev Azərbaycanı düşmüş olduğu çox ağır vəziyyətdən çıxarmaq üçün qəti tədbirlər görməyə başladı. 1969-cu il avqustun 5-də Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumu oldu. Respublikanın yeni rəhbəri Azərbaycanın sosial-iqtisadi böhran vəziyyətinin, uzunmüddətli geriliyinin təhlilini verdi, səbəblərini açıqladı, çıxış yollarını müəyyənləşdirdi. O, uzaqgörənliklə, dərindən ölçüb-biçərək ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramlarını hazırlatdı və dərhal onların icrasına başlanıldı. Beləliklə, 1969-1982-ci illərdə Azərbaycanın ictimai-siyasi, o cümlədən iqtisadi həyatında intibah dövrü başladı.

Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi 1969-1982-ci illər respublikanın digər sahələri kimi, iqtisadiyyatının da dirçəlişi, ölkənin təbii ehtiyatlarından, iqtisadi, təhsil, elm və digər potensiallarından xalqın maddı rifah halının yüksəldilməsi üçün şəraitin yaradılması ilə səciyyələnir. Ötən əsrin 70-80-ci illərində Ulu öndərin Azərbaycana rəhbərliyi ilə xalqımız öz iqtisadiyyatını yenidən yaratmışdır. Əgər o zamankı nailiyyətlər olmasaydı, Azərbaycan sonralar müstəqil dövlət kimi yaşaya bilməzdi.

1969-1982-ci illərdə müdrik, zəngin təcrübəyə malik Heydər Əliyevin rəhbərliyi altında respublika iqtisadiyyatında istehsalın sürəti xeyli genişlənmiş, məhsuldarlıq yüksəlmiş, böyük uğurlar qazanılmış, elmi-texniki tərəqqidə ciddi irəliləyişlər baş vermiş, əhalinin maddi rifah halı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

Totalitar rejimin bütün xüsusiyyətlərinə yaxşı bələd olan, zəngin idarəçilik təcrübəsi olan Ulu öndər SSRİ-nin çöküşə doğru getdiyini görürdü. Bu baxımdan da onu Azərbaycan xalqının və dövlətçiliyinin taleyi, müstəqil yaşamasının mümkünlüyü məsələsi daim düşündürürdü. XX əsrin 70–80-ci illərinin Azərbaycan iqtisadiyyatının 60-cı illəri ilə müqayisədə yüksəliş dövrü olması da məhz bu tarixi perspektivə hesablanmışdı.

Azərbaycanda 70-ci illərdən iqtisadi tərəqqi başladı. Sərmayə qoyuluşunun həcmi 1971–1985-ci illərdə 32 milyard manat təşkil edirdi ki, bu da sovet dövrünün əvvəlki 50 ilində cəmi istifadə edilən vəsaitdən 2,1 dəfə çox idi. Respublikada 70-ci illərdən başlayaraq məhsuldar qüvvələrin inkişafı, onun imkanlarından daha səmərəli istifadə edilməsi və müasir inkişaf meyillərinin vəzifələrinə uyğun möhtəşəm quruculuq proqramı iqtisadiyyatın strukturunda zəruri təkmilləşmənin əsasını qoydu.

Azərbaycanın tarixi inkişafının sonrakı gedişi sübut etdi ki, bu gün müstəqil dövlətimizin sosial-iqtisadi və idarəçilik əsasları hələ 1969–1982-ci illərdə Heydər Əliyevin fədakar əməyi, uzaqgörən, müdrik siyasəti, düşüncəsi sayəsində qurulmağa başlamışdır.

Heydər Əliyev sovet rəhbərliyindəki nüfuzundan istifadə edərək Azərbaycanın xalq təsərrüfatının inkişaf etdirilməsini təmin etmək üçün sovet hökumətinin respublika iqtisadiyyatının müxtəlif sahələrini əhatə edən aşağıdakı tarixi qərarlarının qəbul edilməsinə nail olmuşdu: 1970-ci il iyulun 23-də “Azərbaycan SSR xalq təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında”; 1970-ci il 25 iyulda “Azərbaycan SSR kənd təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında”; 1975-ci il iyulun 9-da “Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında”; 1976-cı il iyulun 27-də “1976-1980-ci illərdə respublika sənayesinin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP MK-nın təkliflərinin nəzərdən keçirilməsi nəticələri barəsində”; 1979-cu il fevralın 22-də “Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında”.

Onu da qeyd edək ki, bu qərarların yerinə yetirilməsini təmin etmək üçün İttifaq büdcəsindən Azərbaycana xeyli vəsait ayrılmışdı. Azərbaycan iqtisadiyyatı barədə qəbul edilmiş bu qərarların həyata keçirilməsi ölkədə kənd təsərrüfatı istehsalının daha da inkişafına, intensivləşdirilməsinə, ixtisaslaşdırılmasına, üzümçülük və şərabçılığın inkişaf etdirilməsinə, sənaye potensialının və xəritəsinin genişləndirilməsinə imkan verdi. Nəticədə, respublika iqtisadiyyatında tənəzzüldən tərəqqiyə dönüş baş verdi.

Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi, iqtisadi müstəqilliyi, xarici iqtisadi əlaqələri və dünya iqtisadiyyatına getdikcə daha dərindən inteqrasiya olunması hələ 1969–1982-ci illərdə təməli qoyulmuş sosial-iqtisadi potensiala əsaslanır. Ulu öndər 1969-1982-ci illərdə bütün bacarığını Azərbaycanın ümumi tərəqqisi və inkişafı üçün səfərbər edə bildi. O illər Azərbaycan SSR-in tarixinə dinamik inkişaf, intibah dövrünün başlanması kimi daxil oldu. İqtisadiyyatın, xüsusilə kənd təsərrüfatının, sənayenin bütün sahələrində yüksəliş baş verdi. Respublika iqtisadiyyatında ciddi struktur dəyişiklikləri həyata keçirildi. Müasir və mütərəqqi sənaye sahələri yaradıldı.

1969–1982-ci illərdə respublikada əmək məhsuldarlığının yüksəldilməsinə, bütün ictimai istehsalın səmərəliliyinin durmadan artırılmasına diqqət yetirilmiş, istehsalın intensivləşdirilməsi, səmərəlilik iqtisadi inkişafın həlledici amili hesab edilmişdi. Respublika iqtisadiyyatının uzun sürən geriliyinə son qoyulmuşdu. Azərbaycan İttifaq respublikaları arasında qabaqcıl respublikalardan birinə çevrilmiş, ölkə əhalisinin yaşayış səviyyəsinə əhəmiyyətli dərəcədə təsir edən nailiyyətlər əldə edilmişdi. Sosial-mədəni quruculuğun bütün sahələrində – elm, təhsil, səhiyyə, incəsənətdə, əhaliyə mədəni-məişət və kommunal xidmətlərdə böyük irəliləyişlər baş vermişdi.

Ulu öndər Heydər Əliyevin müdrik rəhbərliyi altında respublika iqtisadiyyatının başlıca sahəsi olan sənaye sahələrində mövcud olan qüsurlar, geriləmələr qısa müddətdə aradan qaldırıldı, istehsalın surəti xeyli genişləndi, məhsuldarlıq yüksəlməyə başladı, yeni-yeni sənaye sahələrinin təməli qoyuldu, bu sahədə böyük uğurlar qazanıldı, yeni müasir istehsal sahələri yaradılmağa başlandı. Azərbaycan 1969–1982-ci illərdə müttəfiq respublikalar arasında ən qabaqcıl sənaye və kənd təsərrüfatı respublikasına, o cümlədən qabaqcıl pambıqçılıq və üzümçülük, tərəvəzçilik diyarına çevrildi.

1969–1982-ci illərdə neft və neftayırma, qaz sənayesi əsaslı şəkildə yenidən qurulmuşdu. “Azərneft” və “Xəzər Dəniz Neft” Birliyinin işində 60-cı illərdə yaranmış nöqsanların aradan qaldırılması ilə bağlı Ulu öndərin rəhbərliyi və köməyi ilə bir sıra mühüm tədbirlər görülmüş, əhəmiyyətli qərarlar qəbul edilmişdi. Neftçıxarma texnologiyası xeyli yaxşılaşmışdı. Dənizdə 2800-6500 metr dərinlikdə neft quyularının qazılmasına başlanmışdı. Burada müasir “Xəzər”, “Bakı”, “Self-1”, “Self-3” qazma qurğularından istifadə olunurdu. Bunun nəticəsi idi ki, XX əsrin 70-ci illərində bu sahəyə Heydər Əliyevin böyük diqqəti və qayğısı sayəsində neft hasilatında, bütövlükdə, neft sənayesində ciddi dönüş yaranmış, uzun illərdən bəri mövcud olan bəzi problemlər aradan qaldırılmışdu.

Araşdırmalar göstərir ki, Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə Azərbaycan keçmiş SSRİ-də elektrotexnika sənayesinin ən böyük və əhəmiyyətli mərkəzlərindən birinə çevrilmişdi. XX əsrin 70-ci illərinin ikinci yarısında (1976-1980-ci illərdə) Elektrotexnika Sənayesi Nazirliyi müəssisələrində istehsalın həcmi 2,4 dəfə artmışdı. Yeni sahələrin inkişafına xüsusi əhəmiyyət verməklə, məsələn radioelektronikanı inkişaf etdirməklə yanaşı, Heydər Əliyev yüngül sanayeni də, ənənəvi sahələri də – ipəkçilik, xalçaçılıq, çini qablar istehsalını da unutmurdu.

Azərbaycanın paytaxt əhalisinin su ilə təchizatındakı problemləri daim aktual olduğuna görə 1970-ci ilin əvvəllərində Heydər Əliyev bu məsələnin həllini diqqət mərkəzinə çəkdi. Belə ki, Bakı şəhəri və Abşeron yarımadası əhalisinin içməli su ilə təchizatının yaxşılaşdırılması barədə Azərbaycan KP MK-nın 1971-ci il 2 fevral tarixli Büro iclasında tikintinin ən qısa müddətdə – 1971-ci il avqustun 1-nə kimi tam başa çatdırılması haqqında qərar qəbul edildi.

1969–1982-ci illərdə Heydər Əliyevin uzaqgörənliyi sayəsində respublikanın enerji müstəqilliyi təmin olundu. Belə ki, Araz, Tərtər, Şəmkir su elektrik stansiyaları, “Azərbaycan” DRES-i işə salındı. Heydər Əliyev ilə respublikada elmin inkişafına və təhsil səviyyəsinin yüksəldilməsinə böyük diqqət yetirilirdi. Azərbaycanda onlarla yeni elmi-tədqiqat müəssisəsi yarandı. Respublikanın güclü elmi-texniki və istehsal potensialına söykənən iqtisadiyyatının mühüm istiqamətlərinin, o cümlədən kənd təsərrüfatının inkişafı ardıcıl mərhələlər üzrə həyata keçirildi.

Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969–1982-ci illərdə ən mühüm iqtisadi nəticələrdən birini kənd təsərrüfatının dinamik inkişaf etməsi, ölkənin və respublikanın bütün iqtisadiyyatında onun rolunun artması təşkil edirdi. Bu dövrdə istehsalın elmi əsaslarla intensivləşdirilməsi kənd təsərrüfatının dinamik inkişafında mühüm rol oynamışdı. Respublikada kənd təsərrüfatının ümumi məhsulunun həcmi 1981–1985-ci illərdə orta hesabla 1966–1970-ci illərin orta səviyyəsinə nisbətən 2,6 dəfə çoxalmışdı.

Yekun olaraq deyə bilərik ki, 1969-cu il 14 iyulda Heydər Əliyevin Azərbaycan SSR-də hakimiyyətə gəlməsi ilə 1970-1980-ci illər Azərbaycan tarixinin intibah, dönüş, dirçəliş, milli özünəqayıdış dövrü kimi qiymətləndirilir. SSRİ-də durğunluğun gücləndiyi dövr olduğu halda, Azərbaycanda yüksəliş dövrü olmuşdu. Respublika həyatının bütün sahələrində olduğu kimi, iqtisadiyyatda da dirçəliş, sürətli inkişaf, kənd təsərrüfatının ixtisaslaşdırılması, sənayenin yeni sahələrinin yaradılması, neft, neft-kimya, neft-maşınqayırma sənayelərinin yenidən qurulması dövrü kimi xarakterizə olunur. Heydər Əliyevin fədakar əməyi, qətiyyəti, zəngin idarəçilik və təşkilatçılığı ilə iqtisadi inkişaf dinamikası Azərbaycanda keçmiş İttifaq respublikalarından xeyli yüksək olmuşdu.

Respublikada elmin inkişafına və təhsilin səviyyəsinin qaldırılmasına, Azərbaycan xalqının milli dəyərlərinə böyük diqqət yetirildi. Görkəmli elm, təhsil, incəsənət, ədəbiyyat xadimlərinin yubileyləri keçirilir, onlara fəxri adlar verilirdi. Azərbaycanın xarici əlaqələri bu illərdə xeyli genişlənmiş, Avropa, Yaxın və Orta Şərq ölkələri, Ön Asiya və digər region ölkələri ilə münasibətlər qurulmuşdu.

Beləliklə, XX əsrin 70-ci illəri – 80-ci illərin əvvəlləri dahi şəxsiyyət, görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə yüksəliş dövrü kimi səciyyələnir. Məhz bugünkü müstəqilliyimizin siyasi, sosial-iqtisadi əsasları da həmin illərdə yaradılmışdı.

***İbrahim ZEYNALOV,***
***BDU-nun tarix fakültəsinin dekanı, professor***

# Çağdaş tariximizə qızıl xətlə yazılmış gün

**Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyevin liderlik fəaliyyəti zirvə təşkil edir. Milli özünüdərkin, soykökə qayıdışın, tərəqqinin, müstəqilliyə aparan yolun başlanğıcı sayılan – qüdrətli rəhbərin hakimiyyətə gəldiyi və tarixə qızıl hərflərlə yazılmış 1969-cu ilin 14 iyul gününü xalqımız hər il qürur və qədirbilənliklə xatırlayır.**



Məhz həmin gün Heydər Əliyevin ölkəmizə rəhbərliyinin birinci dövrü, özünəqayıdışın inkişaf mərhələsi başlayıb. Hakimiyyətə gəldiyi andan etibarən müdrik və uzaqgörən fəaliyyəti ilə müasir Azərbaycan tarixinin ən şanlı və parlaq salnaməsini yaratmış Heydər Əliyev mənalı ömrünü və misilsiz fəaliyyətini xalqının rifahına, tərəqqisinə həsr etmişdir. Bu qüdrətli insan tarixi fəaliyyəti ilə Ümummilli lider zirvəsinə yüksələrək sağlığında canlı əfsanəyə çevrilmişdir. Məhz bu tarixdən başlayaraq hər bir Azərbaycan vətəndaşı dövlət müstəqilliyinə qovuşacağına inanırdı. Ulu öndərin hakimiyyətinin birinci dövrü bu inamın təntənəsi olaraq xalqın milli dirçəlişi, eyni zamanda, özünüdərkin başlanğıcı kimi tarixə yazıldı.

Müstəqilliyi əldə etmək üçün möhkəm təməl yaradan amillərdən biri də iqtisadi inkişafın vacibliyidir. Heydər Əliyev də hakimiyyətinin birinci dövründə Azərbaycan iqtisadiyyatının gücləndirilməsi istiqamətində məqsədyönlü siyasət həyata keçirdi. 1969-cu ilə qədər SSRİ-nin aqrar əyaləti kimi tanınan Azərbaycan həmin tarixdən sonra inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu respublikaya, yüksək mədəniyyəti ilə SSRİ məkanında tanınan aqrar ölkədən aqrar-sənaye ölkəsinə çevrilmişdi. 1969–1982-ci illərdə Azərbaycanda 213 yeni iri sənaye müəssisəsi istismara verilmiş, dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac olunmuş, milli gəlirin ümumi həcmi 2,5 dəfə artmışdı.

İqtisadiyyatın inkişafına təsir göstərən amillər sırasında elm, intellektual potensial da ön sırada dayanmışdı. Heydər Əliyev siyasətinin və uzaqgörənliyinin bir uğurlu nümunəsi də o illərdə 10 mindən çox azərbaycanlı gəncin Moskvanın, eləcə də keçmiş SSRİ-nin 170-dən artıq aparıcı elm və təhsil ocağına təhsil almağa göndərilməsi olmuşdu.

Ötən əsrin 70-80-ci illərində Ulu öndərin rəhbərliyi ilə ölkəmizdə təhsil müəssisələrinin zəngin şəbəkəsinin yaradılması və onların maddi-texniki bazasının formalaşdırılması, o cümlədən hərbi kadrların yetişdirilməsi gələcək dövlət müstəqilliyimiz üçün zəruri intellektual potensial yaratmışdı. Ümummilli liderin həmin illərdə başlatdığı hərbi quruculuq prosesi sonralar müstəqillik qazanan bir ölkənin ordusu üçün zabit heyətinin formalaşmasında müstəsna rol oynamışdır. Bu gün 55 ilin möhtəşəm təntənəsi saysız-hesabsız belə xidmətləri yada salır.

Ulu öndər böyük cəsarət və siyasi müdrikliklə hakimiyyətə gəlişinin ilk aylarında "Xalq qəzeti"nin (o vaxtkı "Kommunist") və Azərbaycan Dövlət Universitetinin 50 illik yubiley mərasimlərində Azərbaycan dilində çıxış edərək ana dilimizə, milli dəyərlərimizə sahib çıxdığını bəyan etmiş və xalq arasında özünə böyük hörmət, məhəbbət qazanmışdı.

XX əsrin 90-cı illərinin əvvəlləri o zamankı iqtidarın zəif idarəçiliyi, xalqın gələcəyini deyil, öz şəxsi mənafelərini güdmələri, hakimiyyətsizlik, vətəndaş qarşıdurması ölkəni işğal və parçalanmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Belə bir vaxtda taleyin ümidinə buraxımış Naxçıvanda xilaskarlıq və milli dövlət quruculuğu missiyasını cəsarət və məharətlə gerçəkləşdirən ümummilli lider Heydər Əliyev ölkədə də xalqın ümid yerinə çevrilmişdi. Hamı xilas yolunu Heydər Əliyevin hakimiyyətə qayıdışında görürdü.

Belə bir dövrdə xalq ayağa qalxaraq Naxçıvana – öz xilaskarına, Heydər Əliyevə üz tutdu, onu təkidlə Naxçıvandan Bakıya siyasi hakimiyyətə dəvət etdi. 1993-cü il iyunun 15-də Ulu öndərin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı çağdaş tariximizə Milli Qurtuluş missiyasının başlanğıcı kimi daxil odu. Onun dövlətçilik təcrübəsi, dünyagörüşü, düşünülmüş və gələcəyə hesablanmış siyasəti nəticəsində ölkəmiz təlatümlər burulğanından xilas oldu. Azərbaycanın müstəqilliyi qorundu, vətəndaş müharibəsinin qarşısı alındı.

Azərbaycan təməli 1969-cu ildə qoyulan inkişaf yoluna qayıtdı. Dahi şəxsiyyət o zaman qarşıya qoyduğu vəzifələri belə bəyan etmişdir: "Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir".

Görkəmli dövlət xadiminin uzaqgörən siyasəti nəticəsində ölkəmizin təbii və milli sərvətlərindən, o cümlədən Azərbaycanın "qara qızılın"dan səmərəli istifadə məqsədilə "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycan iqtisadiyyatının inkişafına, yerli və xarici investisiyalar cəlb etməklə rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, ən əsası isə yeni iş yerlərinin açılmasına imkan yaratdı. 1993-cü ildən sonra ölkəmizdə aparılan dövlət quruculuğu prosesi hərtərəfli inkişaf edən, müasir, demokratik ölkəyə çevrilən qüdrətli Azərbaycan Respublikasının yaradılmasına səbəb oldu.

Böyük iftixarla qeyd edilməlidir ki, Heydər Əliyevin siyasi hakimiyyətə ilk gəlişi ilə bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsi, onun ayrılmaz tərkib hissəsi olan kitabxanalar və təhsil müəssisələri özünün həqiqi inkişaf yoluna qədəm qoydu. Bu inkişaf tendensiyaları içərisində ölkəmizdə kitabxana quruculuğu işi, yüksəkixtisaslı kitabxanaçı kadrların hazırlanması məsələləri də önəmli yer tuturdu.

Məhz Ulu öndərin diqqət və qayğısı ilə o zaman ləğv edilmiş mədəniyyət obyektlərinin, eləcə də kitabxanaların bərpası, yenilərinin yaradılması, ixtisaslı kadrların çoxaldılması məqsədilə Bakı Dövlət Universitetinin kitabxanaçılıq fakültəsinə qəbul planının artırılması hakimiyyətə xilaskar və qurucu liderin gəlməsinin təzahürü idi.

Bir faktı da qeyd etmək yerinə düşər ki, əgər 1970-ci ildə respublikada 7,9 milyon nüsxə kitab fondu olan 3 min 749 məktəb kitabxanası var idisə, 1981-ci ildə onların sayı 4 min 238-ə, kitab fondu isə 25,2 milyon nüsxəyə çatmışdı.

Həmin illərdə Azərbaycan Elmlər Akademiyasının fəaliyyətində də böyük dəyişikliklər baş vermiş və bu, akademiya kitabxanasının işində də özünü göstərmişdir. Elmi kitabxana keçmiş SSRİ məkanında ilk dəfə mərkəzləşdirməyə nail olmuşdu. Ümummilli liderin təşəbbüsü ilə 1973-cü ildə Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasının 50 illik yubileyinin keçirilməsi də Heydər Əliyev fenomeninin respublikamızda kitabxana işinə qayğısının yüksək göstəricisi idi.

Ulu öndər hakimiyyətə ikinci dəfə gəlişindən sonra da həm milli dövlətçiliyi, həm mədəniyyət və təhsil sahəsini, o cümlədən kitabxana işini öz himayəsinə aldı. O, bununla zəngin kitab sərvətinin toplandığı kitabxanaları xalqın istifadəsinə qaytardı. Müstəqil Azərbaycanın kitabxana quruculuğunda atılan uğurlu addımların davamı kimi, "Özəlləşdirməyə münasibətdə dövlət mülkiyyət obyektləri"nin siyahısında kitabxanalar özəlləşdirməyə qadağan olunmuş obyektlər qrupuna aid edildi. 1998-ci ildə "Kitabxana işi haqqında" Qanun qəbul olundu.

Ulu öndər Heydər Əliyevin nəsillərə örnək olan zəngin və çoxşaxəli həyat yolu, xalqına təmənnasız xidməti, müstəqil Azərbaycanın əbədiliyini təmin edib, yeni və müasir Azərbaycan dövlətçiliyinin əsasını qoyub. Müasir və qüdrətli Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin xalqımız qarşısında sadalamaqla bitməyən xidmətləri çoxəsrlik tariximizdə zəngin və şərəfli səhifələr yaratmışdır.

Dahi şəxsiyyət özünün qurub-yaratdığı, şah əsəri olan müstəqil Azərbaycanın taleyini müdriklük və uzaqgörənliklə bu məktəbin layiqli davamçısı Prezident İlham Əliyevə əmanət etmişdir. Bu gün ölkəmiz Heydər Əliyev siyasətinin ən layiqli davamçısının rəhbərliyi altında zəfərlər qazanaraq yeni tarix yazır. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və müzəffər Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı möhtəşəm qələbə və sonrakı qətiyyətli addımlar məhz 1969-cu ilin 14 iyulundan başlanan siyasətin nəticəsidir. Bütün bunlar 55 il əvvəl başlanmış yolda Azərbaycan milli dövlətçiliyinin təntənəsidir.

***Hüseyn HÜSEYNOV,***
***AMEA Mərkəzi Elmi Kitabxanasının direktoru, dosent***

# Xalqımızın milli intibahının başlanğıcı

**İyulun 14-də ümummilli lider Heydər Əliyevin Azərbaycanda birinci dəfə hakimiyyətə gəlişinin 55 illiyi tamam olur. Sovet İttifaqı tərkibində xalqımızın milli intibahına başlanğıc olmuş bu tarixi gün sonrakı möhtəşəm gedişatla ölkəmizi 22 il sonrakı dövlət müstəqilliyinin bərpasına yönləndirib və suverenlik epoxasının zəruri əsaslarını hazırlayıb. Bugünlərdə şəhər və rayonlarımızda, ayrı-ayrı qurumlarda keçirilən çoxsaylı toplantılarda Ulu öndəri Azərbaycanın siyasi hakimiyyət sükanı arxasına gətirmiş günün tarixi önəmi və taleyüklü uğurların qazanmasına başlanğıc olması qədirbilənliklə qeyd olunur.**



## Abşeron

Xırdalandakı Heydər Əliyev Mərkəzində Ümummilli liderin ölkəmizdə siyasi hakimiyyətə gəlməsinin 55 illiyi təntənə ilə qeyd edilib.

Abşeron Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "14 iyul 1969-cu il - Qüdrətli Azərbaycanın inkişaf yolunun başlanğıcı" mövzusunda keçirilən konfransda iştirak edən rayon rəhbərliyi, hüquq-mühafizə orqanlarının, idarə və təşkilatların əməkdaşları, şəhid ailələri, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri əvvəlcə Heydər Əliyev Mərkəzini ziyarət ediblər, Ulu öndərin həyat və fəaliyyətini əks etdirən foto və video materiallarla tanış olublar. Sonra Heydər Əliyevin həyat və fəaliyyətinə həsr edilmiş videoçarx nümayiş olunub.

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev Heydər Əliyevin ölkəmizdə birinci dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu il 14 iyul tarixinin önəmini qeyd edib: "Bu tarix Azərbaycanın xilasının birinci mərhələsi, xalqın özünə qayıdış tarixidir. Heydər Əliyev siyasi fəaliyyətinin bütün mərhələlərində Vətənə, xalqa, torpağa sonsuz məhəbbət və sədaqət hissi ilə, qurub-yaratmaq amalı ilə yanaşıb, hər zaman milli dəyərlərə bağlı olub".

Bildirilib ki, bütün həyatı boyunca daim Vətənini, onun suverenliyini, dövlətimizin güclənməsini düşünən Heydər Əliyev Azərbaycanın ən çətin məqamlarında onu üzləşdiyi faciələrdən, çətinliklərdən, bir dövlət kimi məhv olmaq təhlükəsindən xilas etmək üçün misilsiz xidmətlər göstərib. Bu gün ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursu uğurla davam etdirən Prezident İlham Əliyev, Müzəffər Ali Baş Komandan kimi Vətənimizin ərazi bütövlüyünü təmin edib.

YAP Abşeron rayon təşkilatının sədri Abbas Əliyev, Abşeron RİH yanında İctimai Şuranın sədri, şəhid anası Xatirə İsmayılova, Əkinçilik Elmi-Tədqiqat İnstitutunun direktoru Faiq Xudayev, Saray qəsəbə 3 saylı tam orta məktəbin direktoru, Əməkdar müəllim Təyyubə Hüseynova Ulu öndərin Azərbaycan xalqı qarşısında əvəzolunmaz xidmətlərindən danışıb, dahi şəxsiyyətin hər zaman qürur və iftixar hissi ilə xatırlandığını, ehtiramla yad edildiyini bildiriblər.

## Neftçala

Neftçala rayonunda ulu öndər Heydər Əliyevin ilk dəfə siyasi hakimiyyətə gəlməsi ilə əlaqədar olaraq "14 İyul 1969-cu il: Qüdrətli Azərbaycanımızın uğurlu təməl tarixi" mövzusunda konfrans keçirilib.



Rayon icra hakimiyyətinin başçısı Mirhəsən Seyidov məslisdə bildirib ki, ölkəmizin çoxəsrlik dövlətçilik tarixində Heydər Əliyev epoxasının müstəsna yeri var. Ulu öndərin Azərbaycanda 55 il öncə birinci dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ilin 14 iyul günü xalqımızın tarixi taleyində oynadığı misilsiz rolu ilə daim xatırlanır. Bu tarix Azərbaycanın xilasının birinci mərhələsi, xalqın özünəqayıdış tarixidir.

Veteran dövlət qulluqçusu Oktay Kərimov, tarixçi Firdovsi Tağıyev, "Gündoğar" qəzetinin redaktoru Bədirə Niftəliyeva və başqaları qeyd ediblər ki, qüdrətli lider kimi Heydər Əliyev XX yüzilliyin 60-cı illərində Azərbaycanın iqtisadi göstəricilərinə görə ittifaq respublikaları arasında sonuncu yerdə olduğu bir şəraitdə rəhbərliyə gələrək ölkəmizi böhrandan çıxaran tərəqqi yoluna yönəldib. Bu yol sonralar Azərbaycanı dövlət müstəqilliyinə qovuşdurub.

## Zaqatala

Əlamətdar tarixlər böyük şəxsiyyətlərin misilsiz xidmətləri ilə yaranır. 1969-cu ilin 14 iyulu da məhz belə tarixlərdəndir. Əlli beş il əvvələ qədər bu gün Azərbaycanın həyatında, bəlkə də sıradan bir gün idi. Ancaq zəmanəsinin böyük şəxsiyyətlərindən olan ümummilli lider Heydər Əliyevin adı, həyat və fəaliyyəti, zəngin irsi bu günə xüsusi məna qazandırdı, bu günü milli dövlətçilik tariximizin ən əhəmiyyətli və şərəfli səhifələrindən birinə çevirdi. 14 iyul 1969-cu il Heydər Əliyevin Azərbaycana rəhbər seçildiyi gündür. Həmin gündən Azərbaycanda yeni tarix başlanıb. Bu, xalqın milli ideyalar ətrafında səfərbər olunması, milli dövlətimizin yüksəlişi dövrüdür. Ötən əsrin sonlarına doğru Azərbaycanın müstəqillik nemətinə qovuşmasında və indiki uğurlarında həmin dövrün çox böyük rolu var.

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəlməsinin ildönümü münasibətilə iyulun 13-də Zaqatala şəhərində keçirilən "Heydər Əliyev və qüdrətli Azərbaycan" mövzusunda elmi-praktik konfrans keçirilib.

Zaqatala Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Tofiq Əhmədovun məruzəsində Ümummilli liderin zəngin həyat yolu və çoxsahəli fəaliyyətindən geniş bəhs olunub. Bildirilib ki, Ulu öndərin respublikaya birinci rəhbərlik dövrü çağdaş tariximizə iqtisadi və mədəni yüksəliş dövrü kimi daxil olub, xalqın milli mənlik şüurunun, özünüdərk hissinin güclənməsinə təkan verib. Böyük rəhbər respublikaya birinci rəhbərlik dövründə, ilk növbədə, gələcək iqtisadi müstəqilliyə etibarlı zəmin formalaşdırıb.

YAP Zaqatala rayon təşkilatının sədri Fərid Ramazanov, rayon Mərkəzi Xəstəxanasının direktoru Tamara Nurəliyeva, Maqov kənd ərazi dairəsi üzrə nümayəndə Rəcəb Davudov qeyd ediblər ki, Ulu öndərin uzaqgörənliyi, müdrikliyi və zəngin biliyi ölkəmizin bütün sahələr üzrə dinamik inkişafına zəmin yaradıb, illər keçdikcə Azərbaycan ittifaq məkanında qabaqcıllar sırasına yüksəlib. Unudulmaz liderinideyaları hər zaman inkişafımızın təməl daşı olaraq qalacaq. Dahi şəxsiyyətin layiqli davamçısı olan Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycanın tarixində görünməmiş inkişaf baş verib.

## Naftalan

Naftalan Şəhər İcra Hakimiyyətinin və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "14 iyul 1969-cu il - yüksəlişin başlanğıcı" mövzusunda toplantı keçirilib.

Məclisdə şəhər icra hakimiyyətinin məsul əməkdaşları, YAP Naftalan şəhər təşkilatının, şəhər Ağsaqqallar Şurasının sədrləri, idarə, müəssisə və təşkilat rəhbərləri, ziyalılar iştirak ediblər. Əvvəlcə Heydər Əliyev Mərkəzində ümummilli liderin şərəfli ömür yolunu özündə əks etdirən foto-ekspozisiyalara baxış keçirilib. Müstəqil Azərbaycanın memarı və qurucusu ulu öndər Heydər Əliyev haqqında film nümayiş etdirilib.



Dünya şöhrətli siyasət və dövlət xadimi Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında müstəsna xidmətlərindən geniş söhbət açan natiqlər qeyd ediblər ki, Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dövrünün misilsiz yeri və önəmi var. Bu dövr öz başlanğıcını 1969-cu ilin 14 iyulundan götürüb. Həmin ildən başlayan inkişaf və rifah yolu Azərbaycanın gələcək tərəqqisinin əsası olub. O illərdə yaradılan sosial-iqtisadi və siyasi-ideoloji təməl respublikamızın bugünkü yüksəlişinin sütunlarındandır.

Bildirilib ki, ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəldiyi həmin gün ölkəmizdə müstəqil və qüdrətli Azərbaycan dövlətinin əldə etdiyi bütün uğurların təməl tarixi, həm də Azərbaycan xalqının özünəqayıdışının başlanğıcı kimi xatırlanır. Ulu öndərin uğurla həyata keçirdiyi siyasət Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün tələblərinə uyğun davam etdirilir.

***XQ***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 315** **Bakı şəhəri, 25 iyun 2024-cü il**

**"Elektrik şəbəkəsinə dair Qaydalar"ın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 may tarixli 2143 nömrəli Fərmanının 2.2.4-cü yarımbəndinin 1-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Elektrik şəbəkəsinə dair Qaydalar" təsdiq edilsin (əlavə olunur).

**2.** Müəyyən edilsin ki, Kommunal Xidmətlər Vahid İnformasiya Sistemi fəaliyyətə başlayanadək "Elektrik şəbəkəsinə dair Qaydalar"da həmin sistem vasitəsilə həyata keçirilməsi nəzərdə tutulan prosedurlar "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən yaradılmış informasiya sistemi, habelə birbaşa, poçt və ya elektron poçt vasitəsilə həyata keçirilir.

**3.** "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası"nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İstehlakçıların elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin verilməsi və enerji təchizatı şəbəkəsinə qoşulması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2013-cü il 27 avqust tarixli 234 nömrəli və "Məişət abonentlərinin mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması (mövcud 0,4 kV-luq şəbəkədən) üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 24 iyul tarixli 326 nömrəli qərarlarının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 noyabr tarixli 399 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 11, maddə 1562 (Cild I); 2024, № 2, maddə 231, № 3, maddə 333) 1-ci, 2-ci və 5-ci hissələri ləğv edilsin.

4. Bu Qərar 2025-ci il iyulun 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 326** **Bakı şəhəri, 1 iyul 2024-cü il**

**"Dəmiryol nəqliyyatı haqqında Nizamnamə"nin təsdiq edilməsi barədə**

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli Fərmanının 2.1-1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dəmiryol nəqliyyatı haqqında Nizamnamə" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 327** **Bakı şəhəri, 2 iyul 2024-cü il**

**Dəmiryol nəqliyyatında hərəkətin təşkilində birbaşa iştirak edən şəxslərin vəzifələrinin siyahısının, onların geyim formasının, fərqlənmə nişanlarının təsvirinin və daşınması Qaydasının təsdiq edilməsi haqqında**

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 25 dekabr tarixli 4231 nömrəli Sərəncamının 1.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Dəmiryol nəqliyyatında hərəkətin təşkilində birbaşa iştirak edən şəxslərin vəzifələrinin siyahısı" təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** "Dəmiryol nəqliyyatında hərəkətin təşkilində birbaşa iştirak edən şəxslərin geyim formasının, fərqlənmə nişanlarının təsviri və daşınması Qaydası" təsdiq edilsin (2 nömrəli əlavə).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 328** **Bakı şəhəri, 2 iyul 2024-cü il**

**"Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnun verilməsi üçün ixtisas imtahanının təşkili və keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında**

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 25 dekabr tarixli 4231 nömrəli Sərəncamının 1.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnun verilməsi üçün ixtisas imtahanının təşkili və keçirilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 329** **Bakı şəhəri, 2 iyul 2024-cü il**

**Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən vəsiqənin təsvirinin, spesifikasiyasının, nümunəsinin və verilməsi qaydasının təsdiq edilməsi haqqında**

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 25 dekabr tarixli 4231 nömrəli Sərəncamının 1.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən vəsiqənin təsviri" təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** "Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən vəsiqənin spesifikasiyası" təsdiq edilsin (2 nömrəli əlavə).

**3.** "Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən vəsiqənin nümunəsi" təsdiq edilsin (3 nömrəli əlavə).

**4.** "Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən vəsiqənin verilməsi Qaydası" təsdiq edilsin (4 nömrəli əlavə).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 330** **Bakı şəhəri, 3 iyul 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"nin 0713 10 100 1 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "fevral, mart, aprel və may ayları üzrə" sözləri "oktyabr, noyabr, dekabr, yanvar, fevral və mart ayları üzrə" sözləri ilə əvəz edilsin.

**2.** Bu Qərar dərc edildiyi tarixdən 30 (otuz) gün sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 331** **Bakı şəhəri, 9 iyul 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"nin təsdiq edilməsi barədə", "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1074-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 421 (Cild I); 2024, № 1, maddə 98, № 3, maddə 301) ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.10-cu bənddə "20 ildən" sözləri "25 ildən (Qanunun 2024-cü il yanvarın 1-dək qüvvədə olan normaları əsasında əmək pensiyası təyin edilərkən münasibətdə 20 ildən)" sözləri ilə əvəz edilsin;

1.2. aşağıdakı məzmunda 5.11-ci bənd əlavə edilsin:

"5.11. Hərbi xidmətdən buraxılarkən 25 təqvim ili hərbi xidmət müddətini tamamlamamış aşağıdakı hərbi qulluqçulara güzəştli şərtlərlə yaşa görə əmək pensiyası Qanunun 2024-cü il yanvarın 1-dək qüvvədə olan normaları əsasında hərbi xidmətdən buraxıldığı gündən təyin edilir:

5.11.1. 2024-cü il yanvarın 1-dək 20 təqvim ili və daha çox hərbi xidmət etmiş;

5.11.2. 2024-cü il yanvarın 1-dək azı 17 təqvim ili hərbi xidmət etmiş və hərbi xidmətdən buraxılanadək 20 təqvim ili hərbi xidmət müddətini tamamlamış.".

**2.** Bu Qərar 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 332** **Bakı şəhəri, 9 iyul 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 noyabr tarixli 399 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 noyabr tarixli 399 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 11, maddə 1562 (Cild I); 2024, № 2, maddə 231, № 3, maddə 333) ilə təsdiq edilmiş "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası"na 7 nömrəli əlavə - "Trassanın (yolun) razılaşdırılması ilə bağlı rəyinin alınması tələb olunan orqanların (qurumların) Siyahısı"na aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

"3-1. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 333** **Bakı şəhəri, 9 iyul 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Həbs yerlərinin daxili intizam Qaydalarının təsdiq edilməsi barədə" 2014-cü il 26 fevral tarixli 63 nömrəli və "Qanunsuz miqrantların saxlanılması mərkəzlərinin daxili intizam Qaydaları"nın təsdiq edilməsi barədə" 2016-cı il 24 avqust tarixli 317 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 900-VIKQD nömrəli Konstitusiya Qanununun qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Həbs yerlərinin daxili intizam Qaydalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli 63 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, (Cild I); 2024, № 2, maddə 237) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş "İstintaq təcridxanalarının daxili intizam Qaydaları"nın 20.1-ci bəndində "onların həmin yerlərdə" sözləri "saxlanılan və ya əvvəllər saxlanılmış şəxslərin həmin istintaq təcridxanasında" sözləri ilə əvəz edilsin və həmin bəndə "protokollaşdırmaq," sözündən sonra "texniki vasitələrdən istifadə etməklə foto, audio və video qeydiyyatını aparmaq," sözləri əlavə edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydaları" üzrə:

1.2.1. 6.3-cü bənddə "şəxslərin" sözü "və ya əvvəllər saxlanılmış şəxslərin həmin MSY-də" sözləri ilə əvəz edilsin və həmin bəndə "protokollaşdıra" sözündən sonra ", texniki vasitələrdən istifadə etməklə foto, audio və video qeydiyyatını apara" sözləri əlavə edilsin;

1.2.2. 6.4-cü bənddə "onların" sözü "saxlanılan və ya əvvəllər saxlanılmış şəxslərin həmin MSY-də" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 avqust tarixli 317 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1454 (Cild I); 2024, № 3, maddə 303) ilə təsdiq edilmiş "Qanunsuz miqrantların saxlanılması mərkəzlərinin daxili intizam Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 14.4-cü bənd üzrə:

2.1.1. ", onların" sözü ", saxlanılan və ya əvvəllər saxlanılmış şəxslərin" sözləri ilə əvəz edilsin;

2.1.2. "protokollaşdırmaq" sözündən sonra ", texniki vasitələrdən istifadə etməklə foto, audio və video qeydiyyatını aparmaq" sözləri əlavə edilsin;

2.2. 14.5-ci bənddə (birinci halda) "onların" sözü "saxlanılan və ya əvvəllər saxlanılmış şəxslərin" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 335** **Bakı şəhəri, 9 iyul 2024-cü il**

**Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxslərinə, habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərə hazırlığın və yenidən hazırlığın keçirilməsi və qiymətləndirilməsinin aparılması qaydasının, qiymətləndirmənin nəticələrinə dair sənədin forması və qiymətləndirilmənin aparılmasına görə haqqın məbləğinin təsdiq edilməsi haqqında**

"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 973-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2008-ci il 4 iyul tarixli 792 nömrəli, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1016-VQD nömrəli Qanununun tətbiqi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2018-ci il 17 aprel tarixli 1926 nömrəli, "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" 2011-ci il 20 iyul tarixli 472 nömrəli, "Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2015-ci il 7 dekabr tarixli 704 nömrəli və "Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2016-cı il 25 yanvar tarixli 750 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli 2300 nömrəli Fərmanının 2.1.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxslərinə, habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərə hazırlığın keçirilməsi və qiymətləndirilməsinin aparılması Qaydası" təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxslərinin, habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərin hazırlığının qiymətləndirilməsinin nəticələrinə dair sənədlərin formaları" təsdiq edilsin (2 nömrəli əlavə).

**3.** Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxslərinin, həmçinin beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərin hazırlığı və yenidən hazırlığının nəticələrinə dair qiymətləndirmənin aparılmasına görə operatorun məsul şəxsi və ya beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülər tərəfindən ödənilən haqqın məbləği 60 (altmış) manat təsdiq edilsin.

**4.** Bu Qərar "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxsinin, həmçinin beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərin peşəkarlıq səriştəsinə dair Proqram"ı bitirmək haqqında etibarlılıq müddəti başa çatmamış şəhadətnamələrə malik olan şəxslərə şamil edilmir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 336** **Bakı şəhəri, 12 iyul 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 mart tarixli 76 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında avtomagistraldan ödənişli yol kimi istifadə Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1101-VIQD nömrəli Qanununun tətbiqi və "Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 mart tarixli 299 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 mart tarixli 24 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 mart tarixli 76 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2019, № 3, maddə 510 (Cild I); 2024, № 3, maddə 304) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında avtomagistraldan ödənişli yol kimi istifadə Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"3.4. Hər bir ödənişli avtomagistral ilə nəqliyyat vasitələrinin gedişi üçün ödənişin məbləği avtomobil yolunun dərəcəsi nəzərə alınmaqla Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən təsdiq edilir.".

**2.** 3.11.3.1-ci yarımbənddə "dərəcəsindən, nəqliyyat vasitəsinin qət etdiyi məsafədən, çəkisindən və ay ərzində gedişlərin sayından asılı olaraq" sözləri "dərəcəsi nəzərə alınmaqla" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

**Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycan–Pakistan iqtisadi tərəfdaşlığı yüksəliş yolunda

**Prezident İlham Əliyevin iyulun 11-də Pakistan İslam Respublikasına dövlət səfəri çərçivəsində keçirdiyi görüşlərdə bu ölkə ilə bir sıra sahələrdə, eləcə də iqtisadi sektorda əməkdaşlığın daha da genişləndirilməsi diqqət mərkəzində olub, ikitərəfli ticarətin daha da genişləndirilməsi zəruriliyi xüsusi vurğulanıb. Yatırılacaq sərmayələrin ilkin həcminin, təxminən, 2 milyard dollara yüksələcəyinə əminlik ifadə edilib, energetika, infrastruktur, daşımalar və digər sahələrdə bir sıra layihələrin həyata keçiriləcəyi diqqətə çatdırılıb.**



Azərbaycan – Pakistan iqtisadi tərəfdaşlığından bəhs edərkən, ilk növbədə, bir məqamı qeyd edək. Belə ki, 1995-ci ilin oktyabrında Bakıda "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Azərbaycan-Pakistan Birgə Komissiyasının yaradılması haqqında Protokol" imzalanıb, 2000-ci ildə isə Birgə Komissiyanın ilk iclası keçirilib. Bununla da iki ölkə arasında iqtisadi münasibətlərin əsası qoyulub.

Yeri gəlmişkən, 2017-ci ilin fevralında Azərbaycandan ixrac missiyası Pakistanda işgüzar səfərdə olub. Həmin ilin iyulunda isə Bakıda Azərbaycan ilə Pakistan arasında ticarət sahəsində əməkdaşlıq üzrə Birgə İşçi Qrupunun 1-ci iclası keçirilib və "Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu ilə Pakistanın Ticarətin İnkişafı Qurumu arasında əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb. 2019-cu ilin aprelində Bakıda Azərbaycan, Türkiyə və Pakistanın üçtərəfli sərgisi keçirilib. Pakistan Pavilyonunda 10 şirkət təmsil olunub.

Həmin ilin sentyabrında keçirilən Azərbaycan-Pakistan biznes forumunda kənd təsərrüfatı, enerji, əczaçılıq, ticarət, tikinti və digər sahələrdə fəaliyyət göstərən 150-dən artıq iş adamı iştirak edib, Azərbaycan Ticarət və Sənaye Palatası ilə Pakistanın Sərhəd Ticarət və Sənaye Palatası arasında Anlaşma Memorandumu imzalanıb. Bundan əlavə, həmin ilin oktyabrında Bakıda Pakistan malları, dekabrında isə əczaçılıq məhsulları sərgisi təşkil olunub. Bundan sonra iki ölkədən nazirlər və biznes dairələri səviyyəsində çoxsaylı səfərlər reallaşdırılıb. 2023-cü ilin iyulunda Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə Lahorda "Azərbaycan Respublikasının "SOCAR Trading" şirkəti ilə Pakistan "LNG Limited" şirkəti arasında LNG yüklərinin alqı-satqısı haqqında Çərçivə Müqaviləsi"nin imzalanma mərasimi keçirilib.

Buna baxmayaraq, Azərbaycan ilə Pakistan arasında iqtisadi və ticarət sahələrində aktivlik ikitərəfli münasibətlərin səviyyəsinə uyğun deyil. Bununla belə bu sahədə də əməkdaşlığın inkişaf etdirilməsi üçün böyük potensial vardır. 2023-cü ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 27 milyon ABŞ dolları təşkil edib. Pakistan tərəfi Azərbaycan şirkətlərinin bu ölkəyə sərmayə qoymasında çox maraqlıdır.

Hazırda Azərbaycanda 3600-dən çox Pakistan şirkəti qeydiyyata alınıb və onlar sənaye, kənd təsərrüfatı, tikinti, ticarət, nəqliyyat və xidmət sahələrində aktiv fəaliyyət göstərir. Pakistan şirkətləri işğaldan azad edilmiş ərazilərdə yenidənqurma və bərpa işlərində iştirak üçün də müraciət ediblər. Azərbaycan Pakistan ilə iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsini vacib hesab edir. Prezident İlham Əliyevin tapşırığı ilə, Pakistandan idxal olunan düyü məhsullarının idxal rüsumu birtərəfli güzəşt tətbiq edilməklə 2027-ci il dekabrın 31-dək 15 faizdən 0 faizə endirilib.

Azərbaycanla Pakistanın iqtisadi əməkdaşlığı üçün digər sahə isə nəqliyyat bağlantılarıdır. Belə ki, iki ölkə həm Orta Dəhliz, həm Şimal-Cənub, həm də Şərq–Qərb dəhlizlərində əməkdaşlıq imkanlarına malikdir. Ötən ilin sentyabrında AZAL Bakıdan Lahora, noyabrda isə İslamabada və əks istiqamətdə birbaşa uçuşlara başlayıb. Ötən il iki ölkə arasında avtomobil yolları ilə tranzit karqo daşımalarının həcmi 33 min ton olub və bu rəqəm əvvəlki dövr ilə müqayisədə 53 faiz artım deməkdir.

Ölkə rəhbərinin Pakistana dövlət səfərinə dair yuxarıda vurğulanan mühüm məqamları şərh edən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Türk Dünyası Araşdırmalar Mərkəzinin rəhbəri Vüsalə Cəfərova bildirib ki, Azərbaycanla dost ölkə arasında imzalanmış sənədlər ticarət, investisiya, tranzit, kiçik və orta biznesin inkişafı, turizm və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın yeni səviyyəsinə çatmaq üçün əlverişli zəmin yaradır.

Hökumətlər arasında imzalanan tranzit ticarət və preferensial ticarət haqında sazişlər bu sahədə tarifləri azaltmağı, vergi və gömrük imtiyazlarının tətbiqini hədəfləyir. Prezident İlham Əliyev və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif mətbuata bəyanatlarında da qarşılıqlı ticarətin həcminin birmənalı olaraq artırılacağını vurğulayıblar. Artıq ilkin mərhələdə güzəştli ticarət formatına aid 9 maddə müəyyən olunub.

V.Cəfərova Pakistan iqtisadiyyatının aparıcı sahələrini təhlil edərkən bildirib ki, bu ölkənin kənd təsərrüfatı cari ilin yanvar–aprel aylarında 6,25 faiz artıb. Azərbaycanın Pakistandan idxal edilən düyünü 2027-ci ilədək gömrük rüsumundan azad etməsi bu ölkənin kənd təsərrüfatı məhsullarının ixracını artırmaq və ikitərəfli ticarət əlaqələrini gücləndirmək üçün mühüm jestdir. Bununla yanaşı, Pakistan son dövrlər xarici birbaşa investisiyaların cəlb edilməsində artım nümayiş etdirir. Belə ki, 2024-cü ilin aprel ayında (2023-cü ilin eyni dövrü ilə müqayisədə) xarici birbaşa investisiyalar 39,1 faiz artaraq 359 milyon dollar təşkil edib. Bu və digər göstəricilər Azərbaycanın güclənən və iqtisadiyyatını şaxələndirən bir dövlətlə əməkdaşlığını artırdığını göstərir.

Türk Dünyası Araşdırmalar Mərkəzinin rəhbərinin sözlərinə görə, səfər çərçivəsində enerji, infrastruktur və digər sektorlarda 2 milyard dollar məbləğində ilkin investisiyalara dair aparılan müzakirələr hər iki ölkədə iqtisadi inkişafı stimullaşdırmaq və birgə müəssisələr yaratmaq məqsədi daşıyır. Mineral resurslar və geologiya sahəsində əməkdaşlıq haqqında imzalanan Anlaşma Memorandumu enerji resurslarının araşdırılması və inkişaf etdirilməsi baxımından əhəmiyyətlidir. Rəqəmsal inkişaf və nəqliyyat sahələrindəki razılaşmalar isə infrastrukturun modernləşdirilməsi və texnoloji əməkdaşlığı gücləndirməyi hədəfləyir.

V.Cəfərova qeyd edib ki, 2024-2029-cu illər üçün mədəni mübadilə proqramı xalqlar arasında əlaqələri möhkəmləndirmək məqsədi daşıyır ki, bu da iqtisadi əlaqələri dəstəkləyə bilər. Elmi və texnoloji əməkdaşlıq haqqında razılaşmalar isə innovasiya və tədqiqat sahəsini inkişaf etdirərək yeni iqtisadi imkanlar yaratmağı hədəfləyir. Azərbaycan–Pakistan arasında əməkdaşlığın şaxələndirilməsi respublikamızın regional iqtisadi inteqrasiyada rolunu gücləndirir. Bu əlaqələr türk dövlətləri üçün də sabitlik və iqtisadi inkişafı təşviq etmək baxımından önəmlidir. Çünki Pakistan hər zaman türk dövlətləri ilə qardaşlıq və həmrəylik nümayiş etdirir.



# Neft cüzi azalıb, qaz xeyli çoxalıb

*Bu ilin ilk yarısında ölkə üzrə 14,4 milyon ton neft və 25 milyard kubmetr qaz hasil edilib*

**Operativ məlumatlara əsasən, bu ilin birinci yarısında Azərbaycanda, təxminən, 14,4 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. Ölkə üzrə neft hasilatının 8,2 milyon tonu "Azəri–Çıraq–Günəşli" yataqlar blokunun, 2,1 milyon tonu (kondensat) "Şahdəniz", 0,3 milyon tonu (kondensat) isə "Abşeron" yatağının payına düşüb.**

Hesabat dövründə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən 3,8 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. Cari ilin iyun ayında ölkə üzrə gündəlik neft (kondensatla birlikdə) hasilatı 80 min 585 ton olub. Ümumi hasilatın 65 min 597 tonunu xam neft, 14 min 988 tonunu isə kondensat təşkil edib.

Bu arada, Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) aylıq hesabatını açıqlayıb. Sənəddə Azərbaycanın neft hasilatının mövcud mənzərəsi də əksini tapıb. Hesabatda qeyd olunur ki, 2024-cü ilin iyun ayında Azərbaycanda ortalama gündəlik xam neft hasilatı 479 min barel səviyyəsində olub. Bu da may ayı ilə müqayisədə 13 min barel çoxdur. OPEC-in hesabatına əsasən, bu ilin mayında Azərbaycanda neft hasilatı 466 min barel təşkil edib.

Qurumun hesabatında qeyd olunur ki, 2024-cü ilin birinci rübündə Azərbaycanda ortalama gündəlik neft hasilatı 477 min barel, ikinci rübündə isə 475 min barel səviyyəsində olub, bu da cüzi azalma deməkdir. Yeri gəlmişkən, "OPEC+" (OPEC və təşkilata daxil olmayan ölkələri əhatə edən neft istehsalının azaltması üzrə təşəbbüs) əməkdaşlığı çərçivəsində 2024-cü il üçün Azərbaycanın gündəlik xam neft hasilatı üzrə kvotası 551 min bareldir. Beləliklə, Azərbaycan iyun ayında "OPEC+" çərçivəsində kvotasından 72 min barel geridə qalıb.

2024-cü ilin yanvar–iyun aylarında ölkə üzrə, təxminən, 11,9 milyon ton neft (kondensatla birlikdə) ixraca nəql olunub. Bunun da 10,3 milyon tonu konsorsiumun, 1,6 milyon tonu isə SOCAR-ın payına düşür.

İlin ilk 6 ayında ölkənin emal kompleksinin ahəngdar fəaliyyəti də uğurla davam edib. Energetika Nazirliyinin açıqladığı operativ məlumatlara əsasən, hesabat dövründə Heydər Əliyev adına Neft Emalı Zavodunda 3,2 milyon ton xam neft emal olunub.

Birinci yarımildə ölkədə 25,1 milyard kubmetr təbii qaz hasil edilib. "Mavi yanacağ"ın 6,5 milyard kubmetri (səmt qazı) "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan (AÇG), 14 milyard kubmetri "Şahdəniz", 0,8 milyard kubmetri "Abşeron" yataqlarından çıxarılıb. Yerdə qalan 3,8 milyard kubmetr qaz isə SOCAR üzrə hasil olunub. Qaz hasilatında ötən ilin müvafiq dövrünə nisbətən, təqribən, 1 milyard kubmetr, yəni 4,3 faiz artım qeydə alınıb.

Cari ilin yanvar–iyun aylarında xaricə qaz satışı, təxminən, 12,7 milyard kubmetr təşkil edib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə, təqribən, 6 faiz artım deməkdir. Hesabat dövründə Türkiyəyə, 5 milyard kubmetr, Gürcüstana isə 1,3 milyard kubmetr qaz satılıb. Bu müddətdə Türkiyəyə TANAP-la 2,8 milyard kubmetr qaz nəql olunub. Birinci yarımildə Azərbaycandan Avropaya 6,4 milyard kubmetr "mavi yanacaq" ixrac olunub. Yeri gəlmişkən, ölkəmizdən "köhnə qitə"yə qaz tədarükü 2020-ci il dekabrın 31-də Trans–Adriatik Qaz Boru Kəmərinin istismara verilməsi ilə başlanıb. Bununla da, Azərbaycanın Avropa İttifaqının təbbi qaz idxalındakı payı sürətlə artmağa başlayıb. Belə ki, 2021-ci ildə ölkəmizdən Avropanın qaz bazarlarına 8 milyard kubmetr "mavi yanacaq" ixrac edilib ki, bu da ümumi idxalın 3 faizinə bərabər olub. Hazırda isə bu göstərici 7 faizə yüksəlib.

"Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara veriləndən 2024- cü il iyulun 1-dək 639,6 milyon tona yaxın neft (kondensatla birlikdə), 445,9 milyard kubmetr qaz hasil edilib. 1997-ci ilin noyabr ayında "Çıraq" yatağından ilkin neftin hasilatına başlanıldığı vaxtdan ötən müddtdə "Əsrin müqaviləsi" çərçivəsində 593 milyon ton neft və 222,9 milyard kubmetr səmt qazı hasil olunub. "Şahdəniz" yatağından hasilata başlanıldığı 2006-cı ilin sonlarından indiyədək, təqribən, 223 milyard kubmetr qaz və 46,6 milyon tona yaxın kondensat çıxarılıb. Ötən müddətdə bu yataqlardan çıxarılan neft (kondensatla birlikdə) və qazın müvafiq olaraq 637,6 milyon tonu və 158,8 milyard kubmetrə yaxın hissəsi ixraca nəql edilib.

Qeyd edək ki, hazırda Azərbaycandan Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri ilə "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan hasil edilən neft və "Şahdəniz" yatağından çıxarılan kondensat nəql olunur. Bundan əlavə, sözügedən boru kəməri ilə Türkmənistan və Qazaxıstan nefti də ixrac edilir. Azərbaycanın təbii qaz həcmləri isə Cənubi Qafqaz Boru Kəməri (Bakı–Tbilisi–Ərzurum) və Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) vasitəsilə Türkiyə bazarına çatdırılır. Bakı–Tbilisi–Ərzurum kəməri ilə ilk qaz Türkiyə bazarına 2007-ci ildə daxil olub. TANAP vasitəsilə Türkiyəyə kommersiya qazının nəqlinə isə 2018-ci il iyunun 30-da başlanıb. Türkiyəyə Azərbaycanın "Şahdəniz" yatağından hasil edilən təbii qaz nəql olunur.

# Özbəkistan şirkəti ölkəmizdə pambıq yetişdirəcək, parça toxuyacaq...

**Özbəkistanın "TST Textile Group" MMC tərəfindən İmişli Aqroparkın ərazisində pambıq sahəsi salınacaq. Bu da ölkəmizdə pambıqçılığın inkişafında mühüm rol oynayacaq. Özbək şirkəti ilkin mərhələdə pambıq sahəsinin yaradılmasına 28,7 milyon manat investisiya yatıracaq. Bu barədə İqtisadi Zonaların İnkişafı Agentliyindən məlumat verilib.**



Bildirilib ki, 2025-2029-cu illər ərzində şirkət tərəfindən pambıq emalı, iplik, toxuculuq və tikiş fabriklərinin, həmçinin pambıq yağı zavodunun qurulması nəzərdə tutulur. Pambıq emalı və yağ zavodları İmişli rayonu ərazisində yerləşən 5 min 826 hektar torpaq sahəsində, iplik, toxuculuq və tikiş fabrikləri isə Mingəçevir Sənaye Parkının ərazisində yaradılacaq. Layihə çərçivəsində xammaldan son məhsul istehsalına kimi proseslər həyata keçiriləcək ki, bu da klasterləşmənin qurulmasına təkan verəcək.

Qeyd edək ki, ümumi investisiya həcmi 92,5 milyon manat təşkil edən layihə çərçivəsində 1130 nəfərlik iş yerinin yaradılması planlaşdırılır. Layihənin həyata keçirilməsinə şəxsi vəsaitlə yanaşı, Azərbaycan–Özbəkistan İnvestisiya Fondu tərəfindən də maliyyə ayrılması nəzərdə tutulur. Beləliklə, layihənin həyata keçirilməsi ölkəmizdə pambıqçılıq sahəsində ilk dəfə olaraq Özbəkistan təcrübəsi əsasında klasterləşmənin formalaşmasına gətirib çıxaracaq.

Bütövlükdə, Özbəkistana məxsus "Tukımachı Sanoat Tekstıl" MMC Azərbaycanda yaradacağı 5 müəssisənin hesabına 10 il ərzində (2025-2034-cü illərdə) 648 milyon manat satış gəlirləri, 222 milyon manat isə vergiyəqədərki mənfəət əldə edəcəyini proqnozlaşdırır. Şirkətin həmtəsisçisi Abduvoris Yuldaşovun sözlərinə görə, investisiyanın geri qayıtması müddəti 5,5 il, layihədə xalis mənfəət marjası isə 34 faiz təşkil edir. "Bu layihənin hesabına regionlarda məşğulluq təmin ediləcək, əlavə dəyər yükü olan iplik, qumaş, tikiş məhsulları ixrac olunacaq", – deyə o əlavə edib.

# "Azexport"un "Payoneer"lə alış-verişi

AZEXPORT.AZ
MADE IN AZERBAIJAN

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru olduğu "Azexport" portalı ölkədə elektron ticarətin əhatə dairəsinin daha da genişləndirilməsi məqsədilə beynəlxalq əməkdaşlığı dərinləşdirir.**

İİTKM-dən redaksiyamıza verilən məlumatda bildirilir ki, bu məqsədlə son aylarda portal və "Payoneer" beynəlxalq ödəniş sistemi arasında görüşlər keçirilib, sahə üzrə mövcud çətinliklərin həlli istiqamətində müzakirələr aparılıb. Müzakirələrin nəticəsi olaraq "Payoneer" tərəfindən Azərbaycan üzrə menecer təyin edilib. "Payoneer" və "Azexport" portalının birgə əməkdaşlığı ilə sahə üzrə mövcud problemlərin həlli üzrə konkret addımların atılması nəzərdə tutulub. Bura qeydiyyat prosedurlarının ölkə standartlarına uyğunlaşdırılması, təlim və maarifləndirmə işlərinin həyata keçirilməsi və digər texniki məsələlərin həlli daxildir.

Qeyd edək ki, bundan əvvəl "Payoneer" rəqəmsal ödəniş platformasında qeydiyyat və digər mərhələlərdə çətinlik yaşayan istifadəçilər dəstək üçün "Azexport" portalı vasitəsilə təşkilata müraciət edə bilərlər.

# ƏDV ödəyiciləri 8 faiz artıb

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatına görə, cari il iyulun 1-nə aktiv vergi ödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 2,1 faiz artaraq 778 minə çatıb.**



Məlumata görə, aktiv ƏDV ödəyicilərinin sayı 49,3 min, aktiv təsərrüfat subyektlərinin (obyektlərinin) sayı 208,9 min olub ki, bu da ilin əvvəli ilə müqayisədə müvafiq olaraq 7,9 faiz və 2,1 faiz çoxdur.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***



# 1 sentyabr Milli Məclisə seçkilər günüdür!

## SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



# "Ekspert qruplarının üzvləri üçün yaddaş" kitabçası

**Mərkəzi Seçki Komissiyası 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərlə əlaqədar müxtəlif statuslu seçki subyektlərinin maarifləndirilməsi proqramı çərçivəsində "Ekspert qrupunun üzvləri üçün yaddaş" kitabçası hazırlayıb.**

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən bildiriblər ki, layihənin həyata keçirilməsində və nəşrin hazırlanmasında əsas məqsəd seçki hüququ ilə bağlı müraciətlərin araşdırılması, vətəndaşların konstitusion hüquqlarının daha səmərəli təmin olunması üçün dairə seçki komissiyaları nəzdində fəaliyyət göstərən ekspert qrupu üzvlərinə metodiki köməyin göstərilməsi, məlumatlarının artırılması və peşəkarlıqlarının daha da təkmilləşdirilməsidir.

Seçki Məcəlləsi və Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi təlimat, izah, qayda və digər normativ xarakterli sənədlər əsasında tərtib olunan kitabçada seçki hüququ ilə bağlı müraciətlərin araşdırılması, habelə müvafiq rəy və qərar layihələrinin hazırlanması prosedurları aydın və müfəssəl şəkildə əks olunub.

"Ekspert qrupunun üzvləri üçün yaddaş" kitabçası dairə seçki komissiyalarına paylanılıb, həmçinin Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsində (www.msk.gov.az) də yerləşdirilib.




# Müşahidəçilər üçün təlim





**İyulun 13-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında Azərbaycan Respublikası Milli Məclisinə 2024-cü il sentyabrın 1-nə təyin edilmiş növbədənkənar seçkilərlə əlaqədar YAP-ın Tədbirlər Planına uyğun olaraq səsvermə günündək seçki komissiyalarının iclaslarını müşahidə edəcək şəxslərin təlimatlandırılması məqsədilə müşavirə keçirilib.**

YAP-dan bildiriblər ki, təlim zamanı seçki prosesində müşahidəçilik institutunun rolu və əhəmiyyəti, müşahidə aparılması qaydaları, müşahidəçilərin hüquq və vəzifələri barədə ətraflı izahat və məlumat verilib.

Sonra iştirakçıları maraqlandıran suallar cavablandırılıb, müvafiq tapşırıq və tövsiyələr diqqətə çatdırılıb.

# Siyasi partiyaların seçkilərdə iştirak üçün müraciətləri davam edir

**Mərkəzi Seçki Komissiyası 2024-cü il sentyabrın 1-nə təyin edilmiş növbədənkənar parlament seçkisində iştirak edəcək siyasi partiyaların səlahiyyətli nümayəndələrinin qeyiyyatını davam etdirir.**



Son məlumata görə, 20 siyasi partiyanın 519 səlahiyyətli nümayəndəsi MSK-da qeydə alınıb.

# MDB PA-nın nümayəndələri Milli Məclisə növbədənkənar seçkiləri müşahidə edəcək

**Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyasının (MDB PA) müşahidəçiləri Azərbaycanda 2024-cü il sentyabrın 1-də keçiriləcək Milli Məclisə növbədənkənar seçkiləri izləyəcəklər.**

Məlumata görə, Azərbaycanda keçiriləcək növbədənkənar parlament seçkilərini izləyəcək MDB PA-dan olan müşahidəçilər qrupuna Rusiya Federasiya Şurasının vitse-spikeri Konstantin Kosaçov rəhbərlik edəcək.

Onun namizədliyi MDB PA Şurasının iclasında Rusiya Federasiya Şurasının sədri Valentina Matvienko tərəfindən təklif edilib.

# Namizədlərin sayı hər gün artır

**Növbədənkənar parlament seçkilərində mübarizə gündən-günə gərginləşir.**



Namizədlərin sayı günbəgün artır. İyulun 13-dən namizədlər toplanmış imzalarla bərabər imza vərəqələrini DSK-lara təqdim edə bilərlər.

İndiyədək 125 seçki dairəsinin 104-nə müraciət olunub. 307 nəfər namizədlik müraciət edib. Onlardan 150-nin namizədliyi təsdiq olunub. Namizədlikləri təsdiqlənən 114 nəfər imza vərəqələrini götürüb.

***Hazırladı:***
***Əliqismət BƏDƏLOV***
***XQ***

## Sağlam yaşam – uzun ömür

# Siqaret bəladır, "elektron"u isə xroniki intihardır

**Son vaxtlar gənclərin, bəzən, hətta yeniyetmələrin ovuclarında kiçik bir əşyanı ağızlarına aparıb sonra havaya tüstü buraxdıqlarının şahidi oluruq. Bu halla taksidə gedərkən də rastlaşır, yol yoldaşımızın elektron siqaretdən istifadəsinə şahid oluruq. Və müşahidə edirik ki, elektron siqaretlərə, xüsusən gənclərimizin marağı böyükdür və bu maraq getdikcə artır. Onlar "zərərsizdir"–deyib istifadə etdikləri bu siqaretin inkişafda olan orqanizmə mənfi təsirini bimirlər. Əgər bilsələr ki, həmin zərərsiz hesab etdikləri siqaretlər orqanizmdə hansı ciddi xəstəliklərə yol açır, yəqin ki, ondan imtina edərlər. Düşünürük ki, bu sahədə maarifləndirmənin böyük rolu ola bilər. Azərbaycan Tibb Universitetinin farmakologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor Musa Qəniyevdən elektron siqaretlərin zərərli təsirini, yaratdığı fəsadların bəzi aspektlərini təhlil etməyi xahiş etdik.**

***– Professor, elektron siqaret nədir və onda orqanizmə zərər verən hansı maddələr toplanıb?***

– Elektron siqaretlər yüksək dispers aerozol yaradan elektron sistemdir. Onun rezervuar hissəsindəki mayenin tərkibində nikotin, aromatik əlavələr, həlledici (məsələn: propilenqlikol, qliserin) və 10–20 faiz su olur. Bəzi markalarda bu tərkibdə tetrahidrokannabinolun olması da istisna deyildir. Elektron siqaretin buxar şəkilli aerozolunda karbonil birləşməsi, nitrozamin, xrom, nikel, kadium, gümüş, civə, alüminium, anabazin, duasetil, benzaldehid, formaldehid, və s. ümumilikdə, 4 mindən artıq maddə olur. İstifadəçi tənəffüs havası ilə aerozol buxarını ciyərlərinə çəkərkən bu maddələr onun bütün orqan və sistemlərinə yayılır. Marketinq maraqlarına görə deyilməsə də, əslində elektron siqaretdə nikotin və digər zərərli maddələrin miqdarı göstərilən normativlərdən 10–30 faiz çox olur.

***– Həmin siqaretlər hansı xəstəliklərə və necə yol açır?***

– Əminliklə bildirirəm ki, elektron siqaretlər adi siqaretlərdən daha təhlükəli və qorxuludur. Bu siqareti çəkərkən buxar halında olan aerozol, ağız boşluğu və tənəffüs yolu selikli qişasını yandırdığından çox ciddi xəstəliklərə səbəb ola bilir. Elektron siqaretin xərçəng, kəskin ağ ciyər və ürək xəstəlikləri törətmə potensialı adi siqaretdən dəfələrlə yüksəkdir. Digər tərəfdən, aerozolun ultrakiçik hissəcikləri (diametri 2,5 mikromillimetrdən kiçik, yaxud həmin ölçüyə bərabər) ağ ciyər toxumasının dərinliyinə nüfuz edir, selik baryerinə təsir göstərərək mukosiliar klirensi zəiflədə, perebronxial iltihab və fibroza səbəb ola bilir.



Aerozolun tərkibində olan bəzi maddələrin, xüsusən akroleinin mutagen təsir göstərməsi, xromosom aparatında ciddi dəyişikliklər törətməsi mümkündür.



Əvvəllər elektron siqaret çəkməmiş şəxs, cəmi 20 dəfə bu tüstünü ciyərlərinə alıb-verərsə, alveolların makrofaqlarında 60-dan artıq genin ekspresiyasında, irsiyyətə verilmə ehtimalı olan dəyişiklik baş verir. Aerozolun tərkibindəki formaldehidin çox güclü kanserogen (xərçəngtörətmə) olması isə, məlum həqiqətdir. Bu siqaretdən daimi istifadə, orqanizmin toxumalarını fermentlərin destruktiv təsirindən qoruyan zülal-inhibitorların aktivliyini kəskin şəkildə azaldır. Asılılıq törətmə potensialına görə isə adi siqaretdən heç də geri qalmır. Elektron siqaretdən ümumi istifadə, hepatit, vərəm və bu kimi qorxulu və öldürücü infeksiyalara yoluxmaya 100 faizli zəmin yaradır.

Belə siqaretin ağ ciyərə təsiri, klinik gedişinə görə koronavirusdan praktik olaraq fərqlənməyən atipik gedişli, ikitərəfli kəskin ağ ciyər pnevmoniyasına səbəb ola bilir. Məsələn, "Nyu York Tayms" qəzetinin 5 avqust 2019-cu il sayında haqqında məlumat verilən, yanvar ayına qədər 2,5 mindən artıq insanın yoluxduğu və 60 nəfərin ölümünə səbəb olan atipik pnevmoniyanın koronavirus etiologiyalı olduğu iddia olunsa da, aparılan monitorinq bunun məhz elektron siqaretlə əlaqədar olduğunu təsdiq etdi. Odur ki, bu xəstəlik ümumdünya elmi ədəbiyyatında EVALI (ing. E-ciggarete or vaping product associate lung injury) adını aldı.

***– Bütün elektron siqaretlərdə nikotin olur, yoxsa bu siqaretlərin nikotinsizi də istehsal edilir?***

– İstehsal edən ölkədən, siqaretin markasından asılı olaraq elektron siqaretlərin nikotinsizi də satışa çıxarılır. Hər ikisinin çox zərərli təsiri olduğuna baxmayaraq, nikotinli və nikotinsiz məhsulların kimyəvi tərkibindəki fərqlilik yalnız nikotinlə bağlıdır. 2023-cü ildə sübut olundu ki, ağ ciyərlərdə mikrosirkulyasiyanın daha ciddi pozğunluğunu törətdiyinə görə nikotinsiz siqaretin dağıdıcı təsiri, nikotinlidən daha güclüdür. Qəribə görünsə də, bunu provitamin olaraq nikotinin orqanizmdə vitamin B3-ə (vitamin PP, nikotinamid, nikotin turşusu) çevrilərək, nisbi korreksiya halı törətməsi ehtimalı ilə əlaqələndirirlər.

Unutmaq olmaz ki, həmin siqaretdən, hətta qısamüddətli istifadə olunsa belə, ağ ciyərlərin bərpası 2–3 aya qədər, asinusların regenerasiyası isə 12 ay və daha uzun müddətə bərpa olunur.

***– Elektron siqaretin istehsalına və satışına qadağa, istifadəsinə görə cərimə tətbiq edilirmi?***

– Qadağalar var. Elektron siqaretin satışı və istifadəsinə 2021-ci ilə qədər dünyanın 41 ölkəsi, o cümlədən, Aİ-nin Danimarka və Norveç (Norveç Krallığı) kimi ölkələrində qadağa qoyulmuşdur. 2024-cü ildə bu siyahıya qardaş Türkiyə və Qazaxstan da əlavə olunub. Misir, İordaniya, Oman, Qətər və sair kimi müsəlman ölkələrində isə elektron siqaret haram hesab edilərək qadağan olunmasına "fətva" verilmişdir.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu publik hüquqi şəxs tərəfindən 2023-cü ildə "Elektron siqaret məhsulları. Ümumi texniki şərtlər" dövlət standartı qəbul edilib. Dövlət standartı hazırlanarkən Respublika Gigiyena və Epidemiologiya Mərkəzi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə rəsmi qaydada razılaşdırılıb.

Qeyd edək ki, ölkəmizdə məhsulun 18 yaşa çatmamış şəxslərə əvəzli və ya əvəzsiz verilməsi, həmçinin 18 yaşa çatmamış şəxslər tərəfindən istifadəsi qadağandır.

***– Professor, mütəxəssis olaraq gənclərə nə tövsiyə edirsiniz?***

– Elektron siqaretin marketinqi hazırda əsasən internet və sosial şəbəkələr vasitəsilə edilir. Bu təbliğatın əsas istiqaməti və obyekti yeniyetmələr və uşaqlardır. Odur ki, üzümü bütün ailələrə tutub deyirəm: "Elektron siqaret, guya "qorxusuz su buxarı" hasil edir" – fikri tamamilə yanılış və əsassızdır. Siz çalışın, övladlarınızı elektron siqaret bəlasından qoruya biləsiniz...



Ölkəmizin gəncləri arasında elektron siqaretdən istifadənin artması, səhiyyəmizin potensial problemi hesab olunmalıdır. Gənclərimizi bu bəladan qorumağın yeganə yolu, bu siqaretlərin ölkəyə gətirilməsi və istifadəsinə mütləq və qeyd-şərtsiz olaraq qadağanın qoyulmasıdır. Eyni zamanda, elektron siqaretin orqanizmə vurduğu zərər, yaratdığı fəsadlarla bağlı roliklər çəkilməli, maarifləndirici videçarxlar hazırlanmalı, KİV nümayəndələri mütəxəssis fikirləri ilə əhalini məlumatlandırmalıdırlar.

***Söhbəti hazırladı:***
***Zərifə BƏŞİRQIZI***
***XQ***

# COP29: cəmiyyətin təbiətə qayıdışı

**Dövlətimizin başçısının qeyd etdiyi kimi, texnoloji inkişaf qarşıda duran vacib vəzifələrimizdən biridir. Bu gün istər sənaye inkişafı, istər hərbi sənaye kompleksi sahəsində və ümumiyyətlə, hər bir sahədə texnoloji inkişaf və üstünlük böyük əhəmiyyət daşıyır.**

Bildiyimiz kimi, hazırda ölkəmizdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a ciddi hazırlıq gedir. Ötən ay Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək" mövzusunda 3 günlük Yüksək Səviyyəli 29-cu toplantı keçirilib. Prezident İlham Əliyev tədbir iştirakçılarına müraciətində vurğulayıb ki, artıq uzun zamandan bəri iqlim dəyişmələri ilə mübarizə qlobal gündəlikdə duran ən vacib və prioritet məsələlər sırasındadır.

Bəşəriyyətin ortaq problemi olan iqlim böhranı və onun fəsadları ölkələrin dayanıqlı inkişafına və rifahına əngəl törətməklə yanaşı, sadə insanların da gündəlik həyatlarına və yaşam tərzlərinə əhəmiyyətli dərəcədə təsir göstərir: "Bildirmək istərdim ki, Azərbaycan COP29-a var gücü ilə hazırlaşır, yaşıl, ədalətli, inklüziv və dayanıqlı dünya naminə həmrəyliyi gücləndirmək, planetimizin gələcəyi üçün müsbət nəticələr əldə etmək səylərini əsirgəmir. Bəşəriyyəti narahat edən iqlim dəyişmələrinə qarşı mübarizədə ölkəmiz digər dövlətlərlə birgə əməkdaşlıq çərçivəsində ağıllı həllər tapmağa çalışacaq, eyni zamanda, biz töhfə vermək istəyən qeyri-hökumət təşkilatları və beyin mərkəzləri ilə əməkdaşlığa açığıq".

Müraciətdə belə bir inam ifadə edilib ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri mitiqasiya və adaptasiya, maliyyələşmə, iqlim dəyişmələri və onun biomüxtəlifliyə, su və qida təhlükəsizliyinə olan təsirləri, ərzaq və kənd təsərrüfatı sektorunun hazırkı vəziyyəti, elm, texnologiya və innovasiyanın rolu kimi mövzular ətrafında müzakirələr aparmaqla, COP29-a hazırlıq mərhələsində iqlim fəaliyyəti gündəliyinin irəli aparılmasına və planetimiz üçün həyati vacib olan qərarların qəbul edilməsinə öz töhfəsini verəcək.

Oxuculara təqdim etdiyimiz bu səhifədə dünyada texnoloji inqilabın yeniliklərinə, ölkəmizdə maşın və ya proqram təminatını ehtiva edən süni intellektin inkişafı meyilləri, robototexnikanın uzunmüddətli hədəfləri barədə materiallar əksini tapıb.



# Azərbaycanın ilk kosmonavtı

**Bu ayın əvvəlində dünyanı dolaşan bir xəbər bizim ölkəmizdə daha geniş əks-səda doğurdu: məhz Azərbaycan kökənli Türkiyə astronavtı Tuva Cihangir Atasevər kosmosa uçub və tarixi missiyasını uğurla başa vurub.**

Xatırladaq ki, iyunun 8-də ABŞ-nin "Spaceport" (Nyu-Meksiko ştatı) kosmodromundan başlanan "Qalaktika 07 kosmos uçuşu" 1 saat 20 dəqiqə davam edib. Suborbital uçuşdan təxminən 40 dəqiqə sonra astronavtların olduğu kosmik kapsul daşıyıcı raketdən ayrılıb. 15 dəqiqə ərzində 90 kilometr hündürlükdə 13 müxtəlif elmi təcrübə həyata keçirilib. Daha sonra əvvəl kosmik kapsul, ardınca daşıyıcı raket Yerə uğurlu eniş edib. Suborbital araşdırma missiyası zamanı Tuva Cihangir Atasever, üzərində Azərbaycan və Türkiyə bayraqları işlənmiş forma geyinib. Astronavt uçuş missiyasını Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "TEKNOFEST" festivalı çərçivəsində ona təqdim etdiyi Türkiyə və Azərbaycan bayraqları ilə həyata keçirib.

Məlum olduğu kimi, Türkiyə Cümhuriyyətinin 100 illiyində Türkiyə Kosmik Agentliyi və TUBİTAK-ın seçimi əsasında 2 astronavt kosmosa uçuş hüququ qazanıb. Prezident Rəcəb Tayyib Ərdoğan ötən ilin aprel ayında İstanbulda keçirilən "TEKNOFEST"də Türkiyənin ilk astronavtlarının Alper Gezeravcı və Tuva Cihangir Atasever olacağını elan edib. Onlar 36 min namizədin arasından seçilib. Hər iki astronavt bir ildən çox NASA-da ciddi təlim proqramında iştirak ediblər.

Tuva Atasevər 12 avqust 1992-ci ildə Ankarada doğulub. Bilkənd Universitetinin elektrik və elektronik mühəndislik fakültəsini bitirib. Məzun olduqdan sonra Kaliforniyada magistr təhsili alıb və ardınca Türkiyənin ROKETSAN şirkətində 5 il sevdiyi sahədə çalışıb.

Kosmosa uğurlu uçuşdan Yerə qayıdınca Tuva özəl təəssüratlarını bölüşüb, ilk növbədə ailə üzvlərinin onunla qürur duyduqlarını söyləyib, həmçinin Bakıda yaşayan qohumlarını yada salıb. "Yanvar ayında Alper Gezeravcı beynəlxalq heyətlə kosmosa uçdu. İyunda isə növbə mənə çatdı. Çox həyəcanlı olsam da, ən özəl məqamlardan biri pəncərədən baxanda gördüyüm atmosferin maviliyi idi. Belə anları həm Türkiyəyə, həm də Azərbaycana bəxş etmək, hər iki bayraq qolumda və sinəmdə kosmosa uçmaq – təbii ki, bu təcrübənin mənim üçün xüsusi mənası var idi. Bunu bacardığım üçün çox şadam. Azərbaycan mənim ana vətənimdir, ürəyimdə xüsusi yer tutur. Anam orada doğulub. Dəfələrlə səfər etdiyim Bakı ilə bağlı unudulmaz uşaqlıq xatirələrim var.

Sonra Tuva deyib: "Məşhur bir deyim var: "Bir millət, iki dövlət". Bizim iki bayrağımız var, amma bir millətik. Beləliklə, həm sevincli, həm də kədərli gündə ölkələrimiz yer üzündə yan-yana olduğu kimi, kosmosda bu iki ölkənin bayraqlarının sinəmdə yan-yana olması zərurətini hiss etdim. Bu iki bayrağı kosmosa aparmaq, ən azı 3 dəqiqəlik mikroqravitasiya və çəkisizliyi hiss etmək imkanı məni son dərəcə qürurlandırdı. Mən həqiqətən ümid edirəm ki, Türkiyə və Azərbaycan kosmik texnologiya sahəsində irəliləyişlər edəcək və bizə bu sahədə əldə edilən əlavə imkanlar sayəsində insanların həyat səviyyəsini yaxşılaşdıra biləcəyimiz bir gələcək göstərəcək".

Üzərinə götürdüyü vəzifəyə görə çox xoşbəxt olduğunu dilə gətirən soydaşımız sonda bildirib ki, əldə etdiyi təcrübəni gənclərimizlə bölüşmək və onların daha iddialı addımlar atmalarını təmin etmək üçün səbirsizlənir.

Gənc astronavt "Vətənə qayıtdıqdan sonra Türkiyə bayrağını cənab Rəcəb Tayyib Ərdoğana, Azərbaycan bayrağını isə cənab İlham Əliyevə təhvil verməyi planlaşdırıram", – deyə əlavə edib.

# Süni intellektin "qocalma diaqnozu"

**İnsanların üzlərinin hərarətini ölçməklə onların sağlamlıq vəziyyətini və qocalma dərəcəsini müəyyən etmək üçün üsul hazırlanıb. "The İndependent" nəşri yazıb ki, süni intellektə əsaslanan texnologiyanın müxtəlif xəstəliklərin erkən diaqnozunu təxmin edəcəyi gözlənilir.**



Alimlər üzün müxtəlif hissələrində temperaturun dəyişməsi ilə xəstəliklər arasında əlaqəni aşkar etmək üçün araşdırma aparıblar. Onlar təxminən, 2800 çinli iştirakçının üzlərinin termal fotoşəkillərini çəkib və bu şəkillərdə 54 nöqtəni müəyyən ediblər. Tədqiqatçılar yaşları 21-88 arasında dəyişən iştirakçıların normal fotoşəkillərində 486 bal qeyd edərək, üzləri arasında daha yaxşı müqayisə aparıblar. Bu termal məlumatlarla öyrədilmiş süni intellekt modeli daha sonra müxtəlif bölgələrdəki temperaturları nəzərdən keçirərək iştirakçıların bioloji yaşlarında təxmin edib.

"Hüceyrə Metabolizmi" jurnalında dərc edilən araşdırma insanın yaşlandıqca burun və yanaqlarının daha da soyuduğunu müəyyənləşdirib. "ThermoFace" adlanan üsul, metabolik xəstəliklərdən əziyyət çəkən insanların göz bölgəsinin daha isti olduğunu və daha sürətli termal yaşlanma göstərdiyini ortaya qoyub. Həmçinin müəyyən edilib ki, yüksək təzyiq yanaqların qızarması ilə özünü göstərir. İştirakçıların qan nümunələrini təhlil edən alimlər göz və yanaq ətrafında temperaturun artmasının daha çox iltihabla əlaqəli olduğunu müşahidə ediblər.

Araşdırmaya rəhbərlik edən Jing-Dong Jackie Han bildirib ki, termal saat metabolik xəstəliklərlə çox güclü şəkildə əlaqələndirilir və əvvəlki üz görüntüləmə modelləri bu xəstəlikləri proqnozlaşdıra bilməyib. O qeyd edib ki, "ThermoFace" müxtəlif testlərə və qan nümunələrinə ehtiyac olmadan, sadəcə olaraq, üz temperaturunu ölçməklə xəstəliklərə diaqnoz qoya bilər: "Yaşlanma təbii bir prosesdir. Bununla belə, bizim alətimiz sağlam qocalmanı dəstəkləmək və insanların xəstəliksiz yaşamasına töhfə vermək potensialına malikdir".

Alimlər gələcək tədqiqatlarında "ThermoFace" ilə yuxu pozğunluqlarını və ürək xəstəliklərini aşkarlamağa çalışacaqlar. Metod hələ başlanğıc mərhələsindədir, lakin tədqiqatçılar erkən diaqnoz qoya bilən bu tətbiqin bir gün xəstəxanalarda istifadə ediləcəyinə ümidvardırlar.

**Yeni kvant kompüteri əvvəlki rekordu 100 dəfə üstələyən performansı ilə diqqət çəkib. Belə ki, "Quantinuum" firmasının kompüter mühəndisləri və alimləri yeni 56 kubitlik H2-1 kompüterindən istifadə edərək cihazı müxtəlif səviyyələrdə və fərqli qubitlərlə çalışdırıblar.**

# Kvant kompüterlərinin yeni rekordu



Təcrübədə kvant kompüterlərini nə qədər səhvə meyilli olmasını və ya nəticələrin nə dərəcədə qeyri-müəyyən olmasını göstərən standart alqoritmlə sınaqdan keçiriblər. Nəticədə, kvant kompüterlərinin qubitlər sayəsində daha çox əməliyyat yerinə yetirməklə yanaşı, paralel emal həyata keçirə bilməsi məlum olub.

Məlumat üçün qeyd edək ki, kvant kompüterlərinin adi kompüterləri üstələdiyi nöqtə "kvant üstünlüyü" adlanır. Bu hesablama qabiliyyətinə nail olmaq üçün 1 milyon kubitlik bir maşın tələb olunur. Bu gün ən güclü maşın, təxminən, 1000 kubit hesablama gücünə malikdir. Bunun səbəbi onların səhvə meyilli olması və emal gücünün çoxunun səhvlərin düzəldilməsi üçün istifadə edilməsidir.

# "100 min dollar"lıq təqaüd

**Bakı Ali Neft Məktəbinin (BANM) informasiya təhlükəsizliyi ixtisasının V kurs tələbəsi Eşqin Həsənov ABŞ-nin Mərkəzi Florida Universitetinin doktoranturasına qəbul olub.**



Bu barədə ötən ay "Azərbaycan Universitetləri" səhifəsi sosial şəbəkədə paylaşım edib. Bildirilib ki, o, universitetin xüsusi nailiyyəti olan tələbələr üçün nəzərdə tutulan "ORCGS doctoral fellowship" proqramına seçilib və ildə 100 min dollar təqaüd qazanacaq.

Qeyd edək ki, E.Həsənov 2019-cu ildə universitetə 675 balla daxil olub, Prezident təqaüdünə layiq görülüb. Təhsil aldığı müddətdə akademik göstəriciləri yüksək olub, həmçinin müxtəlif elmi məqalələr hazırlayıb.

BANM tələbəsi Azərbaycanda ilk dəfə ən son texnoloji yeniliklərdən sayılan "GraalVM" kömeyi ilə "Java" proqramlaşdırma dilinin daxilində "Python" proqramlaşdırma dili kodunu istifadə edib. Bu tətbiq dünya miqyasında da, sadəcə, bir neçə layihədə mövcuddur.

# Bizim qızın sorağı "Forbes"dən gəlir

**İsveçrənin Federal Texnologiya Universitetinin magistri Günay İmanzadə minlərlə şəxsin arasından seçilərək dünyaca məşhur biznes jurnalının 30 yaşa qədər uğur qazanan 30 nəfərin siyahısına düşüb.**



O, 2017-ci ildə Bakı Dövlət Universiteti, Sabah qrupları, kimya (ingilis bölməsi) bakalavr pilləsini bitirib.

2022-ci ildə, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin təsis etdiyi "İlin İKT sahibkarı" nominasiyasının qalibi olub. "Enthouse" layihəsinin həmmüəllifidir. Teknofest Türkiyə yarışması zamanı layihəsi maraqla qarşılanıb və bir çox sürətləndirmə proqramı ilə Türkiyə bazarına çıxış təklifi alıb. Teknofest Azərbaycan yarışmasında C kateqoriyası üzrə 1-ci yeri tutub və hər iki ölkə başçısı İlham Əliyev, Rəcəb Tayyib Ərdoğan və Nobel laureatçısı Əziz Səncər tərəfindən medal və pul mükafatı ilə şəxsən təltif olunub.

Günay İmanzadə Metatesk startapının təsisçisidir. Startap "ABB Startup Hackathon"un qalibi, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin təsis etdiyi "İlin kəşfi" nominasiyasının finalçısı, "Microsoft for Startups" proqramının üzvü, "Google for Startups" akselerasiya proqramının iştirakçısıdır. Roblox şirkəti ilə təhsil sahəsində əməkdaşlıq edir. 2018-ci ildə İsveçrənin Federal Texnologiya Universitetində çalışıb. Çində beynəlxalq məktəbdə elm istiqaməti üzrə tədris aparıb. "Enthouse" layihəsi balıq və bitkilərin eyni anda hava, su və torpaqdan asılı olmayaraq istehsalına şərait yaratmaqdan əlavə onlar haqqında bütün məlumatların ağıllı idarə olunmasına və ən əsası təhlükəsizliyinə zəmanət verir. Metatesk startapı tədris və öyrənmə prosesini növbəti pilləyə qaldıraraq virtual reallıq (VR) texnologiyasının köməyi ilə metadünyalarda təhsil istiqaməti ilə bağlıdır.



# Şagirdin "ağıllı əsa"sı

***Qubada Vətən müharibəsi Qəhrəmanı Mehrab Niftəliyevin adını daşıyan Texniki Təmayüllü Liseyin X sinif şagirdi Zamiq Şükürov görmə əngəlli insanlar üçün süni intellektlə işləyə bilən əsa hazırlayıb. Onun hazırladığı "ağıllı əsa" günəş enerjisi ilə işləyir və görmə əngəlli insanın manevsiz hərəkətini tam təmin edir.***

Bizimlə söhbətində məktəbli qeyd etdi ki, onun hazırladığı proqramlı alət əlillər üçün musiqi səsləndi və onları dünyada baş verən yeniliklərdən xəbərdar edə bilir:

– Uşaqlıqdan kompüterlə məşğul oluram. Daha sonra qərara gəldim ki, belə bir cihaz hazırlayım. Cihazın əsas funksiyası qarşıda manea varsa, görmə əngəlli insana kömək etməkdir. Maneənin hansı tərəfində yol varsa, həmin tərəfdən motor səsi gəlir. Uzunluğu 2 metr olan əsanın virtual assistantı var. O, görmə əngəlli insan üçün kitab oxuyur, xəbərləri səsləndirir, hava durumu haqqında məlumat verir. Cihazın park modu həzin mahnıları işə salır, ağıllı şəxsin əyləşməsi üçün oturacaq tapır – işləmə prinsipi belədir.

Qeyd edək ki, Zamiq Şükürov Bakıda keçirilən Robotex Azərbaycan Avrasiya çempionatında və Texno-Qafqaz festivalında proqramlaşdırma üzrə 1-ci yeri tutub.

# İnsanabənzər robot maşın da sürəcək

**Avtonom nəqliyyat vasitələri ilə bağlı araşdırmalar davam edərkən, tədqiqatçılar iki trend mövzunu bir araya gətiriblər. Belə ki, Tokio Universitetində avtomobili avtonom şəkildə idarə edə bilən insanabənzər robot hazırlanıb.**



Toyota üçün məsləhətçi kimi çalışan tədqiqatçılardan biri, Musashi adlandırılan "əzələ-skelet humanoidi"nə kiçik elektrikli avtomobili idarə etməyi öyrədərək inkişaf etdirib və təlim keçirib. Bu ad əslində Yaponiya tarixinin ən istedadlı qılınc ustalarından biri olan Miyamoto Musashi-dən gəlir. İnsanabənzər robot Musashi, maşını işə sala, əl əyləcini çəkə və əlləri ilə siqnal verə bilir. O, həmçinin qaz və ya əyləc pedallarını da basa bilir.

Tədqiqatçılar iddia edirlər ki, Musashi-nin xam sensor məlumatlarını daha da inkişaf etdirərək avtomobili idarə etməyi öyrətdikdən sonra robotun işıqforun siqnallarına tabe olaraq kəsişmədə döngəni döndərməsinə nail olublar. Lakin robotun hazır hala gəlməsi üçün hələ çox uzun bir yol var. Çünki robotun bu manevri tamamlaması təxminən 2 dəqiqə davam edib. Tədqiqatçılar əldə edilən məlumatlardan istifadə edərək gələcəkdə humanoidlərin avtomobilləri avtonom şəkildə idarə edə bilməsi üçün növbəti aparat və proqram təminatını hazırlamaq istəyirlər.

Avtonom nəqliyyat vasitələri və insanabənzər robotlar arasında belə bir tərazlığın və yanaşmanın yaradılması açıq şəkildə vacibdir. İnsanabənzər robotlar və tam avtonom nəqliyyat vasitələri ayrı-ayrılıqda inkişaf etsə də, əslində bir-biri ilə sıx əlaqəli ola bilər. Çünki dünyada avtonom idarəetmə sisteminə sahib avtomobillər çox deyil və bu gələcəkdə də belə olacaq. İnsanabənzər robotlar sayəsində mahiyyət etibarilə bütün bu nəqliyyat vasitələri avtonom hala gətirilə və yeni nəsil trafik sistemlərinə sürətli keçid edilə bilər.

***Səhifəni hazırladılar:***
***Əli ƏLİYEV,***
***Rizvan FİKRƏTOĞLU***
***XQ***

# Əbədiyaşar sözün, milli ruhun məbədgahı

## Azərbaycan Yazıçılar Birliyinin 90 ili tamam olur



*Azərbaycan xalqı şeirə, sənətə böyük qiymət verərək, cəmiyyət və gələcək nəsillər qarşısında dərin mənəvi məsuliyyət hissi ilə yazıb yaradan qələm sahiblərinə daim ehtiram bəsləmişdir. Onlar çoxəsrlik söz xəzinəmizin zənginləşməsi, mədəni dəyərlərimizin saflığının qorunması və ictimai fikrin milli özünüdərk zəmnində formalaşması işinə misilsiz töhfələr bəxş etmişlər. Ədəbiyyatımızı milliliklə bəşəriliyin ahəngdar vəhdətində humanist xarakterli ideya-fəlsəfi axtarışları ilə dünya ədəbi irsinin tərkib hissəsinə çevirmiş görkəmli söz ustalarının xatirəsi ölkəmizdə əziz tutulur. Xalqımızın qəlbində azadlıq duyğularının güclənməsi, insanlarımızın ruhuna mübarizə əzminin aşılanması və müstəqilliyimizin mənəvi zəmninin möhkəmlənməsi yolunda şair və yazıçılarımız xüsusi fədakarlıq göstərmişlər.*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti (Azərbaycan Yazıçılar Birliyinin (AYB) XIII Qurultayı ilə əlaqədar iştirakçılara təbrik məktubundan)***

**Bu gün Beynəlxalq Muğam Mərkəzində “AYB – 90” yubiley silsiləsindən ədəbi-bədii gecə keçiriləcək. Gecədə Azərbaycanın görkəmli şair və yazıçıları, eyni zamanda müxtəlif ölkələrdən gəlmiş tanınmış qələm adamları iştirak edəcəklər. Yaradıcılıq təşkilatının keçdiyi yola nəzər salınacaq, Vətənin taleyi ilə paralel milli məfkurənin formalaşmasında xidmətləri olan söz azmanları xatırlanmaqla, çağdaş ədəbiyyatın uğurlarına nəzər salınacaq və qarşıda duran vəzifələr müəyyənləşdiriləcək.**

Ulu öndər Heydər Əliyev 1995-ci ildə Xalq şairi Məmməd Arazın “Azərbaycan – dünyam mənim” adlı yaradıcılıq gecəsindəki çıxışında söz sənətini yüksək dəyərləndirmişdir: “İnsanlara şeir, ədəbiyyat, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur... Məhz bunların nəticəsində biz də milli psixologiya, milli ideologiya formalaşmağa başlayıbdır...”

Əziz oxucu! Bu səhifədə hər zaman ulu söz sənətinə sadiq qalan, Azərbaycan dilinin saflığını qoruyan və onu zənginləşdirən yubilyar yaradıcılıq qurumu haqqında tanınmış qələm sahiblərimizin duyğu və düşüncələrini, AYB-yə arzu və istəklərini sizə təqdim edirik.

### Əbədi evimiz

**Nəriman HƏSƏNZADƏ, Xaiq şairi, AYB Ağsaqqallar Şurasının sədri:**



– İlk dəfə 1953-cü ildə pillələrini böyük həyəcan və ümidlə qalxdığım Azərbaycan Yazıçılar Birliyinin artıq 90 yaşı tamam olur. O zaman Kirovabad Dövlət Pedaqoji İnstitutunun (indiki Gəncə Dövlət Universitetinin) filologiya fakültəsini yenicə bitirmişdim. Zaman necə də sürətlə axır! Ötən onilliklərdə Yazıçılar Birliyi böyük uğurlar qazanıb, tarixi hadisələrə şahidlik edib, mürəkkəb dövrlərdə öz mövqeyini qoruyub saxlayıb, eyni zamanda çətinliklərlə üzləşib. Bu başdan qeyd edim ki, Yazıçılar Birliyinin mənim həyatımda böyük rolu olub. 1954-cü ildə Səməd Vurğunun yazılı zəmanəti ilə Azərbaycan Yazıçılar Birliyinə üzv olmuşam və bununla qürur duyuram.

O vaxtlar bu təşkilat Azərbaycan Sovet Yazıçıları İttifaqı adlanırdı. İlk dəfə Yazıçılar Birliyinə gəlməyim indiki kimi yadımdadır. Mirzə İbrahimov Natəvan klubunda gənclərlə görüş keçirirdi. Mən də o tədbirdə iştirak etdim və şairlərin qarşısında öz şeirlərimi oxudum. Çıxışım çox bəyənildi. Bundan sonra Böyükağa Qasımzadə “Azərbaycan” jurnalında mənim bir silsilə şeirimi çap elədi və bununla da yaradıcılığımda yaşıl işıq yandı.

Bunu da qeyd edim ki, Natəvan klubunun özü də bir tarixi məkandır. Burada ən görkəmli şəxsiyyətlər, Azərbaycan ədəbiyyatında iz qoymuş yazıçılar, şairlər çıxış ediblər. Sonralar mən Yazıçılar İttifaqının göndərişi ilə Moskvada Qorki adına Ədəbiyyat İnstitutuna göndərildim. “Azərbaycan” jurnalında işə düzəldim, ittifaqın partiya komitəsinin sədri oldum, “Ədəbiyyat və incəsənət” qəzetində baş redaktor vəzifəsinə yüksəldim. Mehdi Hüseyn, Mirzə İbrahimov, İmran Qasımov, İsmayıl Şıxlı kimi söz ustalarının rəhbərliyi vaxtında orada çalışmışam. Onların qayğısını həmişə hiss etmişəm, yaxşılıqlarını görmüşəm.

Tam səmimi deyirəm, o vaxt sanki insanlar bir-birinə kömək etmək üçün yaşayırdılar. Buna öz həyatımdan nümunə gətirmək istəyirəm: Hələ gəncliyimdə məni çox uzağa – İrkutska əsgər aparmaq istəyirdilər, amma Səməd Vurğun zəng edib Bakıda saxlatdırıb. Mir Cəlal öz evini mənə verib, kitablarının tirajının azaldılması hesabına mənim kitabımı çap etdirib, həyatımın dəyişməsinə səbəb olub. Eləcə də Rəsul Rzanın, Nigar Rəfibəylinin qayğısını heç zaman unutmaram. Onlar mənim taleyimdə böyük rol oynayıblar.

*Birinci Qarabağ müharibəsində Azərbaycan yazıçı və şairləri təkcə qələmləri ilə savaşmadılar, onların övladları döyüşlərə atılıb canlarını Vətən uğrunda qurban verərək şəhid oldular. Atəşkəs illərində ədəbiyyat xadimlərimiz xalqımızın müvəqqəti məğlubiyyətdən məyusluğa qapılmasına imkan verməmək, yeni nəsillərə mübarizə ruhu aşılamaq üçün dəyərli əsərlər yazdılar. Onların yaratdıqları şeirlər, mahnı mətnləri, poemalar, hekayə, povest və romanlar şəhidlərimizin ruhuna dərin ehtiramın, xalqımızın bu haqq savaşında qalib gələcəyinə qəti inamın təsirli ifadəsinə çevrildi.*

İndi də təşkilatda Xalq yazıçısı Anarla birlikdə çalışıram, Ağsaqqallar Şurasının sədriyəm. Qeyd edim ki, Anar həm istedadına, həm də şəxsiyyətinə görə nadir insandır. Onunla işləmək, zənginləşmək, məsləhətləşmək çox xoşdur. Təbii ki, Yazıçılar Birliyinə rəhbərlik etmək çox çətindir. Amma Anar səbrlə, iradəylə bu işin öhdəsindən gəlir.

Yazıçılar Birliyinin 90 illik yubileyi münasibətilə birliyin bütün üzvlərini təbrik edirəm. Bircə kəlmə deyim ki, Yazıçılar Birliyi müqəddəs, pak yerdir, oranı qorumaq, saxlamaq lazımdır.

Eyni zamanda qarşıdan bünövrəsi çox qədim olan “Qobustan” jurnalının 55 illik yubileyi gəlir. “Qobustan”ın adı da, özü də tarixdir. Anarın təsis etdiyi və bir zamanlar baş redaktoru olduğu, 70-ci illərin ədəbi hadisəsi kimi qarşılanan bu jurnal oxucular arasında həmişə maraq doğurub, əl-əl gəzərək oxunub. Mən jurnalın yaradıcılarını, oxucularını təbrik edir, onlara uzun ömür və uğurlar arzulayıram.

### Vətənin söz həmrəyliyi

**Sabir RÜSTƏMXANLI, Xalq şairi:**



– Bu gün 90 illiyini qeyd etdiyimiz Yazıçılar Birliyi, əslində, mənəvi-ideoloji baxımdan daha böyük tarixi köklərə malikdir. Hələ orta əsrlərdə Azərbaycanda ədəbi məclislər mövcud olub, şeir gecələri keçirilib.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda milli və mədəni intibahın, maarifləndirici hərəkatın önündə də məhz yazıçılarımız gedirdi. Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Hüseyn Cavid, Əhməd Cavad, Cəfər Cabbarlı və digər qələm adamlarımızın ciddi mübarizələrinin nəticəsində dövrün neft şəhəri Bakı, eyni zamanda milli ruhlu ziyalılar nəslinin yetişdiyi ictimai-siyasi fikir mərkəzinə çevrildi. Unudulmaz yazıçı Seyid Hüseynin öz dostları ilə birgə yaratdığı “Yaşıl qələm”, sonra isə “Qırmızı qələm”, demək olar ki, gələcəkdə yaranacaq Azərbaycan Yazıçılar Birliyinin ilk bünövrəsi sayıla bilər.

Arxada qalan çətin və əzablı 90 ildə şərəfli bir yol keçmiş bir qurumun fəaliyyətində heç zaman dəyişməyən məqam bu illər ərzində xalqın mənəvi dünyasının zənginləşməsində, onun bədii-estetik zövqünün formalaşmasında, vətənpərvərlik tərbiyəsində, Azərbaycan ədəbiyyatının dünya miqyasında tanınmasında və təbliğ edilməsində misilsiz rol oynayıb. Azərbaycan ədəbiyyatının son 90 ildəki ən yaxşı nümunələri də məhz Azərbaycan Yazıçılar Birliyinin ədəbi orqanlarında dərc edilib, bu ədəbi orqanlar milli mənliyimizin və dilimizin keşiyində dayanıb, yeni ədəbi janrlar məhz həmin ədəbi orqanlarda oxuculara təqdim edilib. Zaman keçdikcə sistem tərəfindən rütbə almış ədəbi generallar unudulub, vulqar sosioloji doğmalar sistemlə birlikdə yox olub, ancaq o dövrdə yaradılmış sənət nümunələri bu gün də, yəni Sovet İttifaqı dağılandan sonra da müstəqil ölkəmizdə yaşayır, gələcəkdə də yaşayacaq. Yazıçılar Birliyinin ədəbi orqanlarında, Yazıçılar Birliyinin rəhbərliyi altında hətta ən qorxunc terror illərində belə Vətəni, konkret olaraq, Azərbaycanı, doğma torpağı, Azərbaycan dilini vəsf eləyən xeyli əsər çap olunub.

Bəli, Yazıçılar Birliyini sovet sistemi yaradıb, ancaq bu birlik heç vaxt sistem üçün doğma olmayıb və sistemi daima səksəkədə saxlayıb. 90-cı illərdə Yazıçılar İttifaqının başının üstündə qara buludlar dolaşırdı. Həmin illərdə “Yazıçılar İttifaqı qalsınmı, qalmasınmı?” kimi bir fikir formalaşdırıldı. Bu müqəddəs ocağın odunu söndürmək, külə çevirmək istəyənlər az deyildi. Hətta ədəbi orqanların nəşrinə də son qoymaq istəyirdilər. Nəticəsi nə olacaqdı, Allah bilir. Amma Yazıçılar Birliyi yaşadı, yenə öz tarixi missiyasını davam etdirdi və burada Xalq yazıçısı Anarın fədakarlığı ayrıca qeyd olunmalıdır. Başqa ölkələrdəki eyni qurumlardan fərqli olaraq, Yazıçılar Birliyi öz funksiyasını qoruyub saxlaya bildi.

Azərbaycan Yazıçılar Birliyi içində ədəbiyyat yanğısı olanların bir işıq ətrafında birləşməsinə xidmət edir. Hazırda Yazıçılar Birliyi respublikada ən fəal müstəqil ictimai təşkilatlardan biridir. Dövlət tərəfindən birliyin orqanı kimi nəşr edilən qəzet və jurnallara maliyyə yardımı göstərilir. İstər respublikada, istərsə də onun hüdudlarından kənarda Yazıçılar Birliyinin həyata keçirdiyi səmərəli işlər, bir sıra təşkilati tədbirlər Azərbaycan ədəbiyyatının inkişafında ciddi rol oynayır.

Mən də 21 yaşından, yəni tələbəlik illərindən Azərbaycan Yazıçılar İttifaqının həftəlik orqanı olan “Ədəbiyyat və incəsənət” qəzetində (indiki “Ədəbiyyat qəzeti”) işə başlamışam və o vaxtdan başlayaraq Yazıçılar Birliyinə öz ailəm, doğma ocağım kimi baxmışam.

Xalq yazıçısı Anar başda olmaqla doğma ocağım olan Azərbaycan Yazıçılar Birliyini yubiley münasibətilə təbrik edir, onun hər bir üzvünə yaradıcılıq uğurları arzulayıram.

### Sənət və məfkurə məktəbi

**Rəşad MƏCİD, Azərbaycan Yazıçılar Birliyinin sədr müavini:**



– Ədəbiyyatımızın ən yaxşı nümunələrini yaradan böyük sənətkarlar həm də Yazıçılar Birliyinin üzvləri olublar. Azərbaycan poeziyasının əsas dayaqlarından olan Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm, Azərbaycan nəsrinin görkəmli nümayəndələri Süleyman Rəhimov, Əli Vəliyev, Ənvər Məmmədxanlı və bu kimi başqa yazarların əsərlərində həm dilimizin saflığı, həm də tariximiz, milli adət-ənənələrimizlə bağlı bir çox məqamlar oxuculara, gələcəyə çatdırılıb.

Mən özüm hələ gənc yaşlarımdan ədəbiyyatı sevmişəm, oxuduğum bədii əsərlərlə formalaşmışam. 1979-cu ildə artıq Bakıya gəlmişdim, fizika-riyaziyyat təmayüllü məktəbdə oxuyurdum. Hərdən şeirlər yazırdım və tez-tez Yazıçılar Birliyinin yanına gəlirdim. Binaya uzaqdan, müqəddəs məbəd kimi baxırdım. İndiki kimi yadımdadır, orada çalışan insanları – Mirzə İbrahimov, İmran Qasımov, İsaq İbrahimov kimi məşhur yazıçıları uzaqdan seyr edirdim. Necə ki, rus yazıçısı Vasili Şukşin deyirdi, kənddən şəhərə gələndə sənət adamları mənim gözümdə ilahi bir varlıqdı, bir gün gözümü açdım ki, mən də bu adamların arasındayam. 2004-cü ildən, Yazıçılar Birliyində işləyəndən sonra mən artıq bu adamlarla birlikdə oldum və onların yüksək keyfiyyətlərini gördüm. Mənim gözümdə ilahi varlıq obrazını həmişə yaşadan bizim böyük yazıçımız Anar olub. Anar həm keçmişə, həm ədəbi dəyərlərə hörmət baxımından, həm də bu gün ədəbiyyatla yaşaması, istedadlara verdiyi dəyər, dostlara sədaqət və etibar baxımından mənim rastlaşdığım ən kamil insanlardan biridir. Bu illər ərzində ondan çox şey öyrənmişəm.

Bu gün çox böyük hörmətlə bir vaxtlar Yazıçılar Birliyində bir yerdə işlədiyim Fikrət Qocanı, Arif Əmrahoğlunu, Qabili, Gülhüseyn Hüseynoğlunu, iş otaqlarımız yanaşı olan Fikrət Sadığı xatırlayıram. Onların yazılarını tez-tez “525-ci qəzet”də verirdik. Bu insanlar yazdıqları gözəl bədii əsərlərlə yanaşı, həm də öz unikallığını, orijinallığını qoruyub saxlayan insanlar idi.

Qürur duyuram ki, Yazıçılar Birliyində əyləşdiyim iş otağımda vaxtilə tarixi “Azərbaycan” jurnalı yerləşirdi. Böyük yazıçı, şair, tənqidçilər: Əli Vəliyev, Əli Kərim, İsa Hüseynov, sonralar Yusif Səmədoğlu, İlyas Əfəndiyev, Nəbi Xəzri, Fikrət Qoca kimi söz ustadaları bu otaqda əyləşiblər. Bu qədim bina bütün ruhuyla Azərbaycanın böyük bir ədəbi tarixini özündə yaşadır. Bizim Natəvan klubunda uzun illərdən bəri tədbirlər keçirilir, orada böyük sənətkarlar çıxış edib. İlk dəfə Yazıçılar Birliyinə, Natəvan klubuna gələnlərə bu məkanın, bu birliyin müqəddəs bir yer olduğunu xatırlatmağı həmişə özümə borc bilirəm.

Bu il Azərbaycan Yazıçılar Birliyi 90 illik yubileyini qeyd edir və 90 illikdə artıq bizim yeni, daha gənc nəsil rəhbərlikdə təmsil olunur. Qeyd edim ki, bu gün Çingiz Abdullayev, İlqar Fəhmi, Elçin Hüseynbəyli, Səlim Babullaoğlu ilə birlikdə işləməkdən çox məmnunam. Bu istedadlı yazarların hərəsi bir formada Azərbaycan ədəbiyyatına, onun tanıdılmasına xidmət edir.

*İkinci Qarabağ savaşında – 44 günlük Vətən müharibəsində də Azərbaycan yazıçı və şairləri həm ön cəbhədə, həm də arxa cəbhədə, söz-təbliğat səngərində mühüm fəallıq və fədakarlıq göstərdilər. 8 Noyabr zəfərimizin ölçüyəgəlməz sevinci Azərbaycan Yazıçılar Birliyinin nəşr etdirdiyi kitablarda, antologiyalarda, yazıçı və şairlərimizin uğurla həyata keçirdikləri ədəbi tədbirlərdə, yaradıcılıq layihələrində parlaq təzahürünü tapdı. Şübhəsiz ki, qarşıdakı illərdə bu mövzu Azərbaycan ədiblərinin yaradıcılığında özünün yeni bədii təsvir və tərənnüm nümunələrini tapacaqdır.*

### Estafet gənclərdədir

**PƏRVİN, “Qobustan” dərgisinin baş redaktoru:**



– Az qala bir əsrlik tarixi olan Azərbaycan Yazıçılar Birliyi nəsil-nəsil oxucuların, gənclərin yetişməsində müstəsna xidmətə malikdir. Bütün fərqli zamanlarda gənc qələm sahiblərinin üzünə açılan qapılar ədəbiyyatımızın daim yenilənməsinə, yeni cərəyan və təmayüllərin yaranmasına səbəb olub.

Azərbaycan Yazıçılar Birliyi nəzdində fəaliyyət göstərən Gənclər Şurası və Gənc Ədiblər Məktəbinin gənc istedadların aşkara çıxarılmasında rolu böyükdür. 2009-cu ildən qatıldığım Gənc Ədiblər Məktəbi tədbirlərində, ustad dərslərində bu gün ədəbi mühitdə söz sahibi olan bir çox yeni istedadların yetişməsinin şahidi oluruq. Bu mənada Birliyin mətbu orqanlarının – dərgilərinin və Rəşad Məcidin redaktorluğu ilə çıxan “525-ci qəzet”in rolu danılmazdır. Çağdaş zamanda elə həmin gənclər Yazıçılar Birliyinin İdarə Heyətində, Gənclər Şurasında, redaksiya heyətləri və dərgilərində təmsil olunur, mətbu orqanlarında əsərləri ardıcıl çap edilir. Bu gün 55 yaşlı “Qobustan” dərgisinin baş redaktoru kimi həm jurnalın, həm də birliyin tarixinə nəzər salanda bütün bu inkişafın Vətənin taleyi ilə yanaşı getdiyini anlayıram.

Azərbaycanın yaşadığı olaylar yarandığı gündən indiyə kimi birliyin də, dərginin də fəaliyyətində öz əksini tapıb. Bu mənada yeni nəsillərin bu tarixdən öyrənə biləcəyi mətləblər çoxdur. Ona görə də bu gün ustad Anarın sədrliyi ilə fəaliyyət göstərən nüfuzlu birlik hər zaman var olmalı, gələcək nəsillərin inkişafında xidmətlərini davam etdirməlidir.

***Səhifəni hazırladı:***
***Əli NƏCƏFXANLI***
***XQ***

BEYNƏLXALQ HƏYAT

# Yaponiyanın “Ağ kitab”ında “qara” təhlükələr

**Yaponiya hökuməti cümə günü ölkənin üzləşdiyi təhdidlərə və onlara qarşı necə mübarizə aparacağına dair “Ağ kitab” adlandırılan illik müdafiə hesabatını dərc edib. Yeni hesabatda Çin, Rusiya və KXDR regional təhlükəsizliyə əsas çağırışlar kimi göstərilib. Sənəd xüsusilə Tokionun Moskvanın Pekin və Pxenyanla artan hərbi əlaqələrindən narahatlığını əks etdirir və həmçinin etiraf olunur ki, sanksiyalara baxmayaraq, Rusiya Ukraynada uzun müddət döyüşmək iqtidarındadır. Tokionun buna cavabı, “Ağ kitaba” görə, ölkənin müdafiə qabiliyyətini artırmağa davam etməli və müttəfiqlərlə, o cümlədən NATO ilə əməkdaşlığı gücləndirməlidir. Rusiya isə Yaponiyanın hazırkı kursunu düşmənçilik adlandırır və bəyan edir ki, bu vəziyyətdə “ikitərəfli siyasi dialoqun və praktiki qarşılıqlı fəaliyyətin bərpası” mümkün deyil.**




“Beynəlxalq ictimaiyyət müharibədən sonrakı ən çətin dövrə qədəm qoyub. Mövcud nizam ciddi təhdid ilə üz-üzədir və biz yeni böhran dövrünə qədəm qoyduğumuzu anlayırıq”, - Yaponiyanın müdafiə naziri Minoru Kihara illik hesabatın ön sözündə belə yazıb. Əsasən, “Ağ kitab”a görə, Yaponiya üçün bu çağırışı onun üç qonşusu - Çin, Rusiya və Şimali Koreya yaradır. İyulun 12-də hökumətə təqdim olunan sənəddə onların əməlləri çox sərt qiymət alıb. Beləliklə, “Ağ kitab”ın müəllifləri Avropa və Asiyada təhlükəsizliyin bölünməzliyi ilə bağlı Yaponiya isteblişmenti arasında populyarlıq qazanan tezisini təkrarlayaraq, Şərqi Asiyada Ukraynada baş verənlərə bənzər “ciddi vəziyyətin” yarana biləcəyinə eyham vururlar. Buna səbəb “Çinin aqressiv davranışı”, xüsusən də Tayvan yaxınlığında “Pekinin adanı işğal etmək strategiyasının bir hissəsini nümayiş etdirən” silsilə hərbi təlimlərdir. Sənəddə qeyd olunur ki, “Çin tərəfinin bu cür artan hərbi fəaliyyəti ilə bağlı Çin və Tayvan arasında hərbi gərginliyin artması ehtimalı inkar edilə bilməz”.

Yaponiya üçün narahatlıq mənbəyi Pekin və Moskva arasında daha sıx əlaqələr göstərilir. Tokio özünə qarşı təhlükələri bu iki ölkənin Yaponiya ətrafında artan birgə hərbi manevrlərində görür. “Ağ kitab”ın məzmununa əsasən, Rusiya təkcə Çinlə birlikdə deyil, həm də ayrılıqda Tokio üçün “böyük narahatlıq” doğurur. Məsələn, “Uzaq Şərqdəki rus ordusunun ən son silahlarla təchiz edilməsi” və “Rusiyanın Hind-Sakit okean regionunda hərbi hərəkətləri” yaponları narahat edir.

Təbii ki, illik icmal Ukraynada davam edən münaqişəni də nəzərdən qaçırmayıb. Hesabatda vurğulanır ki, Qərbin sanksiyaları Rusiyanın hərbi-sənaye kompleksini sıradan çıxara bilmədi, ona görə də Moskva uzun müddət hərbi əməliyyatlar apara bilir. Hesabatda vurğulanır ki, 2023-cü ildə Rusiya tərəfi hərbi sənayenin istehsal gücünü 4 dəfə artırıb, hər bir silah növünün təmiri və istehsalı sürətini artırıb və buna görə də Avropa ölkələri və ABŞ-dən yardımların genişləndirilməsi Ukrayna üçün daha da vacib olub. Bundan sonra hesabatda qeyd olunur ki, “Rusiyanın təcavüzü ilə razılaşılarsa, bu, güc yolu ilə status-kvonun birtərəfli dəyişməsinin digər regionlarda, o cümlədən Asiyada məqbul olduğu barədə yanlış təsəvvür yarada bilər”.

Yaponiyanı addımları ilə narahat edən digər ölkə Şimali Koreyadır. Tokio əbəs yerə narahatlıq keçirmir. Pxenyan bir neçə dəfə Yapon arxipelaqındakı adaları dənizə batırmaqla hədələyib. Hesabatda yazılır ki, Şimali Koreyanın son bir ildə hərbi güclənməsi raket platformalarının şaxələndirilməsi kəşfiyyat və müşahidə sahəsində təkmilləşdirmələr də daxil olmaqla təkmil nüvə və raket imkanları ilə əlamətdar olub və indi Şimali Koreyanın hərbi fəaliyyəti Yaponiyanın təhlükəsizliyinə əvvəlkindən daha ciddi təhlükə yaradır. Yaponiya Pxenyanla Moskva arasında hərbi əlaqələrin dərinləşməsindən narahat olduqlarını da bildirir.

“Ağ kitab”da təhlükələrə qarşı hansı addımların atılacağı da qeyd olunur. “The Japan Times” qəzetinin məlumatına görə, sənəddə ilk dəfə olaraq müdafiə potensialı və xərclərə həsr olunmuş ayrıca fəsil yer alıb. Hələ 2022-ci ildə Yaponiyanın Baş naziri Fumio Kişida müdafiə xərclərini 2027-ci ilədək milli ÜDM-in 2 faizinə qədər artıracağını vəd etmiş, 43,5 trilyon ien (273 milyard dollar) dəyərində beşillik plan hazırlamışdı. Üstəlik, hazırkı sənədə görə, bu məbləğin 42 faizi artıq istifadə olunub. Vəsaitin böyük hissəsi yeni “Aegis” ilə təchiz olunmuş döyüş gəmilərinin tikintisinə, obyektlərin və bazaların gücləndirilməsinə və təkmilləşdirilmiş raketlərlə (həm yerli, həm də Amerika “Tomaqavk”ları) “əks-hücum imkanlarının” artırılmasına yönəldilib. Eyni zamanda, cari maliyyə ilində (2025-ci ilin mart ayına qədər) Tokionun müdafiə xərcləri 8,9 trilyon ien (57 milyard dollar) və ya ÜDM-in 1,6 faizini təşkil edəcək.

Yaponiya hərbi potensialını inkişaf etdirir və ənənəvi müttəfiqi ABŞ ilə, digər həmfikir ölkələrlə (ilk növbədə, Cənubi Koreya), həmçinin Şimali Atlantika Alyansı ilə təhlükəsizlik sahəsində əməkdaşlığı davam etdirməyi son dərəcə vacib hesab edir. “Ağ kitab”da vurğulanır ki, NATO, qlobal təhlükəsizlik məsələlərində əsas dəyərləri və məsuliyyəti bölüşən Yaponiyanın tərəfdaşıdır. Maraqlıdır ki, hazırkı “Ağ kitab” Fumio Kişidanın ardıcıl üçüncü dəfə iştirak etdiyi NATO-nun yubiley sammiti ilə, demək olar ki, eyni vaxtda dərc edilib. Eyni zamanda, Vaşinqtonda keçirilən görüşdən dünya nizamına əsas çağırışlar haqqında çıxarılan nəticələrlə hazırda Tokioda sadalananlar üst-üstə düşür. Belə ki, NATO sammitinin yekun bəyannaməsində Rusiya blokun təhlükəsizliyinə “ən mühüm və birbaşa təhdid”, Çin isə “Ukraynaya qarşı müharibəyə töhfə verən əsas amil” adlandırılıb.

Rusiya isə Tokionun tutduğu mövqeni tənqid edir. Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko qeyd edib ki, Yaponiya NATO ilə əməkdaşlığı artırmaq üçün əməli addımlar atacağı təqdirdə Moskva hərbi-texniki sahədə də daxil olmaqla tədbirlər görəcək. Rusiya tərəfi bildirir ki, “ikitərəfli siyasi dialoqun və praktiki qarşılıqlı fəaliyyətin bərpasına yol yalnız Yaponiyanın Rusiyaya qarşı düşmənçilik kursuna yenidən baxması ilə açıla bilər”.

***S.ELAY***
***XQ***

# Azərbaycan güləşi Parisə inamla gedir

## Rafiq Hüseynovun hədəfi Olimpiya “bürünc”ünü “qızıl”a çevirməkdir

**Azərbaycanın Paris Olimpiadasına lisenziya qazanmış ən titullu güləşçilərindən biri də Rafiq Hüseynovdur. 2 qat Dünya, 3 qat Avropa çempionu Tokio Olimpiadasında bürünc medal qazanıb. Növbəti hədəf “bürünc”ü “qızıl”a çevirməkdir.**



Rafiq Hüseynov məşqlərə erkən yaşlarından atası, SSRİ idman ustası, Əməkdar məşqçi Radik Hüseynovun yanında başlayıb.

**Radik Hüseynov Rafiqin idmanda ilk addımlarını belə xatırlayır:**

– O zaman Daşkənddə Polis Akademiyasında təhsil alırdım. Özümüz İrəvan şəhərindənik. 1988-ci ildə İrəvanda məlum hadisələrdən, kütləvi mitinqlərdən və vəhşiliklərdən sonra orada yaşamaq mümkün olmadı. Rafiq Daşkənddə doğulub. 1 il sonra – 1989-cu ildə Azərbaycana gəlmişik. Rafiqin uşaqlıqdan güləşə hədsiz həvəsi olub. Onu və qardaşlarını o vaxt çalışdığım Daxili İşlər Nazirliyinin “Dinamo” cəmiyyətinə gətirdim və məşqlərə başladıq. Yeniyetmə və gənc yaşlarında idmanda böyük nailiyyətləri ilə yanaşı, dərslərində də uğurları ilə fərqlənirdi.

İlk uğurlar özünü çox gözlətməyib. 2004-cü ildə Bolqarıstanda yeniyetmələr arasında Avropa çempionatının bürünc, 1 il sonra Albaniyadakı qitə çempionatının gümüş, daha sonra, 2007-ci ildə gənclər arasında Avropa çempionatının gümüş mükafatını qazanıb. Qitə çempionatında ilk qızıl medalı isə gənclər arasında 2008-ci ildə keçirilən yarışda əldə edib. Həmin il gənclər arasında dünya çempionatında isə 3-cü yeri tutub. Onu da qeyd edək ki, Rafiq Hüseynov özü də müsahibələrində dərslərini yaxşı oxuduğunu, texniki fənlərə maraq göstərdiyini və Azərbaycan Dövlət İqtisad Universitetinə yüksək balla daxil olduğunu vurğulayıb. O, eyni zamanda, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında təhsil alıb.

**Şəxsi məşqçisi güləşçinin uğurlarının əsas səbəbindən danışanda dözümlülüyünü xüsusi vurğuladı:**

– Rafiq çox ağır zədələr alıb. Düşünüblər ki, yəqin idmanı atacaq. Amma oğlum xarakter nümayiş etdirib, cəsarətli və inamlı addımlarla irəliləyib. Digər problem çəkisi ilə bağlı idi. Tokio Olimpiadasına qədər Avropa çempionu və Astanada Dünya çempionatının 2-cisi olmuşdu. Dünya çempionatı Olimpiadaya lisenziya verirdi. Amma Rafiqin çıxış etdiyi çəki Olimpiya proqramında yox idi. 77 kiloqram çəki dərəcəsində Elvin Mürsəliyev çıxış edirdi. Həmin yarışda olimpiadaya vəsiqə əldə edə bilməmişdi.

Daha sonra Olimpiya təsnifat turnirində də lisenziya qazana bilmədiyi üçün federasiya rəhbərliyi qərara gəldi ki, Rafiq dünya Olimpiya təsnifat turnirində mübarizə aparsın. O, həmin yarışda lisenziyanı əldə edib Tokioda iştirakını rəsmiləşdirdi.

Xatırlayaq ki, Rafiq Hüseynov böyüklər arasında ilk parlaq nailiyyətini 2011-ci ildə Avropa çempionatında qazanıb. Güləşçi bütün rəqiblərini məğlub edərək Avropa çempionu tituluna yiyələnib. O, qitə çempionatında növbəti qələbə üçün isə 9 il gözləməli olub. 2020-ci ildə 2-ci Avropa çempionluğuna imza atıb. Söz yox ki, onun 2019-cu ildə Nur Sultanda keçirilən dünya çempionatında gümüş mükafatı da yüksək nəticə idi. Ümumiyyətlə, həmin illərdən başlayaraq ən parlaq qələbələrə nail olub. 2021-ci ildə “Tokio-2020”nin bürünc mükafatını, Osloda dünya çempionatının qızıl medalını qazanıb. 2022-ci idə 3-cü dəfə qitə çempionatının qalibi olan istedadlı pəhləvan 1 il sonra – 2023-cü ildə yenidən dünya



çempionatında qızıl medala layiq görülüb. 2011-ci ildəki ilk Avropa çempionluğu istisna olmaqla, digər mötəbər yarışlarında qələbələrini 82 kiloqram çəki dərəcəsində əldə edən idmançımız Parisdə 87 kiloqram çəki dərəcəsində mübarizə aparacaq. Təbii ki, idmançının 1 çəki yuxarıda mübarizə aparması da əlavə çətinlik yaradır.

**Radik Hüseynov bu barədə danışarkən 87 kiloqram çəkidə çox güclü idmançıların olduğunu bildirdi:**

– Rafiklə çətin maneələri keçmişik. İnanıram ki, bu dəfə də mübarizədən qalib çıxacağıq. Hazırda Rusiyanın Vladiqafqaz şəhərində Güləş Akademiyasında təlim-məşq toplanışını başa vurmuşuq. Bundan əvvəl isə Göygöl İdman Kompleksində hazırlıq keçiblər. Qubada məşqlərimizi davam etdirəcəyik. Hazırlıq prosesi yaxşı gedir. Köhnə zədələr sağalıb. İnanıram ki, Parisdən yüksək nəticə ilə qayıdacağıq.

Rafiq Hüseynov qəzetimizə müsahibələrinin birində Tokioda daha yaxşı çıxış etmək imkanının olduğunu, amma rəqiblərini yetərincə dəyərləndirə bilmədiyini demişdi. O, Tokio Olimpiadasından çıxardığı nəticəni Paris Oyunlarında nəzərə alacağını vurğulamışdı. Artıq vədə yetişib. Ümid edirik ki, güləşçimiz Parisdə “bürünc”ü “qızıl”a çevirməyi bacaracaq.

***Leyla QURBANOVA***
***XQ***

İstiqlal tariximizin yadigarları

# Əli bəy Hüzeynzadənin skripkası və daha nələr...

**Tarixi şəxsiyyətlərin həyat və mübarizə yoluna olan marağım bu dəfə məni İstiqlal Muzeyinə gətirdi. Muzeyə daxil olar-olmaz Azərbaycanın istiqlal tarixi bütövlükdə gözlərim önündə canlandı.**



Budur, sanki, Azərbaycan davasının, azad və müstəqil yaşam uğrundakı mücadilənin düzəngahını seyr edirəm. Burada sərgilənən Azərbaycan Xalq Cümhuriyyətinin məşhur simalarının fotoları və Əli bəy Hüseynzadəyə aid əşyalar məni bir nöqtədə ayaq saxlamağa vadar edir. Öyrənirəm ki, Cümhuriyyətin 106, Əli bəyin isə 160 illiyi çərçivəsində muzeydə tədbirlər keçirilib, sərgilər təşkil olunub.

İstiqlal Muzeyinin “Cümhuriyyət dövrü” zalında Azərbaycan ictimai fikrinin görkəmli nümayəndəsi, yazıçı-publisist Əli bəy Hüseynzadəyə aid əşyalar, xüsusilə də zalın ən görünən yerində qoyulmuş, yaşı bir əsrdən çox olan musiqi aləti – skripka diqqətimi çəkir. Sən demə, hərtərəfli istedada malik olmuş Əli bəyin musiqiyə də böyük həvəsi olub və vaxtilə bu alətdə bir-birindən gözəl nəğmələr səsləndirib. Görkəmli ziyalımız Avropa bəstəkarlarının və dahi Üzeyir Hacıbəylinin əsərlərinə üstünlük verərmiş. Bu skripka 2016-cı ilədək Əli bəyin şəxsi kolleksiyasında saxlanılıb. Elə həmin il onun qızı Feyzavər Alpsar Turan tərəfindən atasına məxsus 161 ədəd əşyanın arasında Türkiyədən gətirilərək İstiqlal Muzeyinə hədiyyə edilib.

Öyrəndim ki, musiqi alətinin bərpaya ehtiyacı olduğundan 2017-ci ildə Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinə verilib, işlər tamamlandıqdan sonra yenidən muzeyə gətirilib. Həmçinin Əli bəyə məxsus stol və stullar, orden və medallar, fotolar, “Həyat” qəzetinin ilk nüsxəsi, Feyzavər xanımın və oğlanları Səlim Turanın abstrakt üslubda çəkdiyi rəsm əsərləri və digər əşyalar da burada göz bəbəyi kimi qorunur.

Muzeyin direktoru Sədi Mirseyibli söylədi ki, Əli bəy Hüseynzadəyə məxsus əşyalar 2017-ci ilin iyun ayında Mədəniyyət Nazirliyinin dəstəyi, İstiqlal Muzeyinin təşkilatçılığı ilə reallaşan tədbirdə ictimaiyyətə təqdim edilib:

– Prezident İlham Əliyev dahi şəxsiyyət Əli bəy Hüseynzadənin qızı Feyzavər xanımı mədəniyyətə xidmətlərinə görə 2018-ci ildə “Dostluq” ordeni və “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi” medalı ilə təltif edib. Həmin vaxt muzeyimiz Əli bəyin ideya müəllifi olduğu üçrəngli bayrağımızı Feyzəvər xanıma bağışlayıb. 2022-ci ildə İstiqlal Muzeyi tərəfindən “Əli bəy Hüseynzadənin mədəni irsi” adlı kitab-albomu nəşr etdirmişik. Kitabda Əli bəyin kolleksiyasına aid əsərlər və əşyaların fotosu öz əksini tapıb.

Zalda Əli bəy Hüseynzadəyə aid maraqlı materiallardan biri də “Bibiheybət”in ilk orijinal eskizidir. Bu əsərin kətan üzərində olan orijinalı hazırda Milli İncəsənət Muzeyində saxlanılır. O illərdə Əli bəy Hüseynzadə Hacı Zeynalabdin Tağıyevin açdığı mətbəədə fəaliyyət göstərirmiş. Bir gün Hacıya məlumat çatır ki, ingilislər Əli bəyin bu əsərini almaq istəyirlər. Hacı onun ingilislərə satılmağına qarşı çıxır, əsəri özü alıb muzeyə hədiyyə edir və deyir ki, Əli bəy bilməsin, yoxsa o pulu götürməz...

Beləcə, Əli bəy Hüseynzadənin miraslarını gördükcə bir daha şahidi olduq ki, müdrikliyi, dərin fəlsəfi fikir və zəngin təfəkkür tərzi ilə böyük ziyalı imici qazanmış bu böyük mütəfəkkir əbədi ömür qazanmış şəxsiyyətlərdəndir.

***Ceyhun ALIŞLI***

# Süni zəka bəstəkarlıq edir




**Süni intellekt inkişaf etdikcə onun yaradıcılıq yönləri və bədii potensialı da artır. Onlardan biri də musiqi bəstəçiliyidir. Süni zəkanın həyatımıza gətirdiyi ən son yenilik alqoritmlərdən istifadə edərək musiqi bəstələməkdir.**

“Süni” musiqinin hələ böyük klassiklərin əsərləri ilə müqayisə etmək olmasa da, alqoritmlər artıq uğurlu nəticələr əldə etməyi bacarıb. Beləliklə, süni musiqi əsərlərinin bəstələnməsi və musiqi albomlarının yazılmasına artıq başlanılıb. “IAMAI” albomu elektron bəstəkar tərəfindən yazdığı musiqidən ibarətdir. Əlbəttə, bu kompozisiyanı musiqi sənətinin şah əsəri adlandırmaq çətindir, amma uğurlu başlanğıcdır.

2024-cü ildə təqdim olunan süni zəka modeli “Stable Audio 2.0-I” isə irəliyə doğru atılmış daha bir addımdır. Bu neyroşəbəkə 3 dəqiqə davam edən tam treklər yarada bilir. Yeni şəbəkə digər oxşar süni zəka modellərindən də fərqlənir. O, tam strukturlu kompozisiyalar yaradır – giriş, inkişaf və sonluq. Eyni zamanda, stereo effektlər dəstəklənir və seçmə tezliyi 44,1 kHz-ə çatır. Neyroşəbəkə ətrafdakı səsləri, məsələn, izdiham gurultusunu və ya klaviatura tıqqıltıları da ifa edir.

Bir il əvvəl isə Skolkovo Elm və Texnologiya İnstitutu (Skoltech) hər kəsə musiqi əsərlərini öz seçiminə uyğunlaşdırmağa imkan verən neyroşəbəkə yaratdığını elan etmişdi. Bu şəbəkədən yararlanmaqla insan səs, jest və hətta üz ifadələrindən istifadə etməklə musiqiyə “dirijorluq” da edə bilir.

***PÜNHAN***
***XQ***

# Daha bir paralimpiyaçımız “Paris-2024”də

**Paraatletika üzrə milli komandamızın üzvü Rüfət Rəfiyev Paris Yay Paralimpiya Oyunlarında iştirak edəcək.**

Nüvə itələmə növündə mübarizə aparan idmançımızın yüksək idman nəticələri nəzərə alınaraq Dünya Atletika Federasiyası tərəfindən ona lisenziya verilib.

Bu, idmançımızın iştirak edəcəyi ikinci Paralimpiya Oyunları olacaq. R.Rəfiyev Rio Paralimpiadasında debüt edib.

**Paralimpiyaçımız mətbuata açıqlamasında Paralimpiadada yenidən iştirak etməkdən məmnun olduğunu bildirib:**

– Bu hissləri yenidən yaşamaq çox xoşdur. Əsas məqsədim Fransanın paytaxtında yaxşı nəticə qazanmaqdır.




İndi daha təcrübəliyəm. Məşqlərimi tam sürətlə davam etdirirəm. Vətənimi layiqincə təmsil etməyə çalışacağam.

Qeyd edək ki, “Paris-2024” Yay Paralimpiya Oyunları avqustun 28-dən sentyabrın 8-dək təşkil olunacaq.

***L.AZAD***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 146 (30550) 14 iyul 2024-cü il, bazar

# Hücum futbolunun “maestrosu” “kambek”lərin şahzadəsinə qarşı

*İspaniya “Avro–2024”ün odu və ehtirası olsa da, İngiltərə finalın favoriti hesab edilir*

**Səbrsizliklə gözlədiyimiz Avropa çempionatının finalına bu gün start veriləcək. Kubok uğrunda İspaniya və ardıcıl ikinci turnirin həlledici matçına çıxan İngiltərə mübarizə aparacaq. Oyun Berlindəki “Olimpic Stadim”da keçiriləcək.**

Etiraf edək ki, 2024-cü il Avropa çempionatının bu finalçıları turnir boyu çox fərqli təəssürat yaratdılar. Bir tərəfdə oyunundan möcüzələr gözlənilən İngiltərə komandasıdır. Heyətində hər oyunda ən yaxşı qolları və driblinqləri ilə diqqət çəkən məqamlar yaratmağa qabil bir dəstə sehrbaz var. Amma gözəl bir orkestrin ifa etdiyi möhtəşəm şou gözlədiyimiz bir məqamda, iyrənc mənzərələri izləmək məcburiyyətində qaldıq. Üstəlik də dönə-dönə söyləndik: “Daha bunun nəyi çılğın və emosional ingilis futbolu oldu ki?” Amma Hollandiyaya qarşı ilk hissədən başlayaraq ingilislər hələ də parlaq, heyranedici futbol oynamağa qadir olduqlarını göstərə bildilər. Bu isə, oyun konsepsiyasının qəfil dəyişməsindən daha çox, emosional partlayış idi. Etiraf edək ki, Xavi Simonsun ingilis ulduzlarını çıldıran möhtəşəm qolu olmasaydı “şirlər” qəflət yuxusundan bəlkə də ayılmayıb, elə anti-futbol oynamaqda davam edəcəkdilər.

Finalın digər komandası isə, tiki-takadan şaquli cinah hücum futboluna kəskin dönüş edən İspaniya “uşaq” komandasıdır. Bəli, alman futbolunun əfsanələrindən biri Filip Lamın hələ Almaniya ilə qarşılaşmadan əvvəl X sosial şəbəkəsində ironiya ilə “uşaq komandası” adlandırdığı, ancaq sonda ev sahiblərini final matçını tamaşaçı kimi izləməyə yola salan komanda. Bu heyətin bütün oyunlarında ehtiras, fanatlarına adrenalin yaşadan bol-bol anlar, gözəl qollar və Lamin Yamalın simasında - təravət simvolu və gəncliyin mütləq idealları var. Bax bu heyət, ehtiraslı futbol azarkeşlərinin Avropa çempionatında oyununa köklənmək istədikləri komandadır.

Qərar qəbul edərkən insanlar həmişə məntiq və duyğular arasında tarazlıq axtarırlar. Hər kəs başındakı bu qüvvələrin fərqli inkişaf etmiş nisbətlərinə əsaslanaraq seçim edir. Emosiyalar bizi İspaniyaya, məntiq isə İngiltərəyə üstünlük verməyə sövq edir. Burada maraqlı bir yanaşma ortaya çıxır.

Bəli, bu final həm də iki fərqli baş məşqçinin və iki fəlsəfi yanaşmanın – idealizm və praqmatizmin döyüşü olacaq. İdealistlər hesab edirlər ki, maddi dünya şüurumuzun əksidir, düşüncələrimiz və baxışlarımız reallığı müəyyən edir. Beləcə, İspaniya da nəticələr taxtında əyləncə və hissləri qoymadı. O, öz futbolunu oynadı və bunun üçün mükafatlandırıldı. Praqmatistlər əmindirlər ki, yalnız təsirli və səmərəli cavabların axtarışı arzulanan məqsədə gətirib çıxara bilər. Bizim qərarlarımızı ətrafımızdakı dünya müəyyən edir. Faktlara əsaslanan plana ciddi riayət etmək uğurun açarıdır. Əsl ingilis düşüncəsi və məntiqidir. Belə ki, İngiltərə bu Avropa çempionatında qarşısında yalnız bir vəzifə görür - kuboku qazanmaq. Tamaşaçıları əyləndirmək, gözəl qol və kombinasiyalarla yadda qalmaq yox, necə-olur olsun, bu ölkə millisinin futbol tarixinin uzun sürən kuboksuz səhifəsini bağlamaq onlar üçün daha vacibdir.

Həyatda hansı fəlsəfəyə sadiq qalacağımıza hər birimiz özümüz qərar veririk. Ancaq bugünkü finalın favoritlərini qiymətləndirərkən bir çoxları faktlara etibar etməyi daha məntiqli hesab edir - start fiti səslənəndə isə emosiyalar hər şeyi arxada qoyur. Faktlar onu deməyə əsas verir ki, İngiltərə aşkar favorit olmasa belə, sırf praktiki baxımdan uğur qazanmaq şansı daha yüksək olan komandadır. Bunun bir neçə səbəbi var:

1. Sautgeytin komandası son dərəcə ehtiyatla oynayır. O, potensialının 50 faizini belə istifadə etmir. Etsə də tam sürətini yalnız situativ olaraq göstərir. Turnir boyu biz bu komandanı cansıxıcı oyunda günahlandırırdıq, lakin hər dəfə lazım gələndə və turniri tərk etmək təhlükəsi ortaya çıxanda ingilislər öz üslublarını tapırdılar. İspaniya bütün resurslarından istifadə edərək var gücü ilə oynayır. Bu, heyətin potensialından maksimum istifadə edən Luis de la Fuentenin ünvanına bir tərifdir. Amma güc yetənədək oynamaq bütün turnir boyu oynamağa kifayət edəcəkmi? Xüsusən də finalda bütün 90 dəqiqə, bəlkə də 120 dəqiqə boyu tam qüvvə ilə oynamağa potensial imkan verəcəkmi?



2. İkinci məqam birincidən irəli gəlir - İngiltərə hətta rəqibdən daha pis göründüyü matçlarda belə qalib gəlməyi bacarıb. Onlara sadəcə malik olduqları ustalıqları tam aktivləşdirmək, xal toplamaq və məsələni məntiqi nəticəyə çatdırmaq üçün on dəqiqə də bəs edir. Yaxud da Slovakiya və Hollandiya ilə görüşlərdə olduğu kimi son dəqiqələrdə nəticəni əldə etmək ustalığı.

3. Sırf taktiki cəhətdən ingilislərin 3-4-2-1 düzülüşü ispanların güclü tərəflərini zərərsizləşdirmək üçün idealdır. Cinahlarda səmərəli müdafiə yüksək sürətli və texnikalı Yamal və Uilyamsın driblinqlərinə yer qoymayasa. Morata üçün isə eyni anda üç müdafiəçinin diqqətini çəkmək çətin olacaq və iki “10-luğun”- Foden və Bellingemin topsuz səmərəli və yüksək sürətli hərəkətləri, meydanın mərkəzini möhkəmləndirməklə rəqibin oyuna nəzarət etməsinə imkan verməyəcək.

Ancaq bütün bunlar rasionallıqdır və bu, Avroda tez-tez gördüyümüz kimi, emosiyalar və daxili həyəcan işə düşəndə onun qanunları qüvvəsini itirir. Futbol həyatın bu paradokslarını birbaşa müşahidə etmək üçün böyük bir səhnədir. Bu gecə biz idealizmin və ya praqmatizmin təntənəsini görəcəyik. Ancaq bu, böyük bir turnirdə qalib gəlmək üçün hansı üslubun daha uyğun olduğu sualına yalnız orta bir cavab olacaq. Ümumiyyətlə hansı fəlsəfənin daha həyatqabiliyyətli olduğuna hər kəs qərar verəcək.

## Bəs göstəricilər kimi favorit sayır?

Əksər mütəxəssislər ispanları favorit hesab edirlər və bu, əbəs deyil: onlar turnirin bütün oyunlarında qalib gəliblər. Yalnız Almaniya ilə 1/4 finalda bir qədər çətinlik çəkiblər və onları da əlavə vaxtda məğlub ediblər. Bütün digər oyunlarda “Qırmızı furiya” rəqiblərinin öhdəsindən əsas vaxtda gəlib və 11 qol vurub: orta hesabla, hər matçda 2,2 qol. Bu da Avropa çempionatında son dərəcə praqmatik oyun nümayiş etdirən top komandalar arasında çox nadir haldır. Məhz hücum futbolu İspaniyanı 2012-ci ildən sonra ilk dəfə böyük turnirin finalına çıxardı.

Nəticənin belə olmasının səbəblərindən biri də Avropa çempionatının əsas ulduzlarının İspaniyada çıxış etməsidir. Amma Almaniyada parlayan ulduz Dani Olmo “qol+pas” sistemində beş məhsuldar hərəkətlə komandaya liderlik edir. Bu gənc hücumameyilli yarımmüdafiəçi turnir ərzində cəmi iki dəfə start heyətində oynayıb. Olmonun dəyəri onun pley-off mərhələsində dörd məhsuldar xal qazanmasında özünü göstərir. Bu yarışda onu Fransa ilə yarımfinalın əsas qəhrəmanı Fabian Ruiz (2+2) və Lamin Yamal (1+3) təqib edir. Fransa ilə yarımfinal matçında 16 yaşlı hücumçu 21-ci dəqiqədə uzaq məsafədən möhtəşəm zərbə ilə hesabı bərabərləşdirərək Avropa çempionatları tarixinin ən gənc qolçusu oldu. Bundan bir az əvvəl isə o, ən gənc qol ötürməsi edən futbolçu tituluna sahib olmuşdu.

Yarımfinaldan sonra fransız Antuan Qrizmann etiraf edib ki, ispanlar onlardan daha yaxşı oynayıblar. “Biz bilirdik ki, onlar uzaq məsafədən yaxşı zərbələr endirə bilirlər, ancaq buna imkan verdik. Laminin solaxay olduğunu bilirdik və ona sol ayağı ilə zərbə endirməyə imkan verdik. İspaniyanın ilk qolu bizi yaraladı, dörd dəqiqə sonra vurulan ikinci qol bizi məhv etdi. Yorğunluq və ya buna bənzər bir bəhanə yoxdur, onlar da əlavə vaxt oynamışdılar. Onlar hər şeydə daha yaxşı idilər”.

İngiltərə finala o qədər də inamlı çıxmadı - qrup mərhələsində yalnız bir qələbə qazandılar. Sautgeytin komandası Avro tarixində, hətta 1/4 finalda və yarımfinalda oyunun gedişi zamanı uduzaraq, sonradan vəziyyəti dəyişərək finala yüksələn ilk komanda oldu. Hətta hələ 1/8 finalda "şirlər" turnirdən kənarda qalmağa çox yaxın oldular - Slovakiya ilə matçda Cud Bellingem onları əsas vaxtın son dəqiqəsində məğlubiyyətdən xilas etdi.

Britaniyalılar əsas vaxtda yalnız yarımfinalda qalib gəliblər: 1/8-də əlavə vaxtda, 1/4 finalda - penaltilər seriyasında qalib ola biliblər. Hollandlarla qarşılaşmada isə əlavə yarım saat çox yaxın idi, amma əsas vaxtın 91-ci dəqiqəsində Olli Uotkins qələbə qolunu vurdu. Bununla belə, Hollandiya ilə qarşılaşmada Qaret Sautgeytin komandası turnirdə ilk dəfə cəlbedici, əsl ingilis futbolu nümayiş etdirdi.

*Hazırladı:*
***İlqar RÜSTƏMOV***
***XQ***

## Finallar nələr söyləyir?




### İspaniya

İspaniyanın Avropa çempionatının final mərhələsindəki statistikası:
1964 - SSRİ ilə 2:1 (Madrid)
1984 - Fransa (Paris) ilə 0:2
2008 - Almaniya (Vyana) ilə 1:0
2012 - İtaliya ilə 4:0 (Kiyev)

2008-ci Avropa çempionu olan İspaniya 2012-ci ildə titulunu qorumağı bacaran yeganə komandadır.

2012-ci ildə Kiyevdə İtaliya üzərində 4:0 hesablı qələbə Avropa çempionatları tarixinin finalı üçün rekorddur.

Hazırkı turnirdə İspaniya beşinci finalında oynayır. Bu göstəriciyə görə o, 6 final oynayan Almaniyadan sonra ikincidir.

### İngiltərə

İngiltərə Avronun əvvəlki 2020-ci ildə baş tutan yeganə finalında məğlub olub.

Bu günə kimi 10 komanda Avropa çempionatının qalibi olub. İngiltərə 2016-cı ildə bu titulu qazanan Portuqaliyadan sonra növbəti 11-ci çempion ola bilər.

Artıq altıncı dəfədir ki, bir komanda ardıcıl iki dəfə Avropa çempionatının finalına yüksəlir. İngilislərdən əvvəl buna SSRİ (1960, 1964), Almaniya (1972, 1976; 1980; 1992, 1996) və İspaniya (2008, 2012) yığmaları nail olub.

Heç bir komanda Avronun iki finalında ardıcıl məğlub olmayıb; yalnız Yuqoslaviya (1960, 1968) iki dəfə finalda oynayıb, lakin heç vaxt kuboku qazana bilməyib.

Qaret Sautgeyt Avropa çempionatının finalına iki dəfə yüksələn üçüncü məşqçi oldu. Bunu ondan əvvəl bunu Helmut Şön və Berti Foqts edib.

### Matç öncəsi zədələr və cəzalılar

İspanlarda Alvaro Moratanın vəziyyəti narahatlıq doğurur. Fransa ilə oyundan sonra “stüard” meydana çıxan azarkeşi qovarkən ispanların kapitanının ayağına yıxılıb və bundan dərhal sonra Morata axsamağa başlayıb. Lakin sonradan Morata bildirib ki, o yaxşıdır.

Komandaların başqa heç bir problemi yoxdur.



# İstiləşmə yeni göbələk infeksiyaları yaradır

**Qlobal istiləşmə göbələk infeksiyalarının mutasiyaya uğrayaraq dərmana davamlı olmasına səbəb olur. Bununla bağlı Çinin Nankin Tibb Universitetinin tədqiqatçıları artan temperaturun göbələklərin təkamülünə necə təsir etdiyini araşdırıblar.**

Müəyyən edilib ki, yüksək temperatur göbələklərin genetik strukturunda dəyişikliklərə səbəb olur. Bu isə onların həm yoluxuculuğunu artırır, həm də dərmanlara davamlı edir. Mütəxəssislər insanlarda göbələk infeksiyalarının tez-tez aşkar edildiyini və ciddi fəsadlar yaratdığını nəzərə alaraq bunun, xüsusilə, narahatedici olduğunu bildirirlər.



Çin xəstəxanalarında aparılan araşdırma ilə tədqiqatçılar yeni göbələk növlərinin meydana gəldiyini və bəzilərinin xəstəlik zamanı istifadə edilən antifungal dərmanlara qarşı müqavimət göstərdiyini də müəyyən ediblər. Bu növlərin aqressiv inkişaf etdiyi və 37 dərəcəyə, yəni insan bədən istiliyinə məruz qaldıqda belə immunitet sisteminə davamlı olduğu müşahidə edilib.

Alimlər vurğulayırlar ki, nəticə etibarı ilə qlobal istiləşmə artdıqca bu cür göbələklərin daha çox yayılması və təhlükəli hal alması riski arta bilər. Buna görə də yeni antifungal dərmanların hazırlanması və mövcud müalicə variantlarının təkmilləşdirilməsinə təcili ehtiyac var.

**Z.HÜSEYNLİ**
**XQ**

**Hava**

# Abşeronda yağmursuz, bölgələrdə yağış, duman və külək...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyulun 14-də Bakıda və Abşeron yarımadasında hava əsasən yağmursuz keçəcək. Mülayim şimal-şərq küləyi əsəcək. Gecə 21-26°, gündüz 31-36° isti olacaq.**

Atmosfer təzyiqi normadan aşağı 756 mm civə sütunu, nisbi rütubət gecə 50-60, gündüz 30-35 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 26-27° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək, gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 22-26°, gündüz 33-38°, dağlarda gecə 11-16°, gündüz 20-25° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

## “Sumqayıt Avtomotoservis” ASC səhmdarlarının nəzərinə!

Hüquqi ünvanı Sumqayıt şəhəri, Sülh küçəsi 76-cı məhəllə olan “Sumqayıt Avtomotoservis” ASC səhmdarlarının növbəti ümumi yığıncağı 29 avqust 2024-cü il saat 15.00-da inzibati binada keçiriləcəkdir.

Səhmdarların ümumi yığıncağının gündəliyi:

**1.** Səhmdar cəmiyyətinin 2023-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin yekunları barədə hesabatı.

**2.** Cəmiyyətin İcra orqanlarının formalaşdırılması:
- İdarə heyəti sədrinin seçilməsi,
- Müşahidə Şurasının seçilməsi,
- Təftiş komissiyasının seçilməsi.

**3.** Digər məsələlər.

Əlaqə üçün telefon nömrələri: (055) 230 22 26; (050) 361 50 04.

Ümumi yağaıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiq edən sənədlə iştirakı vacibdir.

***İdarə heyəti***

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29**
**Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com**
**Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az**
**+994(51) 280-16-44**

**“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.**

**ÜNVANIMIZ:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

| | |
|---|---|
| İNDEKS | 0282 |
| TİRAJ | 3027 |
| SİFARİŞ | 1517 |
| QİYMƏTİ | 60 qəpik |

**Növbətçi redaktor**
**Mirbağır YAQUBZADƏ**
**Çapa imzalanmışdır 00:00**